Xalqın qəzeti!

# Xalq qəzeti

№ 232 (30926) 30 oktyabr 2025-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi

# Rumıniya Azərbaycanın önəmli "yaşıl" enerji ixracı tərəfdaşıdır

## Prezident İlham Əliyev Rumıniya Parlamenti Senatının sədrini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 29-da Rumıniya Parlamenti Senatının sədri Mirça Abrudeanı qəbul edib.**

Qonaq Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşması, bu xüsusda Vaşinqtonda ABŞ Prezidentinin şahidliyi ilə bəyannamənin imzalanması, Azərbaycan ilə Ermənistan arasında sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında Sazişin paraflanması münasibətilə dövlətimizin başçısını təbrik etdi, bunun bütün regionda sülhün təmin olunmasına və inkişafa xidmət edəcəyinə ümidvarlığını bildirdi.

Mirça Abrudean bu gün Bakıda Milli Məclisin xətti ilə keçirilən Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsinin 30 illiyinə həsr olunmuş beynəlxalq parlament konfransında iştirakdan məmnunluğunu ifadə etdi, bu tədbirin yüksək səviyyədə təşkil olunduğunu dedi.

Azərbaycan ilə Rumıniyanın dost və tərəfdaş ölkələr olduğunu vurğulayan qonaq əməkdaşlığın daha da inkişaf etdirilməsi üçün geniş imkanların mövcudluğunu vurğuladı. Senatın sədri ikitərəfli münasibətlərin inkişafında parlamentlərarası əlaqələrin, həmçinin beynəlxalq parlament təsisatlarında əməkdaşlığın önəmini qeyd etdi.

Təbriklərə görə təşəkkürünü bildirən dövlətimizin başçısı Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin irəli aparılması ilə bağlı məsələdə Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın xüsusi roluna toxundu, bu istiqamətdə əldə olunmuş nailiyyətlərin bütün region üçün tarixi əhəmiyyət kəsb etdiyini dedi.

Söhbət zamanı Azərbaycan, Rumıniya, Gürcüstan və Macarıstanın iştirakı ilə Buxarestdə imzalanmış Qara dənizinin dibi ilə elektrik kabel xəttinin tikilməsi layihəsi üzrə Sazişin önəmi vurğulandı, bunun ölkəmizin və Mərkəzi Asiya regionu dövlətlərinin bərpaolunan enerji resurslarının Avropa bazarlarına çıxarılması baxımından əhəmiyyətinə toxunuldu.

Görüşdə Azərbaycanla Rumıniya arasında müxtəlif sahələrdə əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparıldı.

## Birinci vitse-prezident Mehriban Əliyeva Türkiyənin Cümhuriyyət Bayramı münasibətilə paylaşım edib




Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi instaqram səhifəsində 29 Oktyabr – Türkiyənin Cümhuriyyət Bayramı münasibətilə paylaşım edib.

**Paylaşımda deyilir:**

*"Qoy xalqlarımızın qürur mənbəyi olan Azərbaycan–Türkiyə birliyi və qardaşlığı əbədi və sarsılmaz olsun!"*.

## ABŞ–Mərkəzi Asiya münasibətlərində yeni mərhələ

*"İqtisadi güc" meyarı ilə özünü təsdiqləyən Azərbaycan*



**XXI əsrin qlobal siyasətində Mərkəzi Asiya enerji və xammal bazası olmaqla yanaşı, həm də böyük güclərin strateji təsir dairələrini müəyyənləşdirən mərkəzi geoiqtisadi sahəyə çevrilib. Regionda baş verən proseslər dünya ticarət zəncirlərinin, enerji təhlükəsizliyinin və texnoloji transformasiyanın istiqamətinə təsir göstərir. Donald Trampın liderliyi ilə Vaşinqtonun bu regiona baxışı yeni mərhələnin başlanğıcı kimi qiymətləndirilir. Əgər 2000-ci illərin əvvəllərində ABŞ-ın Mərkəzi Asiyaya yanaşması əsasən təhlükəsizlik və antiterror aspektləri ilə müəyyən edilirdisə, 2020-ci illərin ortalarında prioritet "iqtisadi realizm", yəni resurs, logistika və texnologiya əsaslı diplomatiya xətti ilə əvəzlənib.**

*(ardı 6-cı səhifədə)*

## Doğma yurdlara dönən karvanlar...



**Beşinci ildönümü bir neçə gündən sonra qeyd olunacaq Böyük Zəfərdən dərhal sonra Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın işğaldan azad edilmiş ərazilərə səfərləri, Böyük Qayıdışla bağlı tədbirlərin icrasının daim nəzarətdə saxlanılması öz ata-baba yurduna qayıtmağa hazırlaşan keçmiş məcburi köçkünlərdə dərin razılıq və minnətdarlıq hissi doğurur.**

*(ardı 12-ci səhifədə)*

## Zəfər yürüşü xalqımıza tarixin ən böyük Qələbəsini qazandırdı



Səhifə ⇨ 10

## Bakı–Tbilisi–Qars dəmir yolu – Orta Dəhlizin Qafqaz arteriyası



Səhifə ⇨ 13

## Ermənistan rəhbərliyi 44 günlük savaş dövründə



Səhifə ⇨ 7

## "Tramp marşrutu" Zəngəzur dəhlizidir – "Dünyanın kəsişməsi" yox!

Səhifə ⇨ 4

# Prezident İlham Əliyev BƏƏ parlamenti sədrini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 29-da Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ) Federal Milli Şurasının sədri Saqr Qobaşın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.**

Qonaq, ilk növbədə, Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın salamlarını dövlətimizin başçısına və Azərbaycan xalqına çatdırdı. Saqr Qobaş bildirdi ki, Şeyx Məhəmməd bin Zayed Al Nəhyan bu ilin sentyabrında Azərbaycana, Şuşa şəhərinə səfərini və dövlətimizin başçısı ilə görüşünü məmnunluqla xatırlayır.

Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsinin 30 illiyinə həsr olunmuş beynəlxalq parlament konfransının yüksək səviyyədə təşkil edildiyini deyən Birləşmiş Ərəb Əmirlikləri Federal Milli Şurasının sədri vurğuladı ki, bu tədbir ölkəmizin konstitusional dəyərlərə və suverenliyə nə qədər sadiq olduğunun və əhəmiyyət verdiyinin bariz nümunəsidir.

Qonaq Azərbaycanın inkişafına toxunaraq, bunun Prezident İlham Əliyevin uzaqgörən siyasəti nəticəsində mümkün olduğunu vurğuladı. Saqr Qobaş paytaxt Bakının gözəlliyinin və memarlığının onda dərin təəssürat hissi yaratdığını dedi.

Dövlətimizin başçısı salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Birləşmiş Ərəb Əmirliklərinin Prezidentinə və xalqına çatdırmağı xahiş etdi.

Prezident İlham Əliyev Şeyx Məhəmməd bin Zayed Al Nəhyanla həm Əbu-Dabidə, həm də Azərbaycanda Bakı və Şuşa şəhərlərində görüşlərini və aparılmış müzakirələri məmnunluqla xatırladı.

Dövlətimizin başçısı Birləşmiş Ərəb Əmirliklərinin sabiq prezidenti Şeyx Zayed bin Sultan Al Nəhyanın uzaqgörən siyasəti və ölkə rəhbərliyinin ardıcıl səyləri nəticəsində Birləşmiş Ərəb Əmirliklərinin uğurlu nümunəvi inkişafını qeyd etdi.

Ulu öndər Heydər Əliyevin BƏƏ-nin sabiq Prezidenti Şeyx Zayed bin Sultan Al Nəhyan ilə 1994-cü ildə İslam Əməkdaşlıq Təşkilatının Kasablanka Sammitində görüşü xatırlanaraq, məhz həmin görüşdə ölkələrimiz arasında hazırkı münasibətlərin təməlinin qoyulduğu vurğulandı.

Qonaq regionda sülhün təmin olunması, Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşması münasibətilə Prezident İlham Əliyevi təbrik etdi.

Dövlətimizin başçısı təbriklərə görə təşəkkürünü bildirərək, Ermənistanın Azərbaycana qarşı 30 il davam edən işğalından sonra hər iki tərəfin hazırda sülh şəraitində yaşamağa uyğunlaşdığını bildirdi.

Prezident İlham Əliyev bundan sonra da ölkəmizin regionda davamlı sülhün təmin olunması, nəqliyyat layihəsinin, xüsusilə TRIPP xətti üzrə nəqliyyat bağlantılarının yaradılması istiqamətində səylərini davam etdirəcəyini dedi.

Söhbət zamanı Azərbaycanla BƏƏ arasında münasibətlərin strateji tərəfdaşlıq səviyyəsində bütün istiqamətlər üzrə uğurla inkişaf etdiyi qeyd olundu. Bu xüsusda "Masdar" şirkətinin Azərbaycana bərpaolunan enerji sektoruna sərmayələrinə, SOCAR-ADNOC əməkdaşlığına, qarşılıqlı investisiyalara toxunuldu.

***AZƏRTAC***

# Apellyasiya instansiyası məhkəmələri sədrlərinin müavinlərinin, məhkəmə kollegiyaları sədrlərinin, birinci instansiya məhkəmələri hakimlərinin, sədrlərinin və sədr müavininin təyin edilməsi ilə bağlı bəzi məsələlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Məhkəmə-Hüquq Şurasının təkliflərini nəzərə alaraq, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 9-cu və 32-ci bəndlərini rəhbər tutaraq **qərara alıram:**

1. "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 94-cü maddəsinə və 97-ci maddəsinin ikinci hissəsinə uyğun olaraq,

**apellyasiya instansiyası məhkəmələri üzrə:**

1.1. Ələddin Tofiq oğlu Məcidov Şəki Apellyasiya Məhkəməsi sədrinin müavini təyin edilsin;

1.2. Samir Firdusi oğlu Həsənov Şirvan Apellyasiya Məhkəməsinin İnzibati Kollegiyasının sədri vəzifəsindən azad edilərək həmin məhkəmənin sədrinin müavini təyin edilsin;

1.3. Zahid Tahir oğlu Məmmədov Sumqayıt Apellyasiya Məhkəməsinin Kommersiya Kollegiyasının sədri təyin edilsin;

1.4. Xəqani Hacı oğlu Səmədov Şəki Apellyasiya Məhkəməsinin Cinayət Kollegiyasının sədri təyin edilsin;

**ağır cinayətlər məhkəmələri üzrə:**

1.5. Hüseyn İnanc oğlu Hüseynli Bakı şəhəri Xəzər Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Bakı Ağır Cinayətlər Məhkəməsinin hakimi təyin edilsin;

1.6. Nigar Arzu qızı İmanova Bakı şəhəri Sabunçu Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Bakı Ağır Cinayətlər Məhkəməsinin hakimi təyin edilsin;

1.7. Babək Əkbər oğlu Pənahov Bakı şəhəri Nəsimi Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Bakı Ağır Cinayətlər Məhkəməsinin hakimi təyin edilsin;

**hərbi məhkəmələr üzrə:**

1.8. Fərman Məmməd oğlu Abbasov Tərtər Hərbi Məhkəməsinin hakimi və sədri təyin edilsin;

**inzibati məhkəmələr üzrə:**

1.9. Rəşad Mövsüm oğlu Nuriyev Ağcabədi Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Şirvan İnzibati Məhkəməsinin hakimi təyin edilsin;

**kommersiya məhkəmələri üzrə:**

1.10. İlkin Əli oğlu Əliyev Bakı şəhəri Binəqədi Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Bakı Kommersiya Məhkəməsinin hakimi təyin edilsin;

1.11. Fərid Eldar oğlu Hətəmzadə Bakı şəhəri Binəqədi Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Bakı Kommersiya Məhkəməsinin hakimi təyin edilsin;

**Naxçıvan Muxtar Respublikasının rayon (şəhər) məhkəmələri üzrə:**

1.12. İlham Sadət oğlu İbrahimov Naxçıvan Muxtar Respublikası Hərbi Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Naxçıvan Muxtar Respublikası Kəngərli Rayon Məhkəməsinin hakimi və sədri təyin edilsin;

**Bakı şəhərinin rayon məhkəmələri üzrə:**

1.13. Fuad Ələsgər oğlu Hüseynov Bakı şəhəri Qaradağ Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Bakı şəhəri Yasamal Rayon Məhkəməsinin hakimi təyin edilsin;

**rayon (şəhər) məhkəmələri üzrə:**

1.14. İlqar Vidayət oğlu Hüseynov İsmayıllı Rayon Məhkəməsinin sədri təyin edilsin;

1.15. Emin İlham oğlu Məmmədli Bakı şəhəri Xəzər Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Oğuz Rayon Məhkəməsinin hakimi və sədri təyin edilsin;

1.16. Zaman Şakir oğlu İmanov Gəncə Şəhər Məhkəməsi sədrinin müavini təyin edilsin.

2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 29 oktyabr 2025-ci il**

# "Konstitusiya və Suverenlik İli" çərçivəsində Beynəlxalq Parlament Konfransı





**Oktyabrın 29-da Milli Məclisdə Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsinin 30 illiyinə həsr olunmuş "Konstitusiya müasir dünyada dövlətlərin müstəqilliyinin və suverenliyinin təməli kimi" mövzusunda beynəlxalq parlament konfransı keçirilib.**

Tədbirdə 20-dək ölkənin parlament nümayəndə heyətləri, 5 beynəlxalq təşkilatın təmsilçiləri iştirak ediblər.

Konfransı giriş nitqi ilə açan Milli Məclisin Sədri Sahibə Qafarova bildirib ki, beynəlxalq parlament konfransının Azərbaycanda keçirilməsinin dərin rəmzi mənası var. Bu il biz müstəqil dövlətimizin ilk Konstitusiyasının qəbul olunmasının 30 illiyini qeyd edirik. Bununla əlaqədar 2025-ci il Azərbaycanda "Konstitusiya və Suverenlik İli" elan olunub.

Azərbaycan dövlətçiliyinin tarixi ağır sınaqlar və parlaq qələbələr tarixidir. 1991-ci ildə müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan siyasi, iqtisadi, hərbi və digər sahələrdə mürəkkəb vəziyyətə düşmüşdü. Ölkəmizə qarşı silahlı təcavüz və daxili böhran dövlət müstəqilliyinin itirilməsi təhlükəsini törətmişdi.

Belə bir şəraitdə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin əzmlə həyata keçirdiyi tarixi missiya ölkəmizin qarşısında dayanan problemləri aradan qaldırmağa, vəziyyəti sabitləşdirməyə, qanunçuluğu bərpa etməyə və müasir dövlətin əsaslarını yaratmağa imkan verdi. Onun rəhbərliyi ilə hazırlanmış və 1995-ci ildə qəbul edilmiş Konstitusiya ölkənin inkişaf strategiyasını irəli sürdü, xalqın suverenliyi, qanunun aliliyi, hakimiyyət bölgüsü prinsiplərini müəyyən etdi, insan hüquqlarının və azadlıqlarının müdafiəsi üçün təminatlar yaratdı.

Milli Məclisin Sədri deyib ki, ulu öndər Heydər Əliyevin başladığı yol Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilir. 2020-ci ilin Vətən müharibəsində və 2023-cü ilin antiterror əməliyyatında əldə edilən tarixi qələbələr nəticəsində Azərbaycan özü beynəlxalq hüququn qüvvəsini bərpa edib. Dövlətimizin ərazi bütövlüyünün və suverenliyinin bərqərar edilməsi ilə Azərbaycan Konstitusiyasında müəyyənləşdirilmiş prinsiplər real həyatda öz təcəssümünü tapıb.

Birləşmiş Ərəb Əmirliklərinin Federal Milli Şurasının sədri Saqr Qobaş Azərbaycan Konstitusiyasının qəbul edilməsinin 30-cu ildönümü münasibətilə təbriklərini çatdıraraq, ölkənin suverenliyinin möhkəmləndirilməsi, dayanıqlı inkişafın təmin edilməsində Konstitusiyanın rolunu qeyd edib. Son 30 il ərzində Azərbaycanda milli iradə, siyasi uzaqgörənlik sayəsində hərtərəfli inkişafın müşahidə olunduğunu söyləyib.

Sonra Pakistan İslam Respublikası Senatının sədri Syed Yusuf Raza Gilani çıxışında Azərbaycan üçün əlamətdar hadisə - ölkə Konstitusiyasının qəbul edilməsinin 30 illiyi münasibətilə keçirilən tədbirdə iştirakından məmnunluğunu ifadə edib. Qonaq ümummilli lider Heydər Əliyevin Azərbaycanın demokratik prinsiplərə əsaslanan Konstitusiyasının hazırlanmasında və qəbul edilməsində müstəsna xidmətlərini xüsusi qeyd edib. O, Prezident İlham Əliyevin Azərbaycan dövlətinin suverenliyini və müstəqilliyini qorumaq, ərazi bütövlüyünü təmin etmək və ölkənin beynəlxalq mövqeyini möhkəmləndirmək sahəsində atdığı mühüm əhəmiyyətli addımları təqdir edib.

Konfransda çıxış edən Tacikistan Ali Məclisinin Nümayəndələr Palatasının sədri Fayzali İdizoda Azərbaycan Konstitusiyasının 30 illiyi ilə əlaqədar təbriklərini çatdırıb, Konstitusiyanın hər bir müstəqil dövlətin hüquqi, siyasi və sosial əsasını təşkil edən, dövlətin suverenliyini təsdiqləyən ali hüquqi sənəd olduğunu qeyd edib. Tacikistanla Azərbaycan arasında dərin tarixi köklərə, ortaq mədəni dəyərlərə, adət-ənənələrə əsaslanan dostluq əlaqələrinin olduğunu söyləyib

Rumıniya Parlamenti Senatının sədri Mirça Abrudean Rumıniyanın Azərbaycanla əlaqələrinə önəm verdiyini bildirib. Azərbaycan Konstitusiyasının 30 illiyinin qeyd edilməsini ölkə həyatında mühüm hadisə kimi dəyərləndirib. Konstitusiyanın dövlətçilik ənənələrinin möhkəmləndirilməsi, ölkənin siyasi sisteminin əsaslarının təmin edilməsi, ərazi bütövlüyünün, suverenliyin qorunması, qanunun aliliyi, insan hüquq və azadlıqlarına əməl edilməsi baxımından önəmli olduğunu söyləyib.

Konfransda Belarus Milli Assambleyası Respublika Şurasının sədr müavini Vladislav Tatarinoviç, Gürcüstan Parlamentinin sədr müavini Nino Tsilosani, Serbiya Milli Assambleyasının sədr müavini Covan Canciç, Kamboca Milli Assambleyası sədrinin ikinci müavini Sot Vonq, Türkiyə Böyük Millət Məclisinin üzvləri Hasan Turan və Şamil Ayrım, Özbəkistan Ali Məclis Senatının komitə sədri Əbdulhakim Eşmuratov, Rusiya Federal Məclis Federasiya Şurasının deputatı Natalya Kuvşinova, Pakistan Milli Assambleyasının deputatı Sofiya Said Şah, Qazaxıstan Parlament Məclisinin üzvü Aydos Sarım, İtaliya Deputatlar Palatasının üzvü Eucenio Zoffili, Malayziya Senatının üzvü Mohd Hatta Bin Ramli və Cənubi Afrika Milli Assambleyasının üzvü Verner Horn çıxış edərək, Azərbaycan Konstitusiyasının qəbul edilməsinin 30 illiyi münasibətilə səmimi təbriklərini çatdırıb, yüksək təşkilatçılığa görə minnətdarlıqlarını bildiriblər.

Çıxışçılar öz ölkələri ilə Azərbaycanın konstitusiya tarixləri arasında paralellər aparıblar, müstəqillik və suverenlik uğrunda mübarizədə oxşar tarixi təcrübələrə diqqət çəkiblər.

Sonra konfransda Qlobal Tolerantlıq və Sülh Şurasının sədri Əhməd Əlcarvan, Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Aktotı Raimkulova, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının Baş katibi Asəf Hacıyev və Türk Dövlətləri Parlament Assambleyasının Baş katibinin müavini Muhammet Alper Hayali çıxış ediblər.

Çıxış edənlər Azərbaycanın sülhə, tərəqqiyə və əməkdaşlığa verdiyi töhfələri yüksək qiymətləndirərək Azərbaycan Milli Məclisi ilə əməkdaşlıqdan məmnunluqlarını ifadə ediblər.

***XQ***

# Hikmət Hacıyevin Türkiyə XİN başçısının müavini ilə görüşü



**Azərbaycan Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Bakıda səfərdə olan Türkiyənin xarici işlər nazirinin müavini Ayşe Berris Ekinci ilə görüşüb.**



Bu barədə Türkiyə Xarici İşlər Nazirliyi "X" sosial şəbəkəsində paylaşım edib.

Bununla yanaşı, türkiyəli diplomat Azərbaycan Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Xələf Xələfovla da görüşüb.

Görüşlər zamanı ikitərəfli münasibətlər, regional əməkdaşlıq və əlaqələrin inkişafı məsələləri müzakirə olunub.

***XQ***

# Azərbaycan–Oman əməkdaşlığı genişlənir



**Oktyabrın 29-da Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Oman Sultanlığına rəsmi səfəri çərçivəsində Oman Dövlət Şurasının sədri Şeyx Əbdülməlik Al Xəlili ilə görüşüb.**

Görüş zamanı tərəflər Azərbaycan ilə Oman arasında dostluq və qarşılıqlı hörmətə əsaslanan münasibətlərin inkişafından məmnunluq ifadə edib, əməkdaşlığın müxtəlif istiqamətlərdə, o cümlədən iqtisadi, ticarət, enerji və humanitar sahələrdə genişləndirilməsi imkanlarını müzakirə ediblər.

Ölkələrimiz arasında parlamentlərarası əməkdaşlıq əlaqələrinin inkişafı məmnunluqla qeyd edilib, hər iki parlamentdə dostluq qruplarının yaradılmasının münasibətlərin inkişafı istiqamətində mühüm addım olduğu vurğulanıb. Omanda Azərbaycan səfirliyinin fəaliyyətə başlamasının iki ölkə arasında əməkdaşlığın daha da genişlənməsinə və əlaqələrin dərinləşməsinə yeni imkanlar yaratdığı qeyd olunub.

Nazir Ceyhun Bayramov Azərbaycan tərəfindən 2026-cı ildə Bakıda keçiriləcək İslam Əməkdaşlıq Təşkilatının növbəti Zirvə görüşü və Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasına ev sahibliyinin əhəmiyyətinə toxunaraq bu tədbirlərin dialoq, həmrəylik və dayanıqlı inkişaf prinsiplərinin təşviqi baxımından yeni əməkdaşlıq imkanları yaradacağını bildirib.

***XQ***

# Türkiyənin milli bayramı Bakıda təntənə ilə qeyd edildi







**Türkiyə Respublikasının yaranmasının 102-ci ildönümü münasibətilə oktyabrın 29-da Bakıda rəsmi qəbul təşkil edilib.**

Prezident Rəcəb Tayyib Ərdoğanın ölkəsinin milli bayramı münasibətilə təbrik məktubu səfir Birol Akgün tərəfindən oxunub.

Birol Akgün bildirib ki, dünyanın bütün xalqları ilə barış və harmoniya içində yaşamaq Türkiyənin əsas məqsədlərdən biridir. Onun sözlərinə görə, Mustafa Kamal Atatürkün "Yurdda sülh, cahanda sülh" kəlamı bu fikri ən gözəl şəkildə ifadə edir.

"Biz hamımız Azərbaycan və Türkiyə arasında qəlblərə kök salmış istisna bir qardaşlığın şahidiyik. "Bir millət, iki dövlət" anlayışı ilə Türkiyə hər zaman Azərbaycanı beynəlxalq platformalarda ən güclü şəkildə dəstəkləməyə davam edəcək", – deyə səfir vurğulayıb.

Səfir bildirib ki, Prezident İlham Əliyevin liderliyi ilə Azərbaycan tək yumruq kimi birləşərək işğal altındakı torpaqlarımızı azad etdi, öz milli sərhədləri daxilində tam suverenliyinə qovuşdu: "Bu bölgədə qurulacaq sülh və sabitlikdən yalnız region ölkələri deyil, bütün dünya fayda görəcək".

Milli Məclisin Sədri Sahibə Qafarova isə bildirib ki, müasir dövrün görkəmli siyasi və dövlət xadimi Rəcəb Tayyib Ərdoğanın rəhbərliyi ilə Türkiyə bu gün dünyanın ən qüdrətli dövlətlərindən birinə çevrilib.

Sahibə Qafarova qeyd edib ki, Şuşa Bəyannaməsi iki ölkə arasındakı münasibətləri ən yüksək zirvəyə – müttəfiqlik səviyyəsinə yüksəldib. O bildirib ki, 44 günlük Vətən müharibəsində Türkiyənin Azərbaycanın yanında olmasını xalqımız heç zaman unutmayacaq.

Rəsmi qəbul konsert proqramı ilə davam edib.

*XQ*

# Milli Məclisdə görüşlər



**Milli Məclisin Sədri Sahibə Qafarova oktyabrın 29-da Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsinin 30 illiyinə həsr olunmuş Beynəlxalq Parlament Konfransında iştirak etmək məqsədilə ölkəmizdə səfərdə olan Tacikistan Respublikası Ali Məclisi Nümayəndələr Palatasının sədri Fayzali İdizoda ilə görüşüb.**

Fayzali İdizodanı Nümayəndələr Palatasının sədri seçilməsi münasibətilə təbrik edən spiker Sahibə Qafarova, Tacikistanın bu beynəlxalq konfransda yüksək səviyyədə iştirakına görə təşəkkür edib.

Görüşdə xalqlarımızı ortaq mədəni və mənəvi dəyərlərin birləşdirdiyi qeyd olunaraq, bu əlaqələrin daha da inkişaf etdirilməsinin mühüm əhəmiyyət daşıdığı diqqətə çatdırılıb.

Tərəflər parlamentlərimiz arasında da əlaqələrin mövcud səviyyəsindən məmnunluqlarını ifadə ediblər.

***

**Spiker Sahibə Qafarova Beynəlxalq Parlament Konfransında iştirak etmək üçün ölkəmizə gəlmiş Belarus Respublikası Milli Assambleyası Respublika Şurası sədrinin müavini Vladislav Tatarinoviçi qəbul edib.**

Vladislav Tatarinoviçi Milli Assambleyanın Respublika Şurası sədrinin müavini seçilməsi münasibətilə təbrik edən spiker Sahibə Qafarova Belarus nümayəndə heyətinin bu beynəlxalq tədbirdə iştirakından məmnunluğunu bildirib.

Vladislav Tatarinoviç, Beynəlxalq Parlament Konfransının yüksək səviyyədə təşkili ilə əlaqədar təbriklərini ifadə edib. O, Azərbaycan Respublikası Konstitusiyasının 30 illiyi ilə əlaqədar Belarus Milli Assambleyası Respublika Şurasının sədri Natalya Koçanovanın təbrik məktubunu Milli Məclisin sədri Sahibə Qafarovaya təqdim edib və salamlarını çatdırıb.

***

**Azərbaycan parlamentinin rəhbəri həmin gün Beynəlxalq Parlament Konfransında iştirak etmək məqsədilə ölkəmizdə səfərdə olan Kamboca Krallığı Milli Assambleyası sədrinin müavini Sot Vonq ilə də görüşüb.**

Spiker Sahibə Qafarova Azərbaycan üçün əhəmiyyət kəsb edən bu konfransda dost ölkələrin parlament nümayəndə heyətlərinin iştirakını yüksək qiymətləndirdiyini bildirib.

Kamboca Milli Assambleyası sədrinin müavini Beynəlxalq Parlament Konfransının uğurlu təşkilini qeyd edərək, həm Xuon Sudarinin, həm də Senatın sədri Hun Senin təbriklərini çatdırıb.

*XQ*

# COP29-un hədəfləri Paris Sülh Forumunda




**Azərbaycan 2024-cü ildə ev sahibliyi etdiyi COP29 konfransında iqlim fəaliyyətini sürətləndirmək və ölkələr arasında etimadı gücləndirmək üçün mühüm addımlar atdı. Bizim məqsədimiz yalnız danışıqlar aparmaq deyil, fəaliyyətə keçmək, vədləri real nəticələrə çevirməkdir. Bu sahədə səyləri davam etdirməyin vaxtıdır.**

COP prezidentləri dərnəyi panelində "Planet üçün yeni koalisiyalar" mövzusunda müzakirələr zamanı ölkəmizin təmsilçisi Azərbaycan Prezidentinin iqlim məsələləri üzrə nümayəndəsi, COP29-un prezidenti Muxtar Babayev bu açıqlamasının davamında COP29 prosesindən irəli gələn iqlim maliyyələşməsinin ədalətli artırılması, iqlim diplomatiyasında etimadın bərpası və inteqrasiya və şəffaflıq kimi əsas istiqamətləri qeyd edib.

COP29 prezidenti bildirib: "Əfsuslar olsun ki, 2024-cü və 2025-ci illərin ambisiyaları arasında fərq çox böyükdür. Keçən il iqlim liderləri dünya üzrə fəal idilər, bu il isə ambisiyalı təşəbbüsləri görmürük". O, Belem şəhərində keçiriləcək COP30 konfransında bu istiqamətdə "Bakıdan Belema yol xəritəsi" adlı yeni sənədin təqdim olunacağını da bildirib.

Azərbaycan rəsmisi söyləyib ki, sənədin məqsədi, iqlim maliyyələşməsini 300 milyard dollardan 1,3 trilyon dollara qədər artırmaq üçün konkret mexanizmlərin hazırlanmasıdır.

***

**Paris Sülh Forumu çərçivəsində Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə "COP29-dan COP30-a: Qlobal İqlim Dialoqunun irəliləDilməsi və XIII Qlobal Bakı Forumuna hazırlıq" mövzusunda görüş də keçirilib.**

Serbiyanın sabiq prezidenti Boris Tadiçin moderatorluğu ilə müzakirələrdə Xəzər dənizinin hüquqi statusu, enerji və ekoloji əməkdaşlıqla bağlı gündəlik məsələlər də yer alıb. Toplantıda 2026-cı ilin mart ayında keçiriləcək XIII Qlobal Bakı Forumunun təqdimatı da olub.

Görüşdə COP29 Prezidenti və Azərbaycan Respublikası Prezidentinin iqlim məsələləri üzrə nümayəndəsi Muxtar Babayev, eləcə də COP20, COP21, COP22, COP24 və COP30 prezidentləri, Avropa ölkələrinin bir sıra sabiq liderləri və nüfuzlu rəsmiləri çıxış ediblər.

*XQ*

# Belarus Baş nazirinin müavini Füzuli və Ağdam rayonlarında




**Azərbaycan Respublikası və Belarus Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə birgə Hökumətlərarası Komissiyanın Azərbaycan tərəfindən həmsədri Baş nazirin müavini Samir Şərifov və Belarus tərəfindən həmsədri Baş nazirin müavini Natalya Petkeviçin rəhbərlik etdikləri nümayəndə heyəti oktyabrın 29-da işğaldan azad olunan Füzuli rayonuna səfər edib.**



Ağdam, Füzuli və Xocavənd rayonlarında Prezidentin xüsusi nümayəndəsi Emin Hüseynov Füzuli Beynəlxalq Hava Limanında qonaqlara aeroport haqqında ətraflı məlumat verib. Diqqətə çatdırılıb ki, işğaldan azad olunan ərazilərdə genişmiqyaslı bərpa-quruculuq işləri davam edir. Füzuli şəhərində yaşayış məhəlləsi salınıb və keçmiş məcburi köçkünlər doğma yurda qayıdır.

Özbəkistan Prezidenti Şavkat Mirziyoyev tərəfindən özbək xalqı adından hədiyyə olaraq inşa edilən Füzuli şəhər Mirzə Uluqbəy adına tam orta məktəb, qazax xalqının hədiyyəsi olan Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzi haqqında da məlumat verilib.

Sonra nümayəndə heyəti Ağdam rayonuna səfər edib. Qonaqlar rayonun Qızıl Kəngərli kəndinin layihələndirilməsi barədə təqdimatla tanış olublar.

Daha sonra Sonra Ağdam Sənaye Parkı ilə tanışlıq olub. Qeyd edilib ki, Prezident İlham Əliyevin 2021-ci il 28 may tarixli Fərmanına əsasən İqtisadi Zonaların İnkişafı Agentliyinin idarəçiliyində Ağdam rayonunda 190 hektar ərazidə Ağdam Sənaye Parkı yaradılıb. Parkda ümumi investisiyalarının həcmi 292 milyon manatdan çox olan 31 sahibkarlıq subyektinə rezidentlik, 4 sahibkara isə qeyri-rezidentlik statusu verilib.

Belaruslu qonaqlara sənaye parkında yaradılan infrastruktur, rezidentlər üçün tətbiq olunan dəstək mexanizmləri, logistika imkanları, habelə hazırda fəaliyyət göstərən və işə salınması planlaşdırılan istehsal sahələri barədə ətraflı məlumat verilib.

Qonaqlar, həmçinin Ağdam səfəri zamanı ikinci yaşayış kompleksi ilə də tanış olublar. Bildirilib ki, şəhərin təsdiq edilmiş Baş planına uyğun olaraq Ağdamın mərkəzi küçəsində salınan kompleksin ümumi sahəsi təxminən 14 hektardır. Layihə çərçivəsində 1268 mənzilli yaşayış binaları inşa olunur.

Baxış zamanı qonaqlara görülən işlər barədə ətraflı məlumat verilib.

*XQ*

# BPK iştirakçıları Fəxri və Şəhidlər xiyabanlarında



**Oktyabrın 29-da Milli Məclisdə keçirilən Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsinin 30 illiyinə həsr olunmuş beynəlxalq parlament konfransının iştirakçıları Fəxri xiyabanı və Şəhidlər xiyabanını ziyarət ediblər.**

Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini dərin ehtiramla yad edib, məzarı önünə əklil qoyublar.

Sonra iştirakçılar Şəhidlər xiyabanını



Milli Məclisin sədri Sahibə Qafarova, Pakistan Senatının sədri Syed Yusuf Raza Gilani, Tacikistan Ali Məclisi Nümayəndələr Palatasının sədri Fayzali İdizoda, Rumıniya Parlamenti Senatının sədri Mirça Abrudean, eləcə də digər ölkələrin parlament nümayəndə heyətlərinin rəhbərləri və üzvləri, beynəlxalq təşkilatların təmsilçiləri əvvəlcə ziyarət ediblər. Azərbaycanın azadlığı və müstəqilliyi uğrunda mübarizədə canlarını qurban vermiş qəhrəman Vətən övladlarının əziz xatirəsi ehtiramla yad edilib, məzarları üzərinə tər güllər düzülüb, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyulub.

*XQ*

# Serbiya və Monteneqroda soydaşlarımızın təhlükəsizliyi təmin edilir

**Azərbaycanın Serbiyadakı səfirliyi və Monteneqrodakı diplomatik ofisi Monteneqronun paytaxtı Podqoritsa şəhərində baş vermiş və Türkiyə vətəndaşlarının və bir nəfər Azərbaycan vətəndaşının saxlanılması ilə nəticələnən iğtişaşlarla əlaqədar yayılan məlumatları diqqətlə izləyir.**

Səfirliyimiz və diplomatik ofisimiz Monteneqroda yaşayan və çalışan vətəndaşlarımızın təhlükəsizliyinin təmin olunması, eləcə də onların hüquqlarının və qanuni maraqlarının qorunması məqsədilə zəruri tədbirlər görür.

Bir nəfər vətəndaşımızın saxlanılması ilə bağlı Monteneqro hüquq-mühafizə orqanları ilə müvafiq danışıqlar aparılır və məsələ diplomatik kanallar vasitəsilə diqqətdə saxlanılır.

"Monteneqro ərazisində yaşayan və səfərdə olan bütün Azərbaycan vətəndaşlarına müraciət edərək, ictimai asayişin qorunması və mümkün insidentlərdən yayınmaq məqsədilə keçirilə biləcək hər hansı kütləvi aksiyalardan uzaq durmağı, yerli qanunvericiliyin tələblərinə ciddi riayət etməyi və zərurət yarandığı təqdirdə səfirlik və diplomatik ofisimizlə dərhal əlaqə saxlamağı tövsiyə edirik", - deyə açıqlamada qeyd olunub.

*XQ*

# Qarabağ fatehinin "Böyük Qayıdış" missiyası

## *Zəngəzur və Araz dəhlizləri bərpa-quruculuğa əlavə qapı açacaq*

***Biz "Böyük Qayıdış" Proqramının başlanğıcını da Zəngilan rayonunda qoyduq. Birinci kənd – Ağalı kəndində artıq üç il yarımdır ki, insanlar yaşayır və çox gözəl şərait yaradılmışdır və gözəl də saxlanılır. Mən indi Ağalının içi ilə keçdim və yeni binalarla tanış olarkən gördüm ki, bütün həyətyanı sahələr, sanki, gözəl bir bağa çevrilib. Biz buranı keçmiş köçkünlərə təhvil verəndə qupquru bir yer idi. Necə ki, indi Məmmədbəyli kəndində də hələ ki, o qədər də çox ağac yoxdur. Ancaq illər keçdikcə vətəndaşlar özləri qurub-yaradırlar, əkib-becərirlər.***

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Zəngilan, 28 oktyabr 2025-ci il***



Dövlət başçımızın oktyabrın 28-də Zəngilan rayonunun Məmmədbəyli və Ağalı kəndlərinin sakinləri ilə görüşündən hazırlanmış televiziya verilişinə baxanda, daha doğrusu, qarşılıqlı təbəssümləri görəndə, Prezidentin əminliyinə, sakinlərin məmnunluğuna şahidlik edəndə istər-istəməz sinəmizi qürur hissi ilə dolduran başqa bir fakt yada düşdü. Bu il iyulun 19-da Prezident İlham Əliyev Türkiyənin Kahramanmaraş şəhərində dəhşətli zəlzələdən sonra tikilmiş "Azərbaycan məhəlləsi"nin açılış mərasimində iştirak edirdi. Dövlət başçımızın oradakı çıxışında Azərbaycanın hər zaman Türkiyənin yanında, Türkiyənin də daim Azərbaycanın yanında olduğunu xatırlatmasından sonra yerli sakinlər İlham Əliyevin ünvanına sürəkli olaraq "Qarabağın fatehi" ifadəsini səsləndirmişdilər. Yeri gəlmişkən, Ali Baş Komandanımızın tarixi Zəfərinə həsr edilmiş "Qarabağın fatehi" adlı mahnı da son zamanlar dost və qardaş ölkələrdə dalğa-dalğa yayılır.

Ancaq Azərbaycan Prezidentinin özünün fikrincə, bizim ən böyük uğurumuz otuz il ata-baba yurdundan didərgin salınmış insanların öz ev-eşiklərinə qaytarılmasını təmin etməyimizdir. Çünki bu qayıdış yüz minlərlə insanın hüquqlarının bərpası, Azərbaycan torpaqlarında haqq-ədalətin bərqərar edilməsidir. Oktyabrın 28-də biz həmin istiqamətdə atılmış növbəti addımların da şahidi olduq.

Dövlət başçımız fəxrlə söylədi ki, bu gün Ağalı və Məmmədbəyli kəndlərinin sakinləri üçün çox sevincli bir gündür: "Ağalı kəndində əlavə 100 ailə yerləşəcək. Ağalının hüdudları demək olar ki, daha da böyük olur. Məmmədbəyli kəndində isə 180 ailə üçün gözəl evlər, yaraşıqlı binalar inşa edilib. Mən bilirəm ki, siz bu gün buraya gəlmisiniz, hələ demək olar ki, yerləşməmisiniz. Ancaq, əlbəttə ki, gələn günlər ərzində burada tam yerləşib öz doğma dədə-baba torpağınızda rahat, firavan həyat yaşayacaqsınız. Sizi bu münasibətlə ürəkdən təbrik edirəm".

Bəli, həmin sakinlər, həqiqətən, təbrik edilməlidir və təbii ki, öz aralarında bir-birinə min dəfələrlə gözaydınlığı veriblər. Ancaq bu qayıdışla bağlı təbrikin məhz qalib sərkərdənin dilindən eşidilməsi nəinki Ağalı və Məmmədbəyli kəndlərinin sakinləri üçün, hətta bütün qaçqın və məcburi köçkünlərimiz üçün, sözün həqiqi mənasında, qürur mənbəyidir. Onlar on ildən, iyirmi ildən sonra nəvələrinə danışacaqlar ki, biz otuz il həsrətini çəkdiyimiz, düşmənin viranəyə çevirdiyi doğma torpaqlarımıza qayıdanda nə qədər xoşbəxt idiksə, yeni tikilmiş evlərin açarlarını bizə verən Prezidentlə səmimi söhbət edəndə də elə o qədər qürurlu idik. Deyəcəklər ki, həmin gün biz adi bir prezidentlə görüşməmişdik, biz bütün dünyadakı haqsızlıqlara çəkinmədən sinə gərən və Ermənistana himayədarlıq edən güclü dövlətlərin siyasətinə mərdliklə qalib gəlmiş Prezidentlə görüşmüşük.

Xalqımızın qarşısında üzüağ, qaçqın və köçkünlərimizin yanında başıuca olan dövlət başçımız oktyabrın 28-də xatırlatdı ki, bu gün Zəngilan şəhərində də birinci yaşayış kompleksinin tikintisi yekunlaşmaq üzrədir. Eləcə də məktəb və xəstəxananın tikintisi başa çatmaqdadır. Zəngilan məscidi isə artıq istifadəyə verilmişdir: "Konqres Mərkəzi, Zəngilan Beynəlxalq Hava Limanı. Yəni bura, bu bölgə çox önəmli nəqliyyat mərkəzlərindən birinə çevriləcək. Həm Zəngəzur dəhlizi, həm Araz dəhlizi buradan keçəcək. Ona görə bu rayonun, bu bölgənin çox gözəl gələcəyi olacaq. Necə ki, bütün Qarabağın, Şərqi Zəngəzurun gələcəyi çox parlaq olacaq. Bugünkü reallıq – qurduğumuz şəhərlər və kəndlər bunu göstərir".

Dövlət başçımızın həmin gün Cəbrayıl rayonunun Horovlu kəndinin sakinləri ilə görüşü isə başqa bir baxımdan maraqlı idi. Rəsmi mənbələrdə bildirilir ki, rayonun düzənlik ərazisində yerləşən bu yaşayış məntəqəsini XVIII əsrin əvvəllərində Cənubi Azərbaycanın Horov kəndindən gələn ailələr saldığı üçün kənd belə adlandırılıb. Burada əsrlər boyu əhalinin əsas məşğuliyyət sahəsi üzümçülük, heyvandarlıq və taxılçılıq olub. Bu kənddə, eyni zamanda, bir sıra tarixi-dini abidələr, o cümlədən Cinlitəpə yaşayış yeri, "Çələbi ocağı" və "Qarı ocağı" ziyarətgahları yerləşib.

Prezidentin Horovlu kənd sakinləri ilə görüşündə xatırladıldı ki, dövlət onlar üçün gözəl binalar, məktəb, uşaq bağçası, tibb məntəqəsi tikib və yeni iş yerləri yaradılır. İstifadəyə verilən 334 evdə birinci mərhələdə 1400 insan məskunlaşacaq. Dövlət başçımız xatırlatdı ki, işğala qədər Horovlu kəndində 1500 adam yaşayırdı: "İndi təbii ki, ailələr böyüyüb və horovluluların sayı 2 mindən bir qədər çoxdur. İkinci mərhələdə digər vətəndaşlar üçün də evlər tikiləcək. Ancaq hesab edirəm ki, birinci mərhələdə görülən bu işlər təqdirəlayiqdir. Burada rahat, xoşbəxt həyat sürmək üçün bütün imkanlar var".

Xatırladaq ki, bu gün bütün Qarabağ və Şərqi Zəngəzur tikinti meydançasına çevrilib. Artıq 50 mindən çox insan Qarabağda, Şərqi Zəngəzurda yaşayır, çalışır, təhsil alır. Onlardan təqribən 20 mini keçmiş köçkünlərdir ki, öz vətəninə, doğma torpağına qayıdıblar. Qalanlar isə müxtəlif işlərdə çalışan vətəndaşlardır.

Prezidentin Horovlu kənd sakinləri ilə görüşü barədə açdığımız söhbətin əvvəlində tarix boyu burada yaşayan insanların əsas məşğuliyyətini yada salmağımız təsadüfi deyildi. Çünki Prezident bu kəndin sakinləri ilə söhbət əsnasında aqrar məsələlərə xüsusi yer ayırmışdı: "İndi kənd təsərrüfatını daha müasir üsullarla inkişaf etdirmək üçün imkanlar var. Burada həm aqroparklar yaradılır, eyni zamanda, kənd təsərrüfatı ilə məşğul olanlar üçün torpaq sahələri, əkin-biçin və heyvandarlıqla bağlı şərait də yaradılacaq. Artıq azad edilmiş bir çox kəndlərdə kənd təsərrüfatı ilə məşğul olanlar var. Həm maldarlıqla, arıçılıqla məşğul olan var, həm də meyvə bağları, üzüm bağları salınır. Yəni bu kəndin ətrafı da kəndin özü kimi gözəl olmalıdır. Onu da siz etməlisiniz. Dövlət də təbii olaraq sizə öz dəstəyini verəcək".

Sonda xatırladaq ki, bu görüşlər təkcə bərpa, tikinti, quruculuq, qayıdış məsələləri ilə yekunlaşmadı. Dövlət başçımız bu görüşlərdən həm də beynəlxalq aləmdəki bədxahlarımıza mühüm mesajlar göndərilməsi üçün də istifadə etdi: "Qarabağ bundan sonra daha çox inkişaf edəcək. Əsas odur ki, burada insanlar yerləşsin, uşaqlar çoxalsın, ailələr böyüsün, işlər getsin. Abadlıq-quruculuq, xoşbəxt həyat və sülh. Bundan sonra heç kim bizə qarşı baş qaldıra bilməz. Heç kim, heç kim!".

**Sakinlər:** Sayənizdə, "Dəmir yumruq" sayəsində.

**Prezident İlham Əliyev:** "Əgər kimsə baş qaldırsa, yenə də "Dəmir yumruğu" görəcək".

***İttifaq MİRZƏBƏYLİ,***
***Əməkdar jurnalist***

# "Tramp marşrutu" Zəngəzur dəhlizidir – "Dünyanın kəsişməsi" yox!




## *Görəsən, Ararat Mirzoyan nə danışır?*

**"İndi buradan Zəngilana gedəcəksiniz 20 dəqiqəyə. Buradan da Zəngəzur dəhlizi keçəcək. Böyük ticarət yolu olacaq". Bu fikri cənab İlham Əliyev oktyabrın 28-də Cəbrayıl rayonunun Horovlu kəndinin sakinləri ilə görüşü zamanı səsləndirib. Dövlətimizin başçısı Qarabağın, Şərqi Zəngəzurun ən inkişaf etmiş bölgələrdən biri olacağını vurğulayıb. Özü də "nəinki Azərbaycanda, dünya miqyasında".**

Göründüyü kimi, Zəngəzur dəhlizi məntiqi Azərbaycanın siyasi gündəmindədir. O gündəndə ki, onu Prezident İlham Əliyev 44 günlük müharibədən sonra formalaşdırıb. Zəngəzur dəhlizinin timsalında Naxçıvana maneəsiz yol, o cümlədən həmin dəhlizin böyük Orta Dəhliz konteksti Azərbaycanın təkcə müharibə qalibi kimi qazandığı böyük mükafat yox, eyni zamanda, tarixi ədalətin bərpasıdır. Ermənistanın isə xüsusən ötən üç ildə təbliğ etdiyi "Dünyanın kəsişməsi" ideyası var. O ideya rəsmi İrəvan tərəfindən məhz Zəngəzur dəhlizinə qarşı irəli sürülmüşdü.

Bəli, baş nazir Nikol Paşinyanın zaman-zaman gündəmə gətirdiyi və təfərrüatlarını açıqladığı "Dünyanın kəsişməsi" regional kommunikasiyaların açılmasının Ermənistan prioritetini rəhbər tutmuşdu. Paşinyan bu məntiqlə regional kommunikasiyaların açılması təsəvvüründə Laçın–Kornidzor–Marqara istiqaməti üzərində dayanmışdı. Plana görə, beynəlxalq yüklər Laçından keçərək, Ermənistanın Kornidzoruna daxil olmalı, oradan isə Türkiyə ilə sərhəddəki Marqaraya daşınmalı idi. Yəni Ermənistanın prioritetində hazırda "Tramp marşrutu" kimi beynəlxalq siyasi ad qazanmış Zəngəzur dəhlizinin (TRIPP) Azərbaycan təsəvvüründən tam uzaqlıq olmuşdu.

Ona görə də Ermənistan xarici işlər naziri Ararat Mirzoyanın iki gün əvvəl xarici jurnalistlər və ekspertlər qarşısında çıxış edərkən, ölkəsinin son zamanlar haqqında danışılmayan "Dünyanın kəsişməsi" layihəsindən söz açması və layihə ilə "Tramp marşrutu" arasında əlaqə axtarması mənasızdır. Amma Mirzoyanın dediklərində mənalı məqamlar istisna deyil. Məsələn, o bildirib ki, bu il avqustun 8-də Vaşinqtonda əldə edilmiş razılıq (Azərbaycan və Ermənistan arasında ABŞ Prezidenti Donald Trampın şahid imzası ilə ərsəyə gəlmiş Birgə Bəyannamə - red.), Ermənistan və Azərbaycan arasında sülh sazişinin paraflanması və kommunikasiyaların blokdan çıxarılması Cənubi Qafqazın, ümumən bütün regionun sabitliyi və inkişafı baxımından vacibdir. Yəni erməni XİN rəhbəri ölkəsinin sülhə sadiqliyini dilə gətirir və bunu mühüm xarici siyasət prioriteti olaraq vurğulayır.

Əslində, demək olmaz ki, Mirzoyanın "Dünyanın kəsişməsi" layihəsi xüsusunda açıqladığı fikir tam neqativdir. Hər halda, erməni iqtidarı "Tramp marşrutu"nu bu layihə ilə əlaqələndirməklə ölkənin daxili ictimai rəyinə hesablanmış gedişlər etməkdə sərbəstdir. Problemli məqam ondadır ki, Ermənistan rəhbərliyi, o cümlədən baş nazir N.Paşinyan bütün beynəlxalq platformalarda Zəngəzur dəhlizi ifadəsinə qarşı çıxır, onu Vaşinqton razılaşmasına zidd məqam kimi vurğulayır. Nikolun, hətta, Avropa Şurası Parlament Assambleyasında bir müddət əvvəlki çıxışında bu mövzuda dramatik təsir bağışlayan fikirlər səsləndirdiyi də məlumdur. Nəzərə alsaq ki, "Dünyanın kəsişməsi" Azərbaycanın Zəngəzur dəhlizi ideyasına qarşı ortaya atılmışdı, o zaman indi Mirzoyanın ondan danışması nə deməkdir? İrəvan Bakıya qarşımı çıxır? Prinsip etibarilə Azərbaycan tərəfi bu ifadənin Vaşinqton razılaşmasına zidd mahiyyət daşıdığını bildirə bilər. Amma bildirmir. Paşinyanın komandası erməni cəmiyyətinə reallıqları fərqli tərzdə təqdim etmək istəyirsə, bu onun öz işidir. Əsl reallıq isə budur ki, birincisi, regional kommunikasiyaların açılması heç də "Dünyanın kəsişməsi" ideyasına əsaslanmır. Yuxarıda həmin ideyanın, əslində, nəyi nəzərdə tutduğunu diqqətə çatdırdıq. Əlavə edək ki, Paşinyanın zamanında səsləndirdiyi fikrə görə, "Dünyanın kəsişməsi" mahiyyətcə Naxçıvanla yalnız dəmir yolu əlaqəsini rəhbər tuturdu ki, o da müəyyən şərt daxilində. Şərt belə idi: Azərbaycanın əsas hissəsindən Naxçıvana qatarlar hərəkət edirdisə, Ermənistanın Mehri rayonundan ölkənin digər bölgəsi olan Yerasxa da qatarlar maneəsiz şəkildə Naxçıvandan keçməli getməli idi. Diqqətə çatdırdığımız Laçın–Kornidzor–Marqara xəttini əsas götürən Paşinyan Naxçıvan istiqamətində avtomobil yolu məsələsini, ümumiyyətlə, yada salmırdı. Halbuki, onun üzərində dayandığı xətt regional kommunikasiyaların, loru dildə desək, dağa-daşa salınması, vaxt itkisi idi. İkincisi, "Tramp marşrutu"nun məğzini elə Zəngəzur dəhlizi təşkil edir və bunu Prezident İlham Əliyev Səudiyyə Ərəbistanının "Əl-Ərəbiyyə" telekanalına müsahibəsində bildirmişdi. Dövlətimizin başçısı demişdi ki, Prezident Donald Tramp Zəngəzur dəhlizinə öz adını verdikdən sonra layihənin yaxın zamanda reallaşacağına ümid edir. Ölkəmizin lideri müsahibəsində, həmçinin təfərrüatları da açıqlamışdı. "Fiziki infrastrukturun, yəni dəmir yolunun tikintisi uzun vaxt tələb etməməlidir, çünki məsafə cəmi 42 kilometrdir", – deyən İlham Əliyev Zəngəzur dəhlizi sayəsində Ermənistanın nəqliyyatdan tranzit haqqı əldə edəcəyini dilə gətirmişdi. Deməli, məsələ həm də ondadır ki, Ermənistana mənfəət gətirəcək heç də "Dünyanın kəsişməsi" ideyası deyil, məhz Zəngəzur dəhlizidir. Sonda onu da deyək ki, rəsmi İrəvan Zəngəzur dəhlizi ilə bağlı səhvə lap əvvəldən yol vermişdi. 44 günlük müharibənin yekunlarını təsdiqləyən 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatın Naxçıvana maneəsiz yol məntiqi olduğu halda, Paşinyan və komandası Prezident İlham Əliyevin beynəlxalq siyasi terminologiyaya Zəngəzur dəhlizi olaraq qazandırdığı həmin məntiqi Ermənistanın ərazi bütövlüyünə və suverenliyinə qəsd kimi qiymətləndirmişdi. Halbuki, belə olmaya bilərdi. Rəsmi İrəvana, sadəcə, üçtərəfli Bəyanatla üzərinə düşən öhdəliyi yerinə yetirmək qalmışdı. Yetirmədi və bu il avqustun 8-də Vaşinqtonda imzalanmış Birgə Bəyannamə, faktiki olaraq, beş il əvvəlki öhdəliyi yenilədi. Sözümüz ondadır ki, yenilənmədə "Dünyanın kəsişməsi" adlı nə isə yoxdur və ola bilməz.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Eçmiədzin siyasi məkrlərinin qurbanına çevrilir

## *Ovanavank kilsəsi isə yeni dini mərkəz rolunda çıxış etməyə başlayır*

**Ermənistan hökuməti, şəxsən baş nazir Nikol Paşinyanla Erməni Apostol Kilsəsi, o cümlədən bütün ermənilərin patriarxı II Qaregin arasındakı münasibətlər gərgin olaraq qalmaqdadır. Hayastanda bir çoxları iddia edir ki, 2025-ci ilin may ayından indiyədək katolikosu taxtdan sala bilməyən Paşinyan alternativ kilsə yaratmaq prosesinə girişib. Guya Paşinyan oktyabrın 26-da Ovanavank kilsəsində keçmiş keşiş Stepan Asatryanın (dini titulu əlindən alınanadək “Aram ata” adını daşıyırdı–S.H.) liturgiya mərasimində də bu məqsədlə iştirak edib.**

Eçmiədzin dəfələrlə bildirib ki, liturgiyanı yalnız ruhani şəxs yerinə yetirə bilər, lakin S.Asatryan buna baxmayaraq, liturgiyanı baş nazirin, nazirlər və onların tərəfdarlarının iştirakı ilə keçirib. Mərasim respublika polisinin rəisi və rəis müavini də daxil olmaqla, çoxlu sayda polis əməkdaşının ciddi mühafizəsi altında baş tutub.



Situasiyanı şərh edən siyasi analitik Arqişti Kiviryan bildirib ki, N.Paşinyan Ovanavankda alternativ katolikosluq yaratmağa çalışır. Kiviryan “Nyus.am”a müsahibədə deyib ki, bu təcrübə Ermənistan tarixində əvvəllər də olub. İndi isə erməni xalqı birləşmə haqqında düşünmək əvəzinə, kilsəni parçalamaqla məşğuldur: “Yeni dini hərəkat yaratmağa cəhd edilir. Paşinyan, həmçinin yeni bir təcrübə olan keşişlərin məsh edilməsini də öz üzərinə götürüb. O, bundan istifadə edərək keşişləri kilsəyə hücum etməyə təhrik edə, bundan imtina etdikləri təqdirdə, alternativ dini hərəkat yaratmaqla hədələyə bilər. Respublika rəhbərliyinin Eçmiədzinin ana taxtına fiziki hücum təşkil edə biləcəyi də istisna olunmur”.

Onun sözlərinə görə, hakimiyyət öz təsir vasitələrindən istifadə edərək qisas almağa doğru getdiyini nümayiş etdirir: “Paşinyanın qarşısında heç bir maneə yoxdur və əgər o, bütün ermənilərin katolikosu II Qaregini həbs etmək qərarına gəlsə, bunu edəcək. Əgər o, Eçmiədzini yandırmaq qərarına gəlsə, bunu da edəcək”.

Kiviryanın sözlərinə görə, bütün ermənilərin katolikosu hakimiyyətin dəstəyi olsaydı, sərbəst hərəkət edə biləcəyini anlamalı idi: “Mən təklif etmişdim ki, katolikos Ovanavankın artıq keçmiş keşişi olan Stepan Asatryanı çağırsın və ona, məsələn, Avstraliya, İsveçrə və ya Kanada yeparxiyasında xidmət etmək kimi cəlbedici təklif versin. Bu, onun Paşinyanın nəzarətindən çıxarılmasına imkan verərdi. Bundan bir il sonra ana taxt Ovanavankın məsələlərini həll edə bilərdi. Bu halda yeni bir dini icma yaratmaq cəhdi olmazdı. Bundan əlavə, keşişlər dəyişikliklər və islahatlar həyata keçirə, bu vəziyyətdən daha güclü çıxa bilərdilər. Digər yeparxiyalar və Kilikiya Böyük Evinin katolikosluğu Eçmiədzini dəstəkləməli və onun üstünlüyünü vurğulamalıdırlar. Onlar Paşinyanın hərəkətlərinin qəbuledilməzliyini nümayiş etdirməlidirlər”.

***

Ermənistanın Lori vilayətindəki Ovanavank kilsəsində baş verən son hadisə təkcə dini mərasim deyil, həm də ölkə daxilində gedən dərin siyasi qarşıdurmanın təzahürüdür. Katolikosun dini tituldan məhrum etdiyi keşiş Asatryanın rəhbərliyi ilə keçirilən liturgiya hökumət və kilsə arasında çoxdan qaynayan ziddiyyətləri bir daha üzə çıxardı. Mərasimə Paşinyanın özünün də qatılması bu münasibətlərin bərpasının hələlik mümkünsüz olduğunu göstərdi. Bu gərgin fonu daha da qızışdıranlardan biri də siyasi analitik Arqişti Kiviryanın açıqlamalarıdır. Onun “Paşinyan alternativ katolikosluq yaratmağa çalışır” iddiası həm emosional, həm də faktoloji cəhətdən əsassız görünür. Əvvəla, “alternativ katolikosluq” kimi anlayış Ermənistan reallığında praktik məna daşımır. Kiviryanın bu arqumenti kilsənin cəmiyyətdəki mövqeyinin zəifləməsini ört-basdır etmək cəhdidir. Reallıqda Paşinyanın mövcud kilsə sisteminə nəzarət etməyə deyil, dini institutların dövlət işlərinə təsir imkanlarını məhdudlaşdırmağa çalışdığı açıq görünür. Bu isə istənilən dünyəvi dövlətin təbii davranışıdır.

Erməni Apostol Kilsəsinin son illər apardığı fəaliyyət göstərir ki, bu qurum dini təsisat olmaqdan çoxdan uzaqlaşıb. Kilsə rəhbərliyinin bəyanatlarında siyasi terminologiyanın artması, revanşist dairələrlə əlaqələrin güclənməsi təsadüfi deyil. Ovanavank hadisəsi də bu prosesin davamıdır. Kilsə artıq dini dəyərlərin qorunmasından çox, öz təsir imkanlarını saxlamaq uğrunda mübarizə aparır. Bu mübarizə isə təkcə Paşinyan hakimiyyətinə qarşı deyil, həm də Ermənistanın modernləşməsi və dünyəviləşməsi cəhdlərinə yönəlib.

Kiviryanın arqumentlərində başqa bir ziddiyyət də diqqət çəkir: o, bir tərəfdən kilsənin bölünməsinin milli faciə olduğunu deyir, digər tərəfdən isə özü bu parçalanmanı daha da dərinləşdirən fikirlər səsləndirir. Bu yanaşma göstərir ki, bəzi analitiklər üçün məqsəd vəziyyəti təhlil etmək deyil, kilsənin siyasi mövqeyini qorumaqdır. Halbuki Ermənistanda kilsənin yenilənməsi, şəffaflıq və cəmiyyətə real mənəvi dəyərlər verməsi istiqamətində islahatlara ehtiyac var. Kiviryan kimi şəxslər isə bu dəyişiklikləri təhlükə kimi təqdim etməyə çalışır.

***

Maraqlı məqam ondan ibarətdir ki, kilsə rəhbərliyi son illər tez-tez Azərbaycandakı alban dini abidələrini “erməni dini abidələri” kimi qələmə verərək, onların guya yox olmaq təhlükəsi altında olması barədə iddialar səsləndirir. Bu bəyanatlar, əslində, diqqəti daxili problemlərdən yayındırmaq məqsədi daşıyır. Azərbaycanın mədəni irs siyasəti, o cümlədən alban-udi kilsələrinin bərpası istiqamətində görülən işlər bu iddiaları təkzib edir. Amma Eçmiədzin rəhbərliyi bu faktları etiraf etmək əvəzinə, siyasi mübarizə aparan tərəf kimi çıxış edir.

Kilsənin Rusiya ilə münasibətləri məsələsi də diqqətdən qaçmır. Rəsmi səviyyədə bu əlaqələr “qardaşlıq münasibətləri” kimi təqdim olunsa da, əslində, Moskva dini təsisat üzərindən Ermənistanın daxili və xarici siyasətinə təsir imkanlarını qorumağa çalışır. Bu prosesdə Rusiyanın qonşu ölkədəki əsas təsir vasitələrindən olan “Sputnik Ermənistan” agentliyinin canfəşanlığı, Paşinyanı hədəfə alması, kilsəni birmənalı şəkildə dəstəkləməsi diqqətdən yayınmır. Ovanavank ətrafında baş verənlər də göstərir ki, kilsə hələ də Rusiya yönümlü revanşist dairələrin ideoloji dayağı kimi çıxış edir. Bu isə həm Ermənistanın müstəqil siyasət yürütmək cəhdlərinə, həm də regionda sabitliyə mane olur.

Bütün bu proseslər fonunda Paşinyan hökuməti ilə kilsə arasında dərin uçurum yaranıb. Cəmiyyətin bir hissəsi kilsəni mənəvi dayağından çox, siyasi manipulyasiya aləti kimi görməyə başlayıb. Əgər Eçmiədzin doğrudan da xalqın birliyinə xidmət etmək istəyirsə, ilk növbədə, siyasətdən uzaqlaşmalı, öz missiyasını yenidən müəyyənləşdirməlidir. Kiviryan kimi şəxslərin açıqlamaları isə bu zərurəti daha da aktuallaşdırır: çünki onların ritorikası Ermənistanı keçmişin kölgəsində saxlamaq, milli birliyi parçalamaq təhlükəsi yaradır.



Situasiyanı şərh edən **“Qafqaz tarixi” Mərkəzinin rəhbəri, siyasi ekspert Rizvan Hüseynovun** fikrincə, Ovanavank hadisəsi və Kiviryanın açıqlamaları kilsənin Ermənistanda siyasətə nə qədər dərindən qarışdığını göstərir. Onun sözlərinə görə, bu, dini yox, siyasi prosesdir: “Erməni Apostol Kilsəsi öz mənəvi nüfuzundan istifadə edərək revanşist dairələrin ideoloji platformasına çevrilib. Kiviryanın arqumentləri dini məzmundan uzaq, siyasi məqsədlərə yönəlib. Əslində, Ermənistan cəmiyyəti artıq dərk etməlidir ki, dini institutun əsas funksiyası ibadət və mənəvi dəyərlərin qorunmasıdır, siyasi qütbləşmənin alətinə çevrilmək deyil. Kilsənin bəzi dairələri Rusiya ilə əlaqələrindən istifadə edərək, hökumətə təzyiq vasitəsi kimi çıxış edir. Bu isə ölkənin suverenliyinə zərbə vurur. Eyni zamanda, kilsənin bu cür siyasi çıxışları gənc nəslin dini baxışlarını da yanlış istiqamətə yönəldə bilər. Onlar dini institutları yalnız ideoloji və siyasi platforma kimi görməyə başlaya bilərlər. Kilsənin revanşist dairələrlə əlaqələri, həmçinin Ermənistanda və regionda gərginliyi artırır, cəmiyyətin parçalanmasına xidmət edir. Əgər kilsə rəhbərliyi və Kiviryan kimi analitiklər mövqelərini yenidən gözdən keçirməsələr, bu, həm yerli, həm də xarici ictimaiyyətin etimadını itirməyə səbəb olacaq”.

Ekspert qeyd etdi ki, digər tərəfdən, Azərbaycanın multikultural mühitinə qarşı səsləndirilən əsassız iddialar da təxribat xarakteri daşıyır və real faktlara söykənmir. Erməni kilsəsinin bu cür bəyanatları bölgədəki dialoqun qarşısını almağa, sülh prosesini ləngitməyə xidmət edir. Əgər İrəvan doğrudan da sabitlik və inteqrasiya istəyirsə, ilk növbədə, kilsənin siyasətə müdaxiləsinə son qoyulmalıdır.

***Səxavət HƏMİD***
***XQ***



# Ermənistanın sülh sınağı

## *İrəvan onu dincliyə və dirçəlişə aparan yolu “minalardan” təmizləməlidir*

**Sülh marafonu özünün son dayanacağına yaxınlaşdıqca, onun yoluna düzülmüş maneələrin, basdırılmış minaların aradan qaldırılması, təmizlənməsi heç də asan başa gəlmir. Həmin maneələrin tək “memarı” Ermənistan hakimiyyətidir. Xəstə hay təfəkkürünün məhsulu sayılan, sülhə badalaq vurmağa hesablanmış belə maneələrdən ikisini yada salaq. İndi erməni siyasətçilərinin, eləcə də siyasətlə əlaqəsi olmayan şəxslərin qardaş Türkiyə ərazisində yerləşən Ağrıdağ dağının təsvirinin dövlətin rəsmi atributları sırasına salınmasının qonşu ölkəyə qarşı təcavüzkar meyillərin təzahürü olduğunu etiraf etməkdən boyun qaçırmalarını hansı məntiqlə izah etmək mümkündür? Bu fakt, sadəcə, iki ölkə arasında yumşalmaya doğru gedən münasibətlər fonunda, yumşaq ifadə etsək, saxta tarixi keçmişin “yadigarı”, dialoqa xələl gətirən vəziyyətdir.**

Yaxud Azərbaycan–Ermənistan münasibətlərinin normalaşmasını birbaşa təhdid edən fakta nəzər yetirək. Ermənistan konstitusiyasında hələ də ölkəmizin suveren ərazisinə qarşı ərazi iddiasını özündə ehtiva edən müddəaların qalması Nikol Paşinyanın bəyan etdiyi hansı “xoş niyyətdən” xəbər verir? Baş nazir baş qanuna zəruri dəyişiklikləri nə vaxt reallaşdıracaq? Ortalıqda bu kimi ciddi suallar doğuran başqa məsələlər də var.

***

Biz ilk növbədə separatçıların torpaqlarımızda basdırdıqları gizli minalardan danışırıq. Azərbaycan Prezidenti İlham Əliyev BMT Baş Assambleyasının sessiyasındakı çıxışında Ermənistanın işğalı zamanı torpaqlarımızda yerləşdirdiyi minaların yaratdığı təhlükəni münaqişədən sonrakı dövrdə ölkəmizin üzləşdiyi ən ciddi humanitar problemlərdən biri kimi xarakterizə edib. Zəfərimizlə başa çatan İkinci Qarabağ müharibəsindən, 2020-ci ilin noyabr ayından indiyədək mina partlayışları nəticəsində 400-dən çox Azərbaycan vətəndaşı, hərbçisi həlak olub və ya ağır yaralanıb. Aydın məsələdir ki, mina təhlükəsi keçmiş məcburi köçkünlərin rahat şəkildə doğma yurdlarına qayıtmasına, işğaldan azad edilmiş ərazilərdə bərpa-quruculuq layihələrinin həyata keçirilməsinə mane olur. Baş Assambleyanın sessiyasındakı çıxışında İlham Əliyev qeyd edib ki, 1990-cı illərin əvvəllərindən Ermənistanın təcavüzü və işğalı nəticəsində itkin düşmüş dörd minə yaxın azərbaycanlının faciəli taleyi xüsusi diqqət və Ermənistan tərəfindən lazımi tədbirlərin həyata keçirilməsini tələb edir. Bütün bu maneələrin aradan qaldırılması üçün rəsmi İrəvan siyasini iradəsini toplayıb, qolunu çırmayıb konkret iş görməlidir. Sadalamadığımız başqa maneələr də var.

***

Beləliklə, məntiqli sual yaranır: əgər Ermənistan cəmiyyətinin müəyyən təbəqələri “Ağrıdağ möhürü” məsələsinə görə qəzəblənirsə, onlar qlobal problemləri – istər öz konstitusiyasına dəyişiklik olsun, istərsə də mina problemini həll etsin, rasional, məntiqli və emosional şəkildə həll etməyə qadirdirmi? Baxmayaraq ki, bu istiqamətdə atıla biləcək ilk addım elementar görünür: İrəvan Bakıya ərazimizdəki minalanmış sahələrin faktiki xəritələrini verməlidir. Sülhə hamıdan çox can atdığını deyən rəsmi İrəvan bu işi ləngitmədən görməlidir.

Məlum olduğu kimi, Ermənistana tranzit yüklərin daşınmasına qoyulan məhdudiyyətlərin aradan qaldırılması kontekstində Azərbaycan Prezidenti İlham Əliyevin ünvanına səsləndirdiyi minnətdarlığın ardınca baş nazir Nikol Paşinyan bəyan edib ki, İrəvan Bakı ilə Tbilisi arasında dostluq münasibətləri modelindən ilhamlanıb. O, bu təcrübəni Ermənistan-Azərbaycan münasibətlərinin normallaşması prosesində tətbiq etmək arzusunda olduğunu bildirib. Bu zaman yaxın tarixin dərslərinə istinad edən Paşinyan daxildəki siyasi rəqiblərinə xitabən deyib ki, “bir-birimizlə mübarizə aparmaqla ən vacib şeyi – dövlətimizi və müstəqilliyimizi itirə bilərik”.

Bəli, bu gün iki ölkə arasında bərqərar olmuş sülhün institusionallaşdırılması son dərəcə vacib məsələdir. Cəmi bir il bundan əvvəl Ermənistan baş nazirinin Azərbaycan Prezidentinə təşəkkür edəcəyini təsəvvür etmək belə çətin idi. Bu, ən azı, Paşinyanın ritorikası baxımından ümidverici səslənir. İntəhası, sözləri əməllərlə dəstəkləmək daha vacibdir. Prosesin gedişində başqa bir cəhət də ortaya çıxır: Ermənistan cəmiyyəti Azərbaycanın sülhsevər addımlarını nə dərəcədə səmimi qəbul edir? Sual paradoksal səslənə bilər, amma çətin ki, kimsə sülhdə, dinc-yanaşı yaşamada və inkişafda maraqlı olmasın. Amma İrəvanın sərgilədiyi bəzi aydın və sağlam mövqeyi ilə yanaşı, daxildəki bəzi qüvvələrin davranışları o qədər də aydın deyil. “Kilsənin cəmiyyətdəki rolunu zəiflətmək məqsədilə təqiblərdən” danışan müxalifət əmindir ki, iqtidar “erməni kimliyinin tarixi və mənəvi əsasını silməyə çalışır”. Guya məqsəd “Türkiyə–Azərbaycan tandeminin Ermənistanın rolunu müəyyənləşdirməyə yönəlmiş tələblərini təmin etmək”dir. Təkcə bu fakt Ermənistan cəmiyyətində bəzi qüvvələrin Azərbaycan xalqına nə dərəcədə açıq-aşkar düşmən münasibət bəslədiyini nümayiş etdirmək üçün kifayətdir. Buraya “keçmiş” qruplaşmaların revanşist çağırışlarını da əlavə etsək, onların ətrafında “yeni” qruplaşmalar arasından dəstək şəbəkələri formalaşdığını müşahidə edə bilərik. Bəli, bəziləri deyə bilər ki, bu cür bəyanatlar müxalifətçilərdən gəlir. Bəs erməni mediası tərəfindən tirajlanan belə məkrli təbliğat cəmiyyətdəki anti-Azərbaycan əhvali-ruhiyyəsinin mahiyyətini dəyişirmi? Yoxsa, əksinə, nifrət ritorikasının dövriyyədən çıxmamasına xidmət edir? Ritorik suallardır.

Amma müsbət tendensiyanı da qeyd etmək lazımdır. Ermənistan hökumətinin 11 sentyabr 2025-ci il tarixli fərmanının 1-ci hissəsinin 4-cü bəndinin qüvvədən düşmüş hesab edilməsi tələbi ilə inzibati məhkəməyə müraciət edilib. Bu fərmana əsasən, bu il noyabrın 1-dən Ermənistanın dövlət sərhədini keçərkən istifadə olunan möhürdən Ağrıdağ dağının təsviri çıxarılacaq.

Bu məqamda Ermənistanın Rusiyadakı hazırkı səfiri Qurgen Arsenyanın açıqlaması maraq doğurmaya bilməz: “Ermənistan və Türkiyə arasında barışıq yolunda istənilən addımı dəstəkləyərək, qonşularla yaxınlaşma üçün siyasi imkanları əldən vermək olmaz”. Yəqin o da reallığa açıq gözlə baxan əksər erməni valideynləri kimi, övladının “anti-türk isteriya şəraitində böyüməsini istəmir. Yəni biz Ermənistan cəmiyyətində zaman-zaman ayıq fikirlərin səsləndiyini də görürük. İndiki mərhələdə Ermənistan cəmiyyəti ilk növbədə özünü yoxlamalıdır: o, həqiqətən bütün kommunikasiyaların açılması ilə yanaşı, regionda sülh, sabitlik və təhlükəsizliyin bərqərar olmasını arzulayırmı?

Azərbaycan təbii ki, Ermənistanın daxili işlərinə qarışmır. Əksinə, təkcə bu gün deyil, həm də gələcək üçün aktual olan məsələləri ön plana çıxarmağa çalışır. Bakı təkcə ikitərəfli münasibətlərin normallaşması üçün deyil, həm də bütün Cənubi Qafqaz üçbucağının perspektivlərini nəzərə alaraq qonşularının tərəqqisi naminə hər cür şəraiti yaratmağa çalışır. İrəvanın isə sülhün hamar yoluna çıxmaqdan və Azərbaycanın əlini sıxmaqdan başqa seçimi yoxdur.

***İmran BƏDİRXANLI***
***XQ***

### *Ekspert rəyi*



**Tofiq ABBASOV,**
**siyasi icmalçı**

**Ermənistan indi yolayrıcındadır. Köhnə sistemlə yeniləşmə arasında böyük təzadları, qarşıdurma meyillərini görürük. Bölgədə sülhün yolunu şumlayan, onun sahəsini qeyri-sabit məkana çevirən Ermənistan özü olub. Əsrlər, minilliklər dəyişsə də, erməni xisləti dəyişmir.**

Bu gün ermənilərin ehtiyac duyduğu milli doktrina və antiböhran konsepsiyasıdır. Onların elitası, siyasi qüvvələri bu konsepsiyasını işləyib ortaya çıxarmalıdır. Bir halda ki, rahat diskurslardan biri qonşulara qarşı ərazi iddialarıdır, əlbəttə, bu ölkə, bu xalq normal yaşaya bilməyəcək. Amerika hindularının torpaqla bağlı maraqlı bir deyimi var. Deyir ki, biz bu torpağı böyüklərimizdən pay almamışıq, onu xələflərimizdən icarəyə götürmüşük. Yəni gələcək nəslə borcumuz olduğunu unutmamalıyıq. Ona görə heç bir xalq əlində olan doğma mirası itirmək istəmir. Ermənilər bəlkə də yeganə xalqdır ki, dünyanın dörd tərəfinə səpələniblər, bütün qitələrə pərən-pərən düşüblər. Əgər bunlarda vətən eşqi olsaydı, nədən bu cür hər yana dağılıblar?

Guya, Azərbaycanın da bunlara torpaq borcu var. Fantaziyalarına güc verir, mifləri gerçəklik kimi qəbul etmək istəyirlər. Bunu da beynəlxalq ictimaiyyətin beyninə salmağa çalışır, qonşuların onlara borclu olduğunu bəyan edirlər. Əlbəttə, uydurduqları tarixin heç bir dəyəri yoxdur və sonda hayların özünə də faydası olmayacaq.

Ermənistan özünün inkişaf paradiqmasını yenidən işləməlidir. Sülh yoluna düzdüyü minalardan özlərini xilas etməkdən ötrü, ilk növbədə, ideoloji yanaşma və diskurslar dəyişməlidir. Əgər erməni xalqı qarşıya qoyduğu hədəflərin sırasında inkişafı, intibahı, dünya millətlər birliyində durmağı görmürsə, onda daim yanlış yolda olacaq. Belə başa düşürəm: artıq Nikol Paşinyan mifik Ermənistanı real Ermənistana çevirmək planının hansı məntiqə söykəndiyini yaxşı anlayır. Bu məntiq deyir ki, özümüzü də, soydaşlarımızı da, dünya birliyini də aldatdığımız bəsdir. Bu baxımdan Paşinyanın götürdüyü kursu düzgün hesab etmək olar. O, köhnə düşüncə və köhnə yolla gələcəyə gedib çıxa bilməyəcəklərini bilir.

# "Dəmir yumruq"dan sonra "qızıl əllər"

**Tarixi həqiqətlər, sadəcə, arxivlərdə və ya xəritələrdə məskunlaşmır. Onlar yaşamaq, nəfəs almaq və özlərini təsdiq etmək üçün torpağa, daşa, tikiliyə və insan taleyinə hopmalıdır. Həqiqətin ali təsdiqi isə onun yaradıcı gücündə, viranəlikdən həyat cücərtmək qüdrətində təzahür edir. Bu kontekstdə Zəngilan rayonunun Məmmədbəyli və Ağalı kəndlərinin yenidən bərpası və doğma sakinlərə mənzillərin açarlarının təqdim edilməsi Azərbaycanın postmünaqişə dövrü üçün milli varlıq doktrinasının formalaşdığı müstəsna aktdır. Prezident İlham Əliyevin mərasimdəki "Ermənilər viran qoyub bizim dədə-baba torpaqlarımızı, biz isə qurub-yaradan xalqıq... Biz – torpaqların sahibləri qayıtmışıq və burada əbədi yaşayacağıq" bəyanatı yeni geosiyasi reallığın mənəvi-əxlaqi və sivil təməllərini hörür.**

## *Quruculuq torpağa vurulan sahiblik möhürüdür*



Prosesin təməlində dayanan əsas prinsip dağıdıcılıq və quruculuq psixologiyaları arasındakı fərqdir. Otuzillik işğal dövründə Qarabağ və Şərqi Zəngəzur torpaqlarında həyata keçirilən məhvetmə siyasəti təsadüfi hərbi əməliyyatların nəticəsi deyildi. Bu siyasət torpağa sahib çıxmaq iddiasında olanların, əslində, həmin torpağa nə qədər yad olduğunun, onun tarixi-mədəni ruhunu heç vaxt anlamadığının və anlamayacağının maddi sübutu idi. Şəhərlərin və kəndlərin infrastrukturunun məhv edilməsi, evlərin sökülərək tikinti materiallarının daşınması, meşələrin qırılması və yandırılması, çayların çirkləndirilməsi ilə müşayiət olunan ekoloji terror hərbi cinayət çərçivəsindən kənara çıxırdı. Həmin əməllər torpağın yaddaşını silmək, ərazinin mənəvi aurasını məhv etmək məqsədi güdən düşünülmüş kultursid və urbisid aktları idi. Ağdam şəhərinin "Qafqazın Xirosiması" adlandırılması, Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan kimi şəhərlərin viran qoyulması, həmin ərazilərə nəzarət edənlərin quruculuq potensialından tamamilə məhrum olmasının, təbiət etibarilə yad ünsür kimi çıxış etməsinin ən bariz göstəricisi idi. Torpağa sahiblik iddiasında olan qüvvə torpağı çiçəkləndirər, abadlaşdırar, gələcək nəsillər üçün daha da gözəlləşdirər. Torpağa müvəqqəti nəzarəti fürsət bilən işğalçı isə ondan maksimum dərəcədə istismar edərək talan edər, dağıdar və məhv edər. Məhz Prezident İlham Əliyevin "ermənilər viran qoyub" ifadəsi tarixi reallığın lakonik və dəqiq diaqnozudur.

Bu dağıdıcılıq aktının qarşısına qoyulan "biz isə qurub-yaradan xalqıq" antitezisi isə Azərbaycan dövlətinin və xalqının sivil missiyasını ifadə edir. Qələbədən dərhal sonra, hələ ərazilərin minalardan tam təmizlənmədiyi şəraitdə başlanan misli görünməmiş bərpa-quruculuq işləri, sadəcə, infrastrukturun yenilənməsi layihəsi deyil. Həmin işlər Azərbaycan xalqının genetik kodlarında mövcud olan yaratmaq, qurmaq, abadlaşdırmaq eşqinin, həyat enerjisinin təntənəsidir. Ağalı kəndində tətbiq edilən "ağıllı kənd" konsepsiyası, Məmmədbəyli kəndinin yenidən qurulması, Füzuli və Zəngilanda beynəlxalq hava limanlarının qısa müddətdə tikilib istifadəyə verilməsi, Laçında yeni aeroportun inşası, onlarla şəhər, qəsəbə və kəndin baş planlarının hazırlanması, yüzlərlə kilometr yeni yolların çəkilməsi, su elektrik stansiyalarının tikintisi, bütün kommunikasiya xətlərinin düzəldilməsi yenidən doğulan sivilizasiyanın möhtəşəm mənzərəsini yaradır. Diqqətçəkən məqam odur ki, bərpa prosesi keçmişin təkrarı anlamına gəlmir. Quruculuq işləri ən müasir texnologiyalar, "yaşıl enerji" konsepsiyaları, dayanıqlı inkişaf prinsipləri əsasında aparılır. Bu, o deməkdir ki, Azərbaycan torpaqlarına qayıdaraq təkcə keçmişi bərpa etmir, eyni zamanda, gələcəyi qurur. Məscidlərin tikilməsi, tarixi abidələrin bərpası isə quruculuğun təkcə maddi, həm də mənəvi-ruhani ölçülərini tamamlayır. Şuşada Vaqifin məqbərəsinin, Bülbülün ev-muzeyinin, Üzeyir Hacıbəylinin heykəlinin bərpası, Saatlı, Aşağı və Yuxarı Göhvər Ağa məscidlərində aparılan təmir-bərpa işləri, Ağdam Cümə məscidinin yenidən ucaldılması torpağın yaddaşının, ruhunun bərpasıdır. Beləliklə, Prezidentin nitqindəki quruculuq fəlsəfəsi dağıdıcılıqla müqayisədə mənəvi, intellektual və bəşəri üstünlüyün tam nümayişidir.

Dövlət başçısının formulyasiyasındakı ikinci analitik qat səbəb-nəticə əlaqəsinin dəqiq müəyyən edilməsidir: "Biz düşməni torpaqlarımızdan qovmuşuq. İndi də doğma torpağımızda qurub-yaradırıq". Bu cümlə quruculuq missiyasının əsas şərtini suverenliyin tam bərpasını ön plana çıxarır. Qurub-yaratmaq üçün, ilk növbədə, torpağın sahibi olmaq, ərazi üzərində tam nəzarəti təmin etmək lazımdır. Otuz il davam edən danışıqlar prosesinin səmərəsizliyi, beynəlxalq hüququn işləməməsi şəraitində ölkəmiz hərbi-siyasi yolla tarixi ədaləti və ərazi bütövlüyünü bərpa edərək, eyni zamanda, quruculuq haqqını da geri qaytardı. Düşmənin işğal etdiyi ərazilərdən qovulması torpaqların gələcək taleyi ilə bağlı qərar vermək səlahiyyətini onun əsl sahibinə qaytardı. Bu, gücün və ədalətin vəhdətinin təcəssümüdür. Güc olmadan ədaləti bərpa etmək mümkün olmadığı kimi, ədalətli məqsəd olmadan güc tətbiqi legitimliyini itirir.

Prezidentin müraciətinin kulminasiya nöqtəsi isə sahiblik hüququnun və əbədi yaşamaq iradəsinin bəyan edilməsidir: "Yəni biz - torpaqların sahibləri qayıtmışıq və burada əbədi yaşayacağıq". "Sahib" anlayışı hüquqi mülkiyyət terminindən daha dərin, metafizik məna daşıyır. Torpağın sahibi kökləri ilə həmin torpağa bağlı olan, əcdadlarının məzarı orada olan, folkloru, musiqisi, memarlığı həmin torpağın ruhundan qidalanan xalqdır. Azərbaycan xalqının Qarabağa və Şərqi Zəngəzura sahibliyi beynəlxalq hüququn təsbit etdiyi gerçəklik olmaqla yanaşı, həm də minilliklərlə formalaşmış tarixi, mədəni və mənəvi reallıqdır. "Qayıtmışıq" kəlməsi millətin tarixi yaddaşında onun köklü bağlılığını qıra bilmədiyini vurğulayır.

"Burada əbədi yaşayacağıq" ifadəsi isə gələcəyə yönəlmiş strateji and, milli iradənin ən yüksək səviyyədə bəyanıdır. Həmin ifadə bir neçə mühüm mesajı ehtiva edir. Birincisi, bu, regionda yaranmış yeni reallıqların dönməz və müzakirə mövzusu olmadığını bütün tərəflərə bəyan edir. Azərbaycan tarixi torpaqlarına birdəfəlik qayıtmışdır və onun suverenliyinə və ərazi bütövlüyünə hər hansı gələcək təhdidin qarşısı qətiyyətlə alınacaqdır. İkincisi, ərazilərimizə qayıdan insanlara, bütün Azərbaycan xalqına dövlət təminatıdır. Əbədi yaşamaq üçün güclü ordu, dayanıqlı iqtisadiyyat, təhlükəsiz mühit yaradılır və yaradılacaqdır. Üçüncüsü, gələcək nəsillərə ünvanlanmış vəsiyyətdir. Torpaqlar əsrlər boyu qorunacaq və daha da çiçəkləndiriləcək müqəddəs Vətəndir.

Prezident İlham Əliyevin Zəngilanda səsləndirdiyi fikirlər yeni dövrün milli ideyasının, milli fəlsəfəsinin mükəmməl xülasəsidir. Həmin fəlsəfənin mərkəzində dağıdıcılığa qarşı quruculuq, barbarlığa qarşı sivilizasiya, yalançı tarixə qarşı həqiqi sahiblik, müvəqqəti iddiaya qarşı əbədi yaşamaq haqqı dayanır. Azərbaycan əzəli torpaqlarımızda qurub-yaratmaq, yaşamaq və əbədi qalmaq kimi müqəddəs haqqını bərpa etmişdir. Zəngilanın simasında dirçələn Qarabağ və Şərqi Zəngəzur xalqın sarsılmaz iradəsinin, tükənməz quruculuq enerjisinin və torpağına əbədi sahiblik eşqinin canlı abidələridir. Bu abidə əsrlər boyu gələcək nəsillərə kimin əsl sahib, kimin isə gəldi-gedər olduğunu xatırladacaq.

***Yusif ŞƏRİFZADƏ***
***XQ***

### *Ekspert rəyi*



**Yusif BAĞIRZADƏ,**
**politoloq**

Hazırda Qarabağ və Şərqi Zəngəzurda aparılan bərpa və yenidənqurma işlərinin miqyası o qədər böyükdür ki, bütün fəaliyyəti sadalamaq mümkün deyil. Görülən işlər, sözün əsl mənasında, heyrət doğurur. Çünki Ermənistanın 30 ilə yaxın işğal dövründə viran qoyduğu yurd yerlərimiz tamamilə yenidən qurulur.

44 günlük Vətən müharibəsində Azərbaycanın qazandığı böyük Zəfərdən dərhal sonra Qarabağ və Şərqi Zəngəzurda bərpa-quruculuq işlərinə başlandı. Azad olunmuş yaşayış məntəqələrinin bərpası və yenidən qurulması dövlətin əsas vəzifəsinə çevrildi. Yerlə bir edilmiş şəhər və kəndlərdə yol, elektrik enerjisi, su, rabitə, təhsil, səhiyyə, mədəniyyət və digər zəruri infrastrukturların yaradılması üçün görülən işlər gündən-günə sürətləndi. Qısa zaman kəsiyində bu həcmdə işlərin görülməsi, insanların öz yurdlarına qayıdışının təşkili olduqca böyük səy, iradə və külli miqdarda maliyyə vəsaiti tələb edir. Ölkə başçısının qətiyyəti və Azərbaycanın imkanları indi xəyalını qurduğumuz işləri gerçəyə çevirməyə imkan verib.

Bütün dünya, işğaldan azad edilmiş ərazilərimizə səfər edən hər kəs ermənilərin "torpaqları viran qoyması"nın əksinə olaraq, azərbaycanlıların "qurub-yaradan" xalq olduğunu, öz torpaqlarına necə sahib çıxdığını əyani şəkildə görür və bunu təqdir edir. Dövlət başçısının işğaldan azad olunmuş rayonlara səfərləri zamanı həmin ərazilərdə təməllərini qoyduğu strateji obyekt və sənaye müəssisələri, eləcə də yaşayış məhəllələri həm iqtisadi, həm də dünyaya bir mesaj olaraq siyasi cəhətdən çox böyük əhəmiyyət kəsb edir.

# ABŞ–Mərkəzi Asiya münasibətlərində yeni mərhələ

**(əvvəli 1-ci səhifədə)**

Tramp administrasiyası üçün Mərkəzi Asiya indi geosiyasi rəqabətin deyil, iqtisadi hegemonluğun meydanıdır. Vaşinqtonun "C5+1" formatında keçirməyə hazırlaşdığı sammit bu strategiyanın konkret təzahürüdür. ABŞ bu platformanı daha çox resurs bazarlarına çıxış, kritik mineralların təhlükəsiz tədarükü və Çin–Rusiya tandeminin təsirinin məhdudlaşdırılması üçün koordinasiya alətinə çevirir. Bununla da "C5+1" "demokratik tərəfdaşlıq" dialoqundan çıxaraq, faktiki "strateji resurs diplomatiyası"na transformasiya olunur.





Kritik minerallar – litium, kobalt, volfram, nadir torpaq elementləri – bu yeni siyasətin mərkəzində dayanır. ABŞ üçün bu resurslar yalnız sənaye istehsalının deyil, həm də milli təhlükəsizliyin təminatıdır. Çin hazırda bu mineralların hasilatı və emalı zəncirinin 70 faizinə nəzarət edir və bu fakt ABŞ-ı alternativ tədarük marşrutları axtarmağa vadar edir. Mərkəzi Asiya bu baxımdan, həm resurs potensialına, həm də siyasi sabitliyə görə cəlbedici məkan sayılır. Tramp administrasiyasının Qazaxıstan və Özbəkistanla yeni müqavilələrə can atması, eləcə də ABŞ korporasiyalarının regionda xammal yataqları ilə maraqlanması bu siyasətin praktik ifadəsidir.

Məhz bu kontekstdə Azərbaycan mühüm strateji bənd kimi ön plana çıxır. Bakı resursların Qərb bazarlarına çıxışı üçün ən real logistik kanalı təşkil edir. Orta Dəhliz, yəni Azərbaycan, Gürcüstan və Türkiyə vasitəsilə Avropaya uzanan xətt ABŞ üçün həm iqtisadi, həm də geosiyasi baxımdan Çin–Rusiya marşrutlarına alternativdir. Bakı–Tbilisi–Qars dəmir yolu, Ələt Beynəlxalq Dəniz Limanı və Trans-Xəzər ticarət koridoru bu məqsədlə Qərb tərəfindən dəstəklənən əsas infrastruktur elementləridir. Vaşinqtonun Orta Dəhliz təşəbbüsü faktiki olaraq, Azərbaycanın regional rolu ilə sinxronlaşdırılmış şəkildə formalaşır.

Bakı artıq uzun illərdir "enerji diplomatiyasını" "resurs diplomatiyası" ilə birləşdirərək çoxtərəfli əməkdaşlıq mərkəzinə çevrilib. Cənub Qaz Dəhlizi layihəsi ilə Qərb bazarlarının enerji təchizatında sabitliyi təmin edən Azərbaycan indi eyni modeli logistik və texnoloji sferaya da tətbiq edir. ABŞ üçün Bakı həm etibarlı tranzit tərəfdaşı, həm də Rusiya və Çinlə balanslı münasibətlər saxlayan siyasi vasitəçidir. Bütün bunlar Tramp administrasiyasının diplomatik manevrləri öz iqtisadi və siyasi təsir zonasında həyata keçirmək strategiyasına tam uyğun gəlir.

Regionda baş verən proseslər fonunda "C5+1" sammiti həm də ABŞ üçün qlobal təchizat zəncirlərinin yenidən qurulması baxımından kritik əhəmiyyət daşıyır. Məhz bu zirvə vasitəsilə Vaşinqton bir tərəfdən, Çinə iqtisadi alternativ formalaşdırmaq, digər tərəfdən isə Rusiya ilə Mərkəzi Asiya arasındakı enerji və ticarət asılılığını azaltmaq niyyətindədir. Qazaxıstanın "Jackson-Vanik" (ABŞ-ın 1974-cü ildə qəbul etdiyi Ticarət Aktına edilən düzəlişdir və uzun illər ərzində Vaşinqtonun bir sıra postsovet və sosialist ölkələri ilə iqtisadi əlaqələrinə siyasi məhdudiyyətlər qoyan əsas mexanizmlərdən biri olmuşdur) məhdudiyyətlərinin ləğvi tələbi ABŞ-ın regiona texnologiya transferini sürətləndirmək istəyi və nadir torpaq elementləri üzrə investisiya razılaşmaları bu məqsədlərin reallaşdırılması istiqamətində əsas addımlardır.

Azərbaycan bu geoiqtisadi mozaikada həm resursların hərəkətini təmin edən tranzit ölkə, həm də siyasi koordinasiya mərkəzi kimi çıxış edir. Bakı üçün bu addım regional nüfuzun və diplomatik çevikliyin dərinləşdirilməsidir. Azərbaycan artıq enerji sahəsində qazandığı etimadı nəqliyyat və texnologiya əməkdaşlığına da ötürür.

Tarixi perspektivdə bu əlaqələrin başlanğıcı 2001-ci ildən sonra formalaşan "antiterror diplomatiyası"na gedib çıxır. 11 sentyabr hadisələrindən sonra ABŞ-ın Mərkəzi Asiya və Cənubi Qafqaz siyasəti təkcə təhlükəsizlik baxımından deyil, həm də enerji və tranzit sabitliyi prizmasında yenidən quruldu. Azərbaycan o zaman Əfqanıstan əməliyyatları üçün "Şimal Paylama Şəbəkəsi"nin əsas halqası kimi Vaşinqtona mühüm dəstək verdi. Bu təcrübə Bakının ABŞ üçün etibarlı tərəfdaş statusunu möhkəmləndirdi və gələcək enerji və nəqliyyat əməkdaşlığının təməlini qoydu.

Həmin dövrdə ABŞ-ın antiterror konsepsiyası ilə enerji təhlükəsizliyi bir-birini tamamlayan iki istiqamətə çevrildi. Vaşinqton üçün Xəzər regionu həm strateji təchizat xətti, həm də təhlükəsizlik tamponu rolunu oynadı. Belə siyasət nəticəsində Azərbaycan Qərb kapitalı və texnologiyasının regiona inteqrasiyası üçün sabit hüquqi mühit yaratdı. 2010-cu illərdən etibarən ABŞ şirkətləri Xəzər hövzəsində daha aktiv mövqelər tutmağa başladı, xüsusilə də Qazaxıstan və Türkmənistan resurslarının Qərbə çıxışı üçün Azərbaycan ərazisindən istifadə məsələsi aktuallaşdı.

Diplomatik xəttin iqtisadi dayağını "tarif diplomatiyası" təşkil edir. Tramp administrasiyası dövründə ABŞ-ın Çinlə apardığı ticarət müharibəsi göstərdi ki, tariflər artıq sırf iqtisadi alət deyil, geosiyasi balans mexanizmidir. Çin mallarına qarşı tətbiq olunan tariflər qlobal istehsal zəncirini dəyişdirdi və ABŞ-ı yeni istehsal və ticarət mərkəzləri axtarmağa məcbur etdi. Cənubi Qafqaz bu baxımdan təbii alternativ kimi meydana çıxdı. Azərbaycan tranzit marşrutlarında tətbiq etdiyi çevik və balanslı tarif siyasəti ilə ABŞ və Qərb şirkətləri üçün regionda ən səmərəli keçid nöqtəsinə çevrildi.

Azərbaycanın bu siyasəti həm də strateji məna daşıyır. Bakı tarif və tranzit siyasətində rəqabətədavamlı mexanizmlər qurmaqla Orta Dəhlizi regionun əsas nəqliyyat arteriyasına çevirib. Eyni zamanda, bu amil ABŞ-ın "Enerji dominantlığı" doktrinasına da uyğundur – enerji hegemonluğu təkcə hasilatla deyil, həm də etibarlı marşrutlarla təmin olunur. Azərbaycan bu mənada Vaşinqtonun Xəzər regionundakı əsas geoiqtisadi dayağı rolunu oynayır. Deməli, Bakı Vaşinqtonun regional siyasətində sabitləşdirici faktor kimi qalır. Azərbaycanın çoxtərəfli diplomatiyası Rusiya və Çinlə açıq qarşıdurmadan yayınmaqla ABŞ-ın təşəbbüslərinə balanslı dəstək göstərməyə imkan verir ki, bu da Azərbaycanın xarici siyasət fəlsəfəsində formalaşan "praqmatik çoxtərəflilik" modelinin real tətbiqidir.

Nəticə etibarilə, ABŞ-ın Mərkəzi Asiyaya çıxışı indi böyük ölçüdə Azərbaycan üzərindən formalaşır. Bakı enerji, logistika və təhlükəsizlik sahələrində Vaşinqtonun Avrasiya strategiyasının dayaq nöqtəsinə çevrilib. Tramp administrasiyası üçün Azərbaycan Avrasiya siyasətinin intellektual və diplomatik koordinasiya mərkəzidir. Azərbaycanın bu rolu həm regional sabitliyə, həm də Qərbin Avrasiya siyasətinin uzunmüddətli dayanıqlığına real töhfə verir.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# Kreativ liderliyin İlham Əliyev nümunəsi: konseptual yanaşma



IV MƏQALƏ

## İkinci nümunə: postmüharibə mərhələsi

Vətən müharibəsindən sonra Azərbaycana qarşı olan həmlələr heç də döyüşlərin gedişində olanlardan az deyildi. Ənənəvi olaraq Azərbaycana qərəzli münasibət göstərən və müxtəlif bəhanələrlə təzyiq etməyə çalışan böyük dairələr, sözün həqiqi anlamında, şoka düşmüşdülər. Çünki yüzillərdir region üçün müəyyən etdikləri geosiyasi şərtləri Azərbaycan Prezidenti cəmi 44 günə xalq-ordu-iqtidar birliyi ilə darmadağın etdi. Prezident İlham Əliyevin "Azərbaycan çox daşları yerindən tərpətdi" məşhur tezisi bu kimi reallıqlardan qaynaqlanır. Bu kəlama müasir siyasi və geosiyasi təlimlərin elmi əsasları prizmasında baxsaq, liderin özgüvəninin müasir şərtlərdə nə dərəcədə önəmli olduğuna bir daha əmin olarıq. Fəlsəfi baxımdan da məsələ çox dərin aktuallığa malikdir.

Ədalətin bərpasının yekunlaşdırılması kontekstində mübarizə meydanında faktiki olaraq Azərbaycan liderinin özgüvəni, düşüncə və praktiki fəaliyyətinin kreativliyi ilə innovativliyinin nisbəti qalmışdı. İlham Əliyev lider kimi təkbaşına bu əngəli də aşmalı və tam olaraq Qalib Lider obrazını tamamlamalı idi.

Lakin burada İlham Əliyev üçün daha önəmli olanı Azərbaycan Respublikası adlı müstəqil dövlətimizin əsl humanitar, sülhsevər, ədalətli gücünü uzun tarixi aradan sonra yenidən sübut etməkdən ibarət idi. Bu məqamı Prezident etdiyi çıxışlarda dəfələrlə aydın vurğulamışdır. Atdığı addımların mahiyyəti, gerçək anlamı və məqsədləri, siyasi lider kimi davranışları tam səmimi və özgüvənli olduğunu göstərirdi.

Müasir dövrdə liderlər üçün sonuncu xüsusiyyət çox önəmlidir. Müasir lideroloji təlimlərdə sözlə əməlin vəhdəti, niyyətin xoşməramlılığı ilə proqramların məzmunu arasındakı tam uyğunluq kimi keyfiyyətlər "liderlik krediti" adlandırılır (bu anlayışdan istifadə etməyən, lakin mahiyyətcə həmin mövqedə olan təlimlər də mövcuddur). Bu anlayışın dərin lideroloji məzmunu kritik və riskli dönəmlərdə daha aydın görünür. Bizim baxdığımız siyasi liderlik aspektində mühüm olan bir məqamın üzərində dayanaq.

## "Liderlik krediti"

Məsələni bu kontekstdə qoymağımızın əsası vardır. Döyüş meydanında möhtəşəm Zəfərdən sonra çox qəzəblənmiş bəzi özündənrazı "güclü dövlətlər" Azərbaycan ətrafında gərgin vəziyyət yaratmaq üçün dəridən-qabıqdan çıxırdılar. Onlar haqqında mediada çox yazılıb, detalları üzərində dayanmayaq. Lakin başlıca mahiyyətləri ondan ibarət idi ki, Azərbaycanın özünümüdafiə xarakterli və işğaldan əzəli torpaqlarını azad etmək üçün apardığı müharibəni terrorçuluq kateqoriyasına aid edib, keçən əsrin 90-cı illərində olduğu kimi, yeni bədnam "907-ci düzəliş"ə bənzər sənədlər tərtib etsinlər.

Bunun fonunda darmadağın olmuş "erməni siyasi şüuru və siyasəti"ni yenidən "diriltsinlər" ki, ümumi olaraq Cənubi Qafqazdakı ədalətsizlik, haqsızlıq, qeyri-humanitarlıq, müsəlman türklərə qarşı siyasi və geosiyasi qərəzlilik davam etsin. İlham Əliyev bu antibəşəri niyyətlərin qarşısını lider kimi kəsdi!

Zəkası, siyasi-diplomatik məharəti, şəxsi psixoloji-emosional keyfiyyətləri, yüksək səviyyəli azərbaycanlılığı ilə düşmən niyyətlərinə keçilməz sədd oldu! Buna "yüz faizlik liderlik krediti", yəni yenilikçi, etibarlı, etimadı yüksək olan, özgüvən sahibi və Qalib lider obrazına tam sahib olmaq deyirlər!

Əlbəttə, hər bir milli siyasi lider üçün bu, etibar, etimad, nüfuz, inam və daim qalib olmaq aspektlərində zirvədir. Elə bu anlamına görə də özündə risk daşıyır və bir sıra həssas məqamları ehtiva edir. Belə bir durumun yaranmasının səbəbi liderin həssas dönəmlərdə atdığı hər bir addımına cəmiyyətin, regionun və qlobal miqyasda dünyanın reaksiyasının necə olacağını öncədən proqnozlaşdırmaq çox çətindir. Çünki Qalibdən hər kəs nəyisə gözləyir və hər hərəkətində bunu görmək istəyir.

Deməli, bu anda liderlik kreditini tükədə bilən risklər meydana gəlir. Burada liderin nüfuzu çevik qərarqəbuletmə fonunda riskə düşür. Situasiyanın qeyri-standartlığı, əsas proseslərin "siyasi seytnot yarada" bildiyi bir dönəmdə belə bir vəziyyət hər bir uğurlu liderin qarşısına çıxa bilər. Liderliyin xüsusiyyəti, ontologiyası və anatomiyası belədir, subyektdən asılı deyildir.

Belə alınır ki, kritik dönəmlərdə liderin riskə getməsi və bu anlamda "uğurlu liderlik kreditini xərcləməsi" təbii haldır. İndi İlham Əliyevin məhz kritik situasiyalarda qəbul etdiyi qərarların onun liderlik nüfuzuna təsiri prizmasında baxaq.

## Liderlik və çevik qərarqəbuletmə

Vətən müharibəsindən dərhal sonra Prezident İlham Əliyev dünyaya bəyan etdi ki, Azərbaycan müharibə paradiqmasına heç zaman üstünlük verməmişdir və bundan sonra da onu etməyəcək. Azərbaycan inkişafı, əməkdaşlığı və təhlükəsizliyin bərqərar olması yolunu seçmişdir və bir daha bunu təsdiq edir! Bunun üçün Azərbaycan Respublikası dövləti ədaləti, hüququ, milli ləyaqəti, milli ilə bəşəri dəyərlərin harmoniyasını, qarşılıqlı paylaşmanı, yardımlaşmanı, humanitarlığı və sühsevərliyi əldə rəhbər tutacaq.

Ancaq Azərbaycan dövləti həm də müstəqilliyi kimsəyə güzəştə gedən deyildir, suverenliyini tam təmin etməkdən vaz keçməyəcək. Buna görə də regional miqyasda dövlətlərarası münasibətləri beynəlxalq hüquq, qarşılıqlı sayğı, humanitarlıq, qarşılıqlı faydalı əməkdaşlıq və şəffaflıq prinsipləri üzrə qurmaqda Bakı qətiyyətli və qərarlıdır.

Lakin təəssüf ki, Azərbaycan liderinin bu prinsiplərinə də öncə ciddi yanaşmadılar. Bəlkə də özlərindən daha güclü bir türk (azərbaycanlı) liderin meydana gəldiyini psixoloji olaraq qəbul edə bilmirdilər. Əslində bu məqam onların bəzilərinin hirsli, bir qədər saymazyana və xeyli də qərəzli davranışlarından "etik epilepsiya" keçirmələrindən hiss olunurdu.

Xüsusilə, Azərbaycan liderinin Fransa prezidenti E.Makronu Ermənistanla danışıqlarda vasitəçi kimi qəbul etməməsindən sonra rəsmi Parisin Almaniya kanslerini onları dəstəkləmədiyi üçün "prinsipsiz, qətiyyətsiz adam" adlandırması yaddaşlardadır. Fransa rəhbərliyi birbaşa tələb edirdi ki, hər bir Avropa ölkəsi onların birtərəfli, haqsız, ədalətsiz və ksenofob mövqelərini müdafiə etsin. Ancaq İlham Əliyev mövqeyini qorudu və daha da inkişaf etdirdi.

Nəticə nə oldu?. "Avropa Siyasi Birliyi"nin son zirvə toplantısında Makronun özü hörmətlə İlham Əliyevlə görüşdü, əlini sıxdı və mehribanlıq nümayiş etdirdi. O zaman E.Makronun O.Şoltsun haqlı olduğunu xatırlayıb–xatırlamadığını bilmirik. Lakin siyasi mübarizənin qalibinin İlham Əliyev olduğunu əzilə-əzilə qəbul etdiyi aydın görünürdü!

İlham Əliyev üçün siyasi və geosiyasi kontekstdə risk buradan qaynaqlandı. Şübhə etmirik ki, özlərini güclü sayanlar gözləyirdilər ki, İlham Əliyev geri addım atacaq və güzəştə gedəcək.

Bu, əlbəttə, müstəqilliyini tarixi zaman baxımından yeni əldə etmiş dövlət üçün həqiqətən risk idi. Lakin kimlərin nə və necə deməsindən asılı olmayaraq, 2023-cü ilin sentyabrında düşmənin başına 23 saat müddətində "dəmir yumruğu" endirəndə İlham Əliyevin lider kimi zəkası, qətiyyəti, özünə və xalqına inamı, dövlətçilik ənənəsinə siyasi varislik kontekstində dərin sadiqliyi bir daha hər kəsə aydın oldu!

Bu da əlavə risklər meydana gətirdi! Lakin əsl qazanan Prezident İlham Əliyev oldu! İzah edək.

## Xalqın inamı, etimadı və sevgisi

Azərbaycan xalqı liderin tam suverenliyi təmin etməsini müstəqillik tariximizin ən qiymətli incisi kimi qiymətləndirdi. Ulu öndər bu xalqı müdrik və ziyalı mahiyyətli adlandırmaqla qətiyyən yanılmamışdır. Azərbaycan xalqı 23 saatda verdiyimiz yüzlərlə şəhidini ağlaya-ağlaya alqışlarla əbədi dünyaya yola saldı. Doğrudan şəhidlərin anaları, bacıları, həyat yoldaşları ilə yanaşı, hər birimizin Vətən övladları üçün içimiz göynədi. Dövlətin başçısı göz yaşlarını saxlaya bilmədi! Bunları heç zaman unutmarıq, həmişə bizim üçün örnək olaraq qalacaq, həmin anlar!

Azərbaycan dövləti və xalqı öz müstəqilliyini, vətənsevərliyini, azadlıqsevərliyini bir daha nümayiş etdirdi. Təəssüf ki, bizə savaşdan başqa yol qoymadılar və Prezidentimiz riskə getdi. Çevik və ani qərarı ilə düşmənin on minlərlə xüsusi dəstəsini darmadağın etmək əmrini verdi! Bununla Azərbaycan lideri riskləri aşaraq xalqın etimadına, etibarına və sevgisinə yeni səviyyədə nail oldu.

Çox müxtəlif səviyyələrdə təzyiq cəhdlərinə baxmayaraq, Ermənistanla sülhə yalnız Bakının irəli sürdüyü 5 baza prinsipi çərçivəsində nail oluna biləcəyini hər kəsə aydın izah etdi. Məlum Vaşinqton görüşü bu xəttin təntənəsi idi! Bu İlham Əliyevin lider kimi yüksək potensialının və onun praktiki reallaşmasının göstəricisi idi!

Nəzəri təlimlərin soyuq məntiqi və quru ritorikası ilə desək, İlham Əliyev çevik qərarlarıyla liderlik kreditini daha da yüksəltdi! Məhz bu nəticəyə nail olmağı riskli situasiyada düzgün qərarlar qəbul etməklə, bütövlükdə, vəziyyəti dövlətin və millətin xeyrinə dəyişmək məharəti deyirlər. Bu prosesdə başqa bir mühüm amilin rolunu vurğulamaq gərəkdir.

## Liderin strateji vizyonu

Maraqlı və əhəmiyyətlidir ki, liderin kreativliyi, innovativliyi ilə onun strateji düşünmək sərhədləri arasında sıx bağlılıq vardır. Həqiqi mənada yaradıcı (kreativ) və praktikada yenilikçi (aldığı nəticələrə görə, innovativ) ola bilməyən siyasi liderin müsbət nəticəverici strateji vizyona sahib olması, bizcə, mümkün deyildir. Çünki strategiya avtomatik olaraq gələcəyi bu gündən necə görməyi, yəni gələcəyin obrazını necə təsəvvür etməyi ehtiva edir. Sinergetiklər bunu liderin "bifurkasiya zonası"nda (çox ehtimallı, riskli, fərqli ssenariləri daşıyan xüsusi həssas zona) seçimi fonunda müəyyən edirlər.

Beləliklə, lider dövləti, ölkəni və xalqı inkişaf və tərəqqi potensialı öncəki vəziyyətə nisbətən daha yüksək olan "qəribə attraktur"un (yeni sosial-mədəni, siyasi, iqtisadi, mədəni, mənəvi-əxlaqi və s. struktur-funksional sahəsi) cazibə sahəsinə yönəldə bilirsə, onun strateji vizyonu mövcud reallığa tam uyğundur! Əgər bu praktiki və konkret nəticə yoxdursa, liderin fəaliyyətinin ehtimallılıq və risk daşıma xüsusiyyətləri qalmış olur!

Strateji vizyonun praktiki düzgün olmasının əlaməti kimi nələri göstərmək olar? Əlbəttə, ilk növbədə, Liderin riskdən sonra fəaliyyət diapazonu, əhatə etdiyi məsələlərin əhatəlilik səviyyəsi və canlı fəaliyyəti zamanı əldə etdiyi nailiyyətlər burada əsas rol oynayır. Azərbaycan Prezidentinin bu aspektdə göstəriciləri necədir?

İndi analitiklər, filosoflar, politoloqlar, ekspert camiyəsi Azərbaycan Prezidentinin son iki aydakı fəaliyyətinə maraqlı yanaşmalar nümayiş etdirirlər. Çox qısa müddətdə İlham Əliyev 8 istiqamətdə vacib addımlar atmış, səfərlər etmişdir. Hər birində də konkret nəticələri vardır. Biz onlardan Vaşinqton Sazişini, Çinə səfərini, Düşənbəyə səfəri zamanı V.Putinlə apardığı müzakirələri və əldə etdiyi nailiyyəti, Yaxın Şərqdə sülhün yaradılması ilə bağlı tədbiri, Türk Dövlətləri Təşkilatının Qəbələ Zirvəsini, "Avropa Siyasi Birliyi"nin tədbirində iştirakını, İtaliya dövlət başçısının Bakıya səfəri zamanı müzakirə edilən məsələləri, Azərbaycan rəhbərinin Qazaxıstana səfərini vurğulaya bilərik.

Beləliklə, Azərbaycan Prezidentinin lider kimi kreativliyi, innovativ addımları və strateji vizyonu bir-birini tamamlayan mükəmməl sistemin əsas amillərindəndir. İlham Əliyev bu kimi üstün keyfiyyətləri ilə Azərbaycan Respublikasını özünəməxsus Orta Güc halına gətirmişdir. Azərbaycan həm də Türk Dövlətləri Təşkilatının lideri və aparıcı dövlətidir. Azərbaycan geosiyasətdə öz sözü və statusu olan ölkədir! Bütün bunların hamısı Azərbaycan liderinin sayəsində bizim üçün reallığa çevrilmişdir. Eyni zamanda, inkişafın yeni mərhələsinin möhkəm təməlini hazırlamışdır! Onun da nəticələrini yaxın zamanlarda görəcəyik!

*Füzuli QURBANOV,*
*XQ-nin analitiki,*
*fəlsəfə elmləri doktoru*

# Ermənistan rəhbərliyi 44 günlük savaş dövründə

## *Ambartsumyan nələri açıqladı və...*

**44 günlük müharibə dövründə Ermənistanın Milli Təhlükəsizlik Xidmətinin (MTX) direktoru vəzifəsini müvəqqəti icra etmiş Mikael Ambartsumyan quruma rəhbərlik etdiyi zaman kəsiyi barədə ilk dəfə, özü də ətraflı şəkildə danışıb, bir sıra məqamları açıqlayıb. O məqamlar savaş müddətində Ermənistan rəhbərliyinin yaşadığı dramatik durumu göstərir. Əlbəttə, indi Ambartsumyanın meydana çıxması da maraqlıdır və bu barədə yazımızın sonunda söz açacağıq. Hələlik isə onun konkret nələri açıqladığına diqqət yetirək.**

Birincisi, M.Ambartsumyan bildirib ki, 44 günlük müharibədə baş nazirin sərxoş olduğuna dair söz-söhbətlər uydurmadır. "Mən belə bir şey eşitməmişəm. Bu, sadəcə, doğru deyil. O, ayıq və nizamlı vəziyyətdə idi və daim iş başında olurdu. Hətta gecələr də qərargahda görüşlər, iclaslar keçirirdi", – deyən Ambartsumyan baş nazirin savaş günlərində onun hesabatlarını şəxsən qəbul etdiyini vurğulayıb: "Hesabat vermək lazım olanda, o, iclası dayandırır, diqqətlə (ona) qulaq asır və dərhal göstərişlər verirdi. Bütün proses belə gedirdi. Elə bir göstəriş olmamışdı ki, oradan baş nazirin ölkə əleyhinə hansısa qəsdin içində olduğu nəticəsinə gəlinsin".



İkincisi, Ambartsumyan 2020-ci il oktyabrın ortalarına doğru cəbhədə vəziyyətin xeyli pisləşməyə başladığını vurğulayıb. "19 oktyabrda Təhlükəsizlik Şurasının iclasında Onik Qasparyan (Ermənistanın o zamankı baş qərargah rəisi – red.) rəsmi şəkildə bildirdi ki, vəziyyət kritikdir, biz uduzuruq və müharibəni dayandırmaq üçün bütün mümkün resurslardan istifadə etmək lazımdır. Müdafiə naziri David Tonoyan da bunu təsdiqlədi", – deyən sabiq direktor baş nazirin nəyə görə döyüşləri dayandırmadığı barədə heç nə bilmədiyini deyib: "Bu suala cavab verə bilmərəm. Mən ölkə rəhbərinin nə etdiyini və ya nə planlaşdırdığını biləcək mövqedə deyildim. 19 oktyabr tarixinə qədər Rusiya Prezidenti Vladimir Putinin müharibəni dayandırmaq təklifi barədə də xəbərdar deyildim. O vaxt biz onun (Paşinyanın – red.) Rusiya Prezidenti ilə nə danışdığını eşitmirdik".

Üçüncüsü, Ambartsumyan müharibə dayandırılmadıqca vəziyyətin sürətlə pisləşməsindən söz açıb. "Problemlər qar topu kimi böyüyürdü. Vəziyyət getdikcə idarəolunmaz olurdu və nəticədə Azərbaycan qüvvələri cənub istiqamətindən irəliləyərək Şuşaya qədər gəlib çıxdılar", – deyən sabiq direktor həmin dövrdə Rusiyanın atəşkəs təklifindən sonra müharibənin niyə dayandırılmadığını tez-tez düşündüyünü dilə gətirib: "Bu əsas sual idi və ona səthi yanaşmaq olmaz. Səbəblər daha dərin ola bilərdi. Bəzən düşünürdüm: bəlkə qərar qəsdən gecikdirilir? Yəni Stepanakertin (Xankəndi - red.) əldən çıxmasınımı gözləyirlər? Əlbəttə, belə fikirlər yaranırdı. Necə yaranmasın ki, hər şeyin hara getdiyini görürdük".

Dördüncüsü, M.Ambartsumyan dramatik şəraitdə baş nazir Paşinyanı həbs edib ölkəni kapitulyasiyadan xilas etmək fikrinin olub-olmadığına dair sualı cavablandırıb. O, belə niyyətin olmadığını və olmasının qeyri-mümkünlüyünü açıqlayıb: "Bəzən mənə deyirlər: niyə həbs etmədiniz? Amma belə deyənlər, sadəcə, MTX sisteminin necə işlədiyini və onun hansı səlahiyyətlərinin olduğunu bilmirlər. Nə hüquqi, nə də faktiki əsasımız yox idi ki, belə addım ataq".

Beşincisi, Ambartsumyan deyib ki, Paşinyan həbs olunsaydı, müharibə Rusiya vasitəsilə daha tez dayandırıla bilərdi. "Mən narahatlığımı həmkarlarımla bölüşürdüm. Bəli, bu, belə idi. Amma məsələ heç vaxt elə səviyyəyə qaldırılmadı ki, həbs qərarı kimi bir şey müzakirə olunsun", – deyən sabiq rəsminin sözlərinə görə, baş nazirin qəsdən ölkəni məğlubiyyətə aparmaq istədiyinə dair birbaşa sübutlar olmadıqca, onun həbsi kimi radikal addım atmaq qəbuledilməz idi: "Əgər aydın olsaydı ki, rəhbərlik bilərəkdən ölkəni məğlubiyyətə aparır, o zaman hərəkətsizlik cinayət olardı. Amma insan, sadəcə, səhv edir və ya bacarıqsız hərəkət edirsə, bu, başqa məsələdir. Mən deyə bilmərəm ki, o (Paşinyan - red.), qəsdən belə edib".

Altıncısı, M.Ambartsumyanın fikrincə, Paşinyanın əsas və bəlkə də ölümcül səhvi müharibəni dayandırmaması idi. "Əgər xəstə ölmək üzrədirsə, həkim müalicə üsuluna qərar verir. Bizim halda "həkimlər" müdafiə naziri və baş qərargah rəisi idi. Əgər onlar deyirdilərsə ki, müharibə uduzulub və çıxış yolu qalmayıb, amma rəhbər yenə də döyüşləri dayandırmırdı, deməli, çox ciddi suallar yaranır", – deyən MTX-nın sabiq şefi əlavə edib ki, döyüşlərin dayandırılması yalnız Rusiyanın səyləri sayəsində mümkün olub və "Rusiya Ermənistanı satdı" kimi iddialar böhtandır: "44 günlük müharibə zamanı Ermənistan üçün Rusiyadan çox iş görən başqa bir ölkə olmayıb. Məhz onun sayəsində müharibə Stepanakertə (Xankəndi – red.), bəlkə də Ermənistanın öz ərazisinə qədər davam etmədi. Azərbaycan istəsəydi, Hadrutu və Qorisi bir neçə günə ala bilərdi, amma bu, baş vermədi və bu, xeyli dərəcədə Rusiya amili ilə bağlı idi".

Yeddincisi, M.Ambartsumyan bilavasitə Rusiyanın Ermənistana qarşı xəyanət yolu tutduğuna dair iddialara da münasibət bildirib və deyib ki, belə bəyanatlara çox ehtiyatla yanaşılmalıdır: "Bəzən elə təəssürat yaranır ki, insanlar Rusiyanın bizi tam "himayəsinə" götürməli və bütün problemlərimizi həll etməli olduğunu düşünürlər. Amma biz özümüz Qarabağ üçün nə etmişdik? Əgər siyasi rəhbərlik yüksək tribunadan Qarabağın Azərbaycan torpağı olduğunu deyirsə, bizdən hansı addımları gözləmək olar? Üstəlik, rəhbərlik Qarabağdakı soydaşlarımızla əlaqəni demək olar ki, tam kəsmişdi. Bunu da unutmamaq lazımdır. Əlbəttə, Rusiya daha sərt addımlar ata bilərdi, amma Ermənistanın öz dəstəyi olmadan ondan, oradakı insanlardan çox şey tələb etmək düzgün deyildi".

Sonda əvvəldə qaldırdığımız məsələyə qayıdaq. Əlbəttə, M.Ambartsumyan ehtiyatlı davranır. Yəni başqaları kimi, erməni iqtidarını aşkar şəkildə günahlandırmaq yolu tutmur. Görünür, bu kimi ritorikanın cəmiyyətdə əks–effekt verməsi təcrübəsindən xəbərdardır. Ancaq Ambartsumyanın üzərində dayandığı başlıca məqam var. O, böyük ölçüdə Ermənistan üçün Rusiya ilə bağlılıq ideyasının təbliğatını aparır. Əlbəttə ki, bunu subliminal şəkildə edir və çalışır ki, açıqladığı fikirlərə şərh verməsin. Daha doğrusu, o, nəticəyə gəlməyi erməni cəmiyyətinin öz ixtiyarına buraxır.

Deməli, indiki məqamda Ambartsumyanın meydana çıxması heç də təsadüf sayılmamalıdır. O, Paşinyan iqtidarını devirməyə çalışanların cəbhəsindədir. Bu cəbhənin nə dərəcədə uğur qazanacağı, yaxud Ambartsumyanın dediklərinin həmin cəbhənin uğuru baxımından hansı mahiyyət daşıyacağı isə zamanla bilinəcək.

***Ə.RÜSTƏMOV***
***XQ***

# Bakıda 13-cü Xəzər Enerji Forumu



**Dünən Bakıda 13-cü Xəzər Enerji Forumu keçirilib. Forumun əsas məqsədi COP29 və COP30 tədbirləri fonunda beynəlxalq enerji gündəminin düzgün və səmərəli şəkildə təqdim edilməsini təmin etmək, regionda bərpaolunan enerji və qaz sahəsində əsas layihələri tanıtmaq və dəstəkləmək, "Yaşıl enerji dəhlizi"nin inkişafı ilə bağlı fikir mübadiləsi aparmaqdan ibarət olub.**

Bununla yanaşı, forumda dövlət, biznes və beynəlxalq təşkilatlar arasında dialoqun dərinləşdirilməsi, dayanıqlı enerji sahəsində investisiyaların cəlb olunması və tərəfdaşlığın genişləndirilməsi ilə bağlı məsələlər, eləcə də regionun qlobal enerji keçidindəki rolu da müzakirə mövzuları sırasında yer alıb. Azərbaycan xarici işlər nazirinin müavini Yalçın Rəfiyev bildirib ki, ölkəmiz regionun yeni enerji xəritəsinin formalaşmasında həm istehsalçı, həm də mühüm tranzit rolu oynayır. Onun sözlərinə görə, Qarabağda və Şərqi Zəngəzurda bərpaolunan enerji üzrə layihələrin gerçəkləşdirilməsi, eləcə də Xəzər dənizinin külək potensialından istifadə Azərbaycanı "yaşıl enerji"nin regional mərkəzinə çevirir.

Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin rəis müavini Samirə Musayeva qeyd edib ki, ölkəmiz qlobal iqlim dəyişikliklərinə adaptasiya üzrə öz məqsədlərini həyata keçirir. Bərpaolunan enerji mənbələrinin və onların daşınması infrastrukturunun inkişafının Azərbaycana "yaşıl enerji"nin tranzit mərkəzinə çevrilmək imkanı yaratdığını vurğulayan rəis müavininin sözlərinə görə, "yaşıl iqtisadiyyat"a keçid iqtisadi modernləşmə, innovasiyalar və uzunmüddətli rəqabət qabiliyyətinin formalaşması deməkdir.

S.Musayeva siyasi və ictimai maarifləndirmənin, izahat kampaniyalarının aparılmasının vacibliyinə diqqət çəkərək bu baxımdan Qarabağda və Şərqi Zəngəzurda "yaşıl iqtisadi zona"ların yaradılması, eləcə də "yaşıl sənaye parkları"nın formalaşdırılması və işə salınmasının mühüm əhəmiyyət kəsb etdiyini bildirib. Azərbaycan dövlətinin bərpaolunan enerji istehsalı təşəbbüslərinin əsas dəstəkçisi olduğunu xatırladan rəis müavini onu da bildirib ki, ölkəmizin Avropa İttifaqına ixrac edəcəyi məhsulların 0,4 faizinə "karbon vergisi" təsir göstərəcək. Onun sözlərinə görə, Avropa İttifaqında yeni qəbul olunmuş sadələşdirilmə mexanizmləri nəzərə alınsa, ümumiyyətlə, bu təsirlər kifayət qədər az olacaq.

Azərbaycan Respublikasının Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyinin direktoru Cavid Abdullayev çıxışında bildirib ki, Avropa Yenidənqurma və İnkişaf Bankı hidrogen enerjisi üzrə yol xəritəsinin hazırlanmasında Azərbaycana dəstək göstərir. Onun sözlərinə görə, AYİB hidrogen enerjisinin inkişafı üzrə yol xəritələrinin hazırlanması çərçivəsində ölkəmizlə fəal əməkdaşlıq edir və sözügedən yol xəritələri bu sahədə gələcək layihələr üçün təməl rolunu oynayacaq.

Agentlik direktoru daha sonra deyib ki, bank artıq Azərbaycan tərəfinə həm maliyyə, həm də ekspert dəstəyi göstərir və sənədin ətraflı və icraya yönəlmiş formada hazırlanması üçün beynəlxalq konsaltinq şirkətinin seçimi prosesi yekun mərhələyə çatıb. O, həmçinin xatırladıb ki, COP29 çərçivəsində Azərbaycan hidrogen enerjisinin inkişafı üzrə öz baxışını və geniş beynəlxalq maraq doğuran strateji sənədini təqdim edib.

İqtisadiyyat Nazirliyi yanında Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin İdarə Heyətinin sədri Orxan Məmmədov bildirib ki, Azərbaycanın kiçik və orta biznes subyektləri "yaşıl enerji" strategiyasının həyata keçirilməsinə əhəmiyyətli töhfə vermək imkanına malikdir. Ölkənin elektrik enerjisi və əlaqəli sektorlar üzrə istehsal və təchizat sahəsində 300-dən artıq KOB subyektinin fəaliyyət göstərdiyini diqqətə çatdıran agentlik rəhbərinin sözlərinə görə, həmin müəssisələrdə 14 minə yaxın işçi çalışır və 2023-cü ilin göstəricisinə əsasən 900 min manata yaxın məhsul istehsalı qeydə alınıb.

Azərbaycanda fəaliyyət göstərən biznes subyektlərinin 99,7 faizinin KOB-ların payına düşdüyünü və burada 400 min nəfərdən artıq işçi qüvvəsinin cəmləşdiyini qeyd edən O.Məmmədov bununla da KOB-ların həm özlərinin "yaşıl" və qənaətli enerji istehlakını artıra biləcəyini, həm də işçi heyəti arasında bu cür təcrübələrin tətbiqini genişləndirə biləcəyini bildirib.

Asiya İnkişaf Bankının (AİB) Azərbaycan üzrə direktoru Sunniya Durrani-Camal çıxışında təmsil etdiyi qurumun ölkəmizdə bərpaolunan enerjinin və enerji səmərəliliyinin inkişafını fəal şəkildə dəstəklədiyini bildirib. Qeyd olunub ki, AİB hidrogen də daxil olmaqla yeni texnologiyalar, enerji istehsalı və şəbəkə infrastrukturu sahələrinə investisiya qoyur və "yaşıl istiqrazlar" və zəmanətlər vasitəsilə özəl kapitalı cəlb edir. Sunniya Durrani-Camal deyib ki, AİB 25 ildən artıq fəaliyyəti ərzində Azərbaycana, təxminən, 5,5 milyard dollar investisiya qoyub, bunun isə 4,4 milyardı dövlət sektoruna, qalanı isə özəl sektora yönəldilib.

Forum çərçivəsində "YAŞAT" Fondunun rəhbəri Elvin Hüseynov və "Caspian Energy Club" qrupunun sədri və baş icraçı direktoru Telman Əliyev arasında Anlaşma Memorandumu imzalanıb.

# AYİB ölkəmizin "təmiz" layihələrini dəstəkləyir

**Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB) "Azərbaycanın yaşıl iqtisadiyyatı"nın maliyyələşmə proqramını işə salmaq imkanını nəzərdən keçirir. 100 milyon ABŞ dolları dəyərində olan bu təşəbbüs 5 illik müddət ərzində yerli tərəfdaş maliyyə qurumları vasitəsilə "yaşıl" maliyyələşmənin dəstəklənməsinə hədəflənib.**




Qurumdan verilən məlumata əsasən, proqram təsdiqlənəcəyi halda banklara, mikromaliyyə təşkilatlarına və lizinq şirkətlərinə enerji səmərəliliyi, bərpaolunan enerji mənbələri, resurslardan səmərəli istifadə, dövri iqtisadiyyat və iqlim dayanıqlığı sahələrində layihələr həyata keçirən özəl borcalanlara kreditlər vermək üçün maliyyə vəsaitləri təqdim ediləcək.

Təşəbbüs Azərbaycanda "yaşıl" maliyyələşdirmə üzrə pilot proqram kimi nəzərdə tutulur və ölkənin "yaşıl iqtisadiyyata keçid" prosesinə töhfə verməyi hədəfləyir. Layihə yerli maliyyə institutlarının potensialını gücləndirməyə yönəlib. Bunun üçün onlara yalnız maliyyə dəstəyi deyil, həm də texniki yardım göstəriləcək ki, bu da dayanıqlı texnologiyalara yatırılan investisiyaların portfelini genişləndirməyə imkan verəcək.

Bundan əlavə, "Azərbaycanın yaşıl iqtisadiyyatı"nın maliyyələşmə təşəbbüsü "yaşıl" kreditləşmə sahəsində mövcud maneələri aradan qaldırmaq və qadınlarla kişilər üçün "yaşıl" maliyyələşdirməyə bərabər çıxışı təmin etmək məqsədi daşıyır.

Qeyd edək ki, proqram 2024-cü ilin noyabrında Bakıda keçirilmiş COP29 tədbirindən sonra Azərbaycanın ekoloji dayanıqlılıq sahəsində artan fəallığına, tənzimləyici qurumların fəal iştirakına və beynəlxalq ictimaiyyətin diqqətinin güclənməsinə əsaslanır.

# Naxçıvanın yerli büdcə gəlirləri 63,1 faizə yüksəlib



**Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin məlumatında bildirilir ki, 2022-ci ildə muxtar respublikanın büdcəsində dotasiyanın ümumi həcmi 425 milyon manat idisə, 2023-cü ildə bu həcm 315 milyon manata, 2024-cü ildə isə 185,2 milyon manata enib.**

Ümumilikdə, 2022–2024-cü illər dövründə Naxçıvan Muxtar Respublikasının büdcəsində dotasiyanın həcmi 239,9 milyon manat və ya 56,4 faiz azalıb. Bu dinamika sadəcə riyazi-statistik göstərici deyil, həm də regionun fiskal müstəqilliyinin artdığını, iqtisadi potensialının genişləndiyini və yerli gəlirlərin büdcə sistemindəki rolunun əhəmiyyətli dərəcədə gücləndiyini nümayiş etdirir.

Məlumatda qeyd olunur ki, dotasiyanın azalması ilə paralel olaraq, yerli maliyyə mənbələrinin səfərbərliyi, vergi inzibatçılığının təkmilləşdirilməsi və maliyyə idarəçiliyinin səmərəliliyinin yüksəldilməsi istiqamətində həyata keçirilən tədbirlər öz real nəticələrini göstərməkdədir. Nəticə etibarilə, 2022–2024-cü illər üzrə müşahidə edilən bu tendensiya Naxçıvan Muxtar Respublikasında büdcə sisteminin daha dayanıqlı, balanslı və institusional baxımdan müstəqil əsaslar üzərində formalaşacağına dair güclü iqtisadi və idarəetmə əsasları yaradır.

2025-ci ilin 9 ayında muxtar respublika büdcəsinin gəlirləri 325 milyon 559 min 140 manat həcmində olub ki, bunun da 63,1 faizi yerli yığımlar hesabına formalaşıb. Dotasiyanın həcmi isə 120 milyon manat və ya 36,9 faiz təşkil edib ki, bu da 2024-cü ilin müvafiq dövrü ilə müqayisədə (170 milyon 150 min manat) 50 milyon 150 min manat və ya 29,5 faiz azalma deməkdir.

# Şərqi Zəngəzurun "yaşıl" potensialına "yaşıl" işıq



**Azərbaycanın zəngin bərpaolunan enerji potensialının mühüm bir hissəsi işğaldan azad edilmiş ərazilərdə cəmləşib. Son illər aparılmış elmi araşdırmalar və tədqiqat işləri nəticəsində burada günəş, külək, hidro və digər bərpaolunan enerji növləri üzrə ciddi imkanların mövcudluğunu tam təsdiqləyib. Mütəxəssislər bölgənin bərpaolunan enerji üzrə texniki potensialını, təxminən, 10 qiqavat həcmində qiymətləndiriblər. Məhz buna görədir ki, dövlət başçısı İlham Əliyev Qarabağ və Şərqi Zəngəzurun 10 min kvadratkilometrlik ərazisini "yaşıl enerji zonası" elan edib.**

2030-cu ilə qədər bölgədə mövcud potensial hesabına 1,6 qiqavat "yaşıl enerji" istehsalına nail olunması planlaşdırılır. Artıq regionun "yaşıl enerji" potensialının hərəkətə gətirilməsi istiqamətində konkret layihələrin həyata keçirilməsinə başlanılıb. Bu baxımdan Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayılda reallaşdırılan layihələr diqqət çəkir. Məlum olduğu kimi, rayon ərazisində icra olunan 240 meqavatlıq "Şəfəq" layihəsi artıq tikinti mərhələsinə qədəm qoyub. Ölkəmizin işğaldan azad edilmiş ərazilərinin bərpaolunan enerji potensialının hərəkətə gətirilməsi istiqamətində həyata keçirilən ən iri layihə sayılan "Şəfəq" Günəş Elektrik Stansiyasında il ərzində, təxminən, 500 milyon kilovat-saat elektrik enerjisinin istehsalı planlaşdırılır. Bu da illik 120-150 milyon kubmetr təbii qaza qənaət etməyə və 260-330 min ton karbon emissiyasının azaldılmasına imkan yaradacaq.

Prezident İlham Əliyevin oktyabrın 28-də Şərqi Zəngəzura səfəri çərçivəsində Cəbrayıl rayonunun Şahvəlli kəndində hər birinin gücü 50 meqavat olan "Şəms" və "Üfüq" günəş elektrik stansiyalarının təməlini qoyması isə bölgənin "yaşıl" sərvətinin ölkə iqtisadiyyatına reinteqrasiyası baxımından mühüm əhəmiyyət kəsb edir. İşğaldan azad edilmiş ərazilərin bərpaolunan enerji potensialının hərəkətə gətirilməsində yeni mərhələnin başlanğıcı sayılan bu stansiyaların ümumi gücü 100 meqavat təşkil edəcək. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının postmünaqişə dövründə bərpası və inkişafı prosesinin bir hissəsi olan bu layihələr Azərbaycanın enerji istehsalında şaxələndirmə siyasətini gücləndirməklə 2030-cu ilə qədər ümumi enerji istehsalında "yaşıl" mənbələrin payını 30 faizə çatdırmaq məqsədinə xidmət edir.

Layihə üzrə açıqlanan göstəricilər iqtisadi baxımdan kifayət qədər səmərəlidir. Mərasimdə dövlət başçısına məlumat verilib ki, "Şəms" və "Üfüq" günəş elektrik stansiyalarında ildə, ümumilikdə, 206 milyon kilovat-saat elektrik enerjisinin istehsalı planlaşdırılır. Bunun nəticəsində hər il, təxminən, 44 milyon kubmetr təbii qaza qənaət ediləcəyi, atmosferə atılan zərərli emissiyaların isə 96 min ton azalacağı gözlənilir. Sözügedən stansiyalarda istehsal ediləcək elektrik enerjisinin 75 milyon kilovat-saatı "AzərEnerji" ASC-yə, 131 milyon kilovat-saatı isə "elektrik enerjisinin virtual ötürülməsi" prinsipi əsasında iri istehlakçılarla birbaşa bağlanan alqı-satqı müqavilələri üzrə satılacaq. Bu rəqəmlər isə layihələrin təkcə enerji təminatı baxımından deyil, həm də ekoloji sabitlik və iqlim siyasəti baxımından olduqca mühüm əhəmiyyət daşıdığını təsdiqləyir.

Yeri gəlmişkən, "Şəms" və "Üfüq" layihələrinin həyata keçirilməsi dövlət-özəl tərəfdaşlığı prinsipi əsasında aparılır. Layihə bölgədə "yaşıl iqtisadiyyat"ın inkişafına, müasir iş yerlərinin yaradılmasına, enerji infrastrukturunun yenilənməsinə, həm də postmüharibə dövründə əhalinin geri dönüşü üçün infrastruktur təminatına şərait yaradacaq. Bu stansiyalar, həm də regionda enerji müstəqilliyini gücləndirməklə gələcəkdə Zəngəzur dəhlizi vasitəsilə enerji ixrac potensialının artırılmasına və regional enerji təhlükəsizliyinə töhfə verəcək. Bir məqamı da qeyd edək ki, Cəbrayıl rayonunun Zəngilan və Füzuli ilə sərhəddə yerləşməsi, eləcə də nəqliyyat-logistika baxımından əhəmiyyəti buranı yaxın gələcəkdə "yaşıl enerji" klasterinin mərkəzinə çevirəcək.

2027-ci ildə istismara verilməsi planlaşdırılan bu stansiyalar Azərbaycan üçün enerji ixracında bərpaolunan mənbələrin payının artması, regionların dayanıqlı inkişafı və "yaşıl iqtisadiyyat"ın möhkəmlənməsi baxımından dönüş nöqtəsi olacaq. Eyni zamanda, Zəngəzur dəhlizinin enerji sütununu təşkil edəcək bu stansiyalar gələcəkdə Qarabağ və Naxçıvan arasında enerji inteqrasiyasına da zəmin yaradacaq.

Ölkə Prezidenti İlham Əliyev oktyabrın 28-də Cəbrayıl rayonunun Horovlu kəndinin sakinləri ilə görüşündə təməli qoyulan "Şəms" və "Üfüq", eləcə də hazırda inşası davam etdirilən "Şəfəq" günəş elektrik stansiyalarında istehsal olunacaq "yaşıl enerji"nin bütün bu bölgəni təmin edəcəyini vurğulayaraq deyib ki, Cəbrayıl və Zəngilan rayonlarında icra edilmiş və ediləcək günəş və su elektrik stansiyalarının gücü, təqribən, 400 meqavata çatacaq ki, bu da böyük bir şəhərin tələbatını ödəməyə imkan verəcək.

Cəbrayılda "Şəms" və "Üfüq" günəş elektrik stansiyalarının təməlqoyma mərasimi Azərbaycanın enerji siyasətinin gələcəyə yönəlmiş vizyonunun göstəricisidir. Dövlətimizin iqtisadi, ekoloji və sosial maraqlarını birləşdirən kompleks layihə olan bu stansiyaların tikintisi Şərqi Zəngəzurun "yaşıl enerji mərkəzi" kimi formalaşmasında əsas mərhələdir. Bu, həm milli, həm də qlobal miqyasda Azərbaycanın "yaşıl enerji lideri" kimi mövqeyini gücləndirəcək və ölkəmizin ixrac potensialını genişləndirəcək.

Göründüyü kimi, Qarabağ və Şərqi Zəngəzur bölgələrində bərpaolunan enerji sahəsində aparılan işlər, sadəcə, torpaqların fiziki bərpası ilə məhdudlaşmır. Bu addım həm də Azərbaycanın enerji gələcəyinin yenidən formalaşdırılması deməkdir. Burada günəşin, küləyin və dağ çaylarının enerji potensialı birləşərək regionu təkcə bərpaolunan ərazi deyil, həm "yaşıl enerji zonası"na çevirir. Yaxın perspektiv üçün hədəflənən 1,6 qiqavatlıq "yaşıl enerji" yalnız başlanğıcdır. Regionun zəngin bərpaolunan enerji potensialı isə gələcək üçün daha geniş ixrac imkanları, yeni iqtisadi dinamika deməkdir.

# Meyvə-tərəvəz ixracından 600 milyon dollar qazanc

**2025-ci ilin yanvar-sentyabr ayları ərzində Azərbaycandan 602 milyon 531 min ABŞ dolları dəyərində 574,3 min ton meyvə-tərəvəz ixrac edilib. Bu barədə məlumat Dövlət Gömrük Komitəsinin hesabatında yer alıb.**



Komitənin məlumatına əsasən, hesabat dövründə ölkədən ixrac edilən meyvə-tərəvəzin dəyəri əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 143,7 milyon dollar və ya 31,4 faiz, həcmi isə 135,2 min ton və ya 30,8 faiz artıb. Xatırladaq ki, ötən ilin 9 ayında ölkmizdən 458,8 milyon dollar dəyərində 439,2 min ton meyvə-tərəvəz ixrac edilib.

Bu ilin yanvar-sentyabr aylarında xarici bazarlara çıxarılan əsas meyvə-tərəvəz məhsulları 157,2 milyon dollar dəyərində 144 min ton pomidor, 100,4 milyon dollar dəyərində 13,5 min ton meşə fındığı, 50,2 milyon dollar dəyərində 71,4 min ton alma, 34,1 milyon dollar dəyərində 47,7 min ton xurma, 28,2 milyon dollar dəyərində 70,9 min ton kartof və 7,2 milyon dollar dəyərində 8 min ton nar olub.

Ümumilikdə isə cari ilin 9 ayında meyvə-tərəvəzin ümumi ixracda xüsusi çəkisi 3,24 faiz, qeyri-neft məhsullarının ixracında çəkisi isə 22,74 faiz təşkil edib.

*Səhifəni hazırladı:*
***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Zəfər ünvanlarında Böyük Qayıdış təntənələri

*Azad Qarabağ və Şərqi Zəngəzur yenidən cənnətə çevrilir*



**Prezident İlham Əliyevin oktyabrın 28-də Zəngilanın Ağalı və Məmmədbəyli kəndlərinin, eləcə də Cəbrayılın Horovlu kəndinin sakinləri ilə görüşləri işğalçıdan təmizlənmiş torpaqlarda həyatın yeni mərhələyə qədəm qoyduğunu nümayiş etdirdi. Dövlət başçısının bu yaşayış məntəqələrində sakinlərə mənzillərin açarlarını təqdim etməsi sosial layihənin icrası ilə bərabər, həm də "Böyük Qayıdış"ın strateji məntiqinin – azad torpaqlarda insanın, həyatın və milli kimliyin bərpasının rəmzi təcəssümü oldu. Azərbaycan liderinin "Bu gün "Böyük Qayıdış"ın növbəti mərhələsidir" sözləri həm konkret faktların, həm də milli yaddaşın bərpasının ifadəsi kimi diqqət çəkirdi.**

Zəngilanın Ağalı kəndindən başlanan bu proses artıq bütün Qarabağ və Şərqi Zəngəzurda sistemli, planlı dövlət siyasəti kimi həyata keçirilir. Dövlətin bu siyasəti ilə təkcə ev tikilmir, infrastruktur qurulmur, eyni zamanda, insanı öz doğma torpağı ilə qovuşur, milli kimliyi isə real həyatla yenidən birləşir.

Qeyd edək ki, ilk "ağıllı" kənd modeli olan Ağalı artıq Azərbaycan reallığının rəmzlərindən birinə çevrilib. Prezident İlham Əliyev bu yaşayış məntəqəsinə 3 il əvvəl köçən ailələrin həyatına nəzər salarkən məskunlaşmanı "dövlət nə lazımdırsa edib, vətəndaşlar isə bu torpağı gözəl bir bağa çeviriblər" kimi yüksək dəyərləndirib. Ümumiyyətlə, Vətən savaşından sonra "Böyük Qayıdış" fonunda səsləndirilən bu ifadə, eyni zamanda, dövlət-vətəndaş həmrəyliyinin fəlsəfəsinə çevrilib.

Yeri gəlmişkən, əgər işğal illərində Qarabağ viran qalmışdısa, bu gün burada həyatın, zəhmətin və ümidin izi görünür. Azərbaycan Prezidentinin sözləri ilə desək, "xalqımız ermənilərin viran qoyduğu şəhər və kəndləri indi yenidən qurub-yaradır". Ağalıda və Məmmədbəylidə yeni binalar, məktəblər, sosial obyektlər, müasir infrastruktur, ən əsası isə gələcəyə böyük inam var. Dövlətin yaratdığı şərait vətəndaşın zəhməti ilə birləşərək bərpa prosesini dirçəlişə çevirir.

Zəngilan rayonunun Məmmədbəyli kəndində 180 ailə üçün müasir tələblərə uyğun evlərin tikilməsi, həyətyanı sahələrin ayrılması, kəndin "yaşıl" mühitə çevrilməsi Prezidentin qeyd etdiyi kimi, "dövlətin və vətəndaşın birgə yaradıcılığının nəticəsidir". Bu kənddəki yeni evlər, abad küçələr, ictimai binalar təkcə sosial layihə deyil, həm də tarixi ədalətin təntənəsidir. Çünki bu torpaqlara qayıdan hər bir ailə həm azadlığın, həm də ədalətin canlı şahididir. Uzun illər köçkün həyatı yaşayan Qarabağ sakini indi Vətən torpağında firavan həyat qurur. Dövlət başçısının "siz buna layiqsiniz" sözləri isə bu səylərin mənəvi dəyərini daha da artırır.

Prezident İlham Əliyevin Cəbrayıl rayonunun Horovlu kəndində çıxışı isə "Böyük Qayıdış"ın həm tarixi, həm də strateji cəhətlərini birləşdirdi. Məhz bu yaşayış məntəqələrində Vətən müharibəsinin ilk qələbələri qazanılmışdı. Azərbaycan liderinin Horovlu kəndində xatırlatdığı "Horovlu kəndi Vətən müharibəsinin ilk həftəsində azad edilmişdir və bizim Zəfər yürüşümüz bu bölgələrdən başlamışdır" sözləri də məhz bir az əvvəl vurğulanan fikrin bariz ifadəsi idi.

Bu gün həmin torpaqlarda yenidənqurma, inkişaf və sabitlik hökm sürür. 334 evin inşa edilməsi, 1400 insanın məskunlaşması və ikinci mərhələdə daha çox ailənin yerləşdirilməsi dövlətin sosial siyasətinin miqyasını göstərir. Dövlət başçısının sözləri ilə desək, burada rahat, xoşbəxt həyat sürmək üçün bütün imkanlar var.

Cəbrayıl və Zəngilan rayonlarında həyata keçirilən enerji və sənaye layihələri isə "Böyük Qayıdış"ın iqtisadi əsasını təşkil edir. Prezident İlham Əliyevin açıqladığı kimi, artıq "Araz Vadisi İqtisadi Zonası" fəaliyyət göstərir, burada 3 müəssisə işləyir və yaxın illərdə bu sayın 20-yə çatacağı nəzərdə tutulur. Bütün bunlarla yanaşı, iki Günəş Elektrik Stansiyasının təməlinin qoyulub, üçüncünün, daha böyük stansiyanın icrası isə davam etdirilir. Beləliklə, 400 meqavat gücündə enerji istehsalı isə bu bölgənin öz ehtiyaclarını qarşılaması ilə bərabər, həm də Qarabağ və Şərqi Zəngəzuru ixrac potensialına malik enerji mərkəzinə çevirəcəyini şərtləndirir. Bununla Azərbaycan yalnız torpaqlarını deyil, iqtisadi gələcəyini də bərpa edir.

Prezident İlham Əliyevin Qarabağda genişmiqyaslı layihələrin gerçəkləşməsini nəzərdə tutaraq diqqətə çatdırdığı "bu, ədalətin təntənəsidir" fikri bu torpaqda aparılan bərpa və məskunlaşma prosesinin ideoloji mahiyyətini aydın ifadə edir. Belə ki, əgər 2020-ci ilin Zəfəri hərbi-siyasi ədaləti bərpa etmişdisə, bu gün aparılan quruculuq və məskunlaşma prosesi sosial və mənəvi ədaləti gerçəkləşdirir. Dövlət başçısının çıxışlarında tez-tez səslənən "bu torpaqların sahibləri bizik" ifadəsi isə artıq real həyatda təcəssümünü tapır. Doğma od-ocağına qayıdan hər bir ailə, salınan hər bir ağac, tikilən hər bir ev Azərbaycan dövlətçiliyinin möhkəmlənməsinin, xalqın Vətənə sarsılmaz bağlılığının sübutudur.

Azərbaycan liderinin rəhbərliyi ilə həyata keçirilən "Böyük Qayıdış" konsepsiyası həm sosial, həm iqtisadi, həm də humanitar xarakter daşıyır. Bu siyasətin mərkəzində insan, onun rifahı və həyat keyfiyyəti dayanır. Dövlətin məqsədi vətəndaşın doğma torpağında yüksək həyat standartlarına malik olmasıdır. Ağalı, Məmmədbəyli, Horovlu və digər azad edilmiş kəndlərdə yeni məktəblər, uşaq bağçaları, tibb məntəqələri, yollar, su və enerji infrastrukturu məhz bu məqsədlə qurulur. Eyni zamanda, kənd təsərrüfatı, sənaye və bərpaolunan enerji sahələrində yaradılan iş yerləri dayanıqlı inkişafın təminatıdır.

Prezident İlham Əliyevin oktyabrın 28-də Cəbrayıl rayonunun Horovlu kəndində sakinlərlə görüşü zamanı dediyi sözlər də bunun bariz ifadəsidir: "Böyük Qayıdış"ın əyani sübutu bu gün gözünüzün önündədir. Belə gözəl şərait yaratmaqla Azərbaycan dövləti bir daha öz siyasətini göstərir. İşğal dövründə ovaxtkı köçkünlərlə çoxsaylı görüşlərimdə mən demişdim ki, torpaqlar işğaldan azad olunandan sonra şəhərlərimiz, kəndlərimiz yenidən qurulacaq, əvvəlkindən daha gözəl olacaq. Bugünkü gün bu sözlərin əyani sübutudur".

Dövlətimizin başçısı keçmiş məcburi köçkünlərlə görüşündə onlara xitabən bildirdi ki, bu gün sizin həyatınızda yeni dövr başlayır. Siz uzun illər – 30 il ərzində ağır şəraitdə köçkün, qaçqın həyatını yaşamısınız, mənəvi əzablar çəkmisiniz. Xüsusilə işğalın ilk mərhələsində köçkünlərin mütləq əksəriyyəti çadır şəhərciklərində yerləşmişdir. Ona görə bugünkü reallıq, bugünkü gün, o cümlədən ədalətin təntənəsidir. Ədalətə inanmaq və onu təmin etmək lazımdır. Bax, bizim xalqımız həm ədalətə inanıb, həm də onu təmin edib. Bu torpaqların sahibləri bizik. Düşməni öz torpaqlarımızdan qovmuşuq və bu gün gözəl həyat qururuq.

Prezident İlham Əliyevin qeyd etdiyi kimi, artıq bütün Qarabağ və Şərqi Zəngəzur tikinti meydandır. Bu, yalnız fiziki bərpa deyil, həm də mənəvi dirçəlişdir. 50 mindən çox insanın artıq bu torpaqlarda yaşaması və çalışması dövlətin məqsədyönlü siyasətinin uğurlu nəticəsidir. Hər bir kəndin abadlaşması, hər bir ailənin öz evinə qayıtması, hər bir məktəbdə uşaqların səsinin eşidilməsi Azərbaycanın Zəfər tarixinin davamıdır. 8 Noyabr – Zəfər Günü yaxınlaşdıqca, bu prosesin mənəvi dəyəri daha da artır – çünki bu qayıdış əbədidir, bu dirçəliş dayanıqlıdır.



Prezident İlham Əliyevin oktyabrın 28-də azad edilmiş ərazilərdə keçirdiyi görüşlər bir daha göstərdi ki, "Böyük Qayıdış" sadəcə Dövlət Proqramı deyil, milli ideologiyanın təcəssümüdür. Bu ideologiyanın mərkəzində ərazi bütövlüyü, insanın doğma torpağa qayıdışı, ədalətin bərpası və sürətli inkişaf dayanır. Zəngilanın Ağalısı və Məmmədbəylisi, Cəbrayılın Horovlusu təkcə bir regionun deyil, bütöv Azərbaycanın yeni həyat fəlsəfəsinin simvoludur. Bu yaşayış məntəqələrində həyatın yenidən qurulması Azərbaycanın müstəqillik tarixində ən mühüm mərhələlərdən birini təşkil edir. Əgər 2020-ci il Zəfər ili idisə, bu gün artıq Dirçəliş dövrüdür. Bu dirçəlişin müəllifi isə Azərbaycan xalqının iradəsi, Prezident İlham Əliyevin liderliyi və dövlətin xalqına olan sədaqətidir.

***Vaqif BAYRAMOV***
***XQ***

# Vətən müharibəsinin xronikası



**2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin cəbhəboyu törətdiyi genişmiqyaslı təxribatlara cavab olaraq Azərbaycan Ordusu əks-hücum əməliyyatına başladı. Vətən müharibəsi 30 illik işğala son qoyan şanlı Qələbə ilə nəticələndi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılan möhtəşəm Zəfər Azərbaycan tarixinə qızıl hərflərlə yazıldı.**

## 30 oktyabr

• Prezident İlham Əliyev özünün rəsmi "Twitter" səhifəsində ordumuzun Cəbrayıl rayonunun Xudaverdili, Qurbantəpə, Şahvəlidli, Xubyarlı, Zəngilan rayonunun Aladin, Vejnəli, Qubadlı rayonunun Kavdadıq, Məmər, Mollalı kəndlərini işğaldan azad etdiyini bildirib.

• Müdafiə Nazirliyinin məlumatına əsasən, döyüş əməliyyatları əsasən cəbhənin Ağdərə, Xocavənd və Qubadlı istiqamətlərində davam edib. Düşmənin hücum etmək cəhdlərinin qarşısı qətiyyətlə alınıb. Döyüş texnikası və canlı qüvvə baxımından xeyli sayda itki verən işğalçı geri çəkilməyə məcbur edilib.

• Müdafiə Nazirliyi Cəbrayıl rayonunun işğaldan azad olunan Xudafərin kəndindən foto və videoreportaj yayıb.

• Bərdəni atəşə tutan Ermənistan silahlı qüvvələrinə məxsus bir "Smerç" yaylım atəşli reaktiv sistemi, Bərdə və Tərtər şəhərlərinə atəş açan düşmənin iki "Smerç" sistemi, bir ədəd "Osa" zenit-raket kompleksi bölmələrimiz tərəfindən məhv edilib.




• Azərbaycan Ordusunun bölmələri düşmənin qüvvə və döyüş vasitələrini, raket-artilleriya silahları anbarını dəqiq zərbələrlə məhv edib.

• Ermənistan silahlı qüvvələri tərəfindən törədilən cinayət faktları üzrə 52 cinayət işi başlanıb.

• İşğaldan azad edilmiş Cəbrayıl və Zəngilan rayonları ərazisindəki sərhəd zastavaları üzərində Azərbaycan Respublikasının dövlət bayrağı ucaldılıb və bu zastavalar xidməti-döyüş fəaliyyətinə başlayıb.

***Mustafa KAMAL***
***XQ***

# Şəhid atasının "yaşıl" təsəllisi

**Şirvan şəhərində ekoloji vəziyyətin yaxşılaşdırılması, yeni yaşıllıq zolaqlarının salınması məqsədilə mütəmadi işlər görülür. Şəhər icra hakimiyyətindən verilən məlumata görə, son 5 ildə ümumilikdə əkilən 31 min 764 ağaca, 59 min 179 gül kollarına daim qulluq göstərilir və yaşıllıq sahələri genişləndirilir.**

Şəhərdə əhalinin daim istirahət etdiyi məkanlardan biri olan Məhəmməd Füzuli adına Mədəniyyət və İstirahət Parkında şəhidlərin xatirəsinə ucaldılmış "Zəfər" abidəsinin ətrafında ağaclar əkilib. Parkın ərazisini gəzən vaxt bir lövhə diqqətimizi cəlb etdi: "Bu ağac şəhid atası Hümbətov Tərlan Sahib oğlu və nəvəsi Abbasova Azra Amil qızı tərəfindən əkilmişdir".

Öyrəndim ki, şəhid Hümbətov Emil Tərlan oğlu 30 oktyabr 1992-ci ildə Şirvan şəhərində anadan olub və şəhər 16 saylı tam orta məktəbdə oxuyub. Şirvan şəhər Peşə Liseyinin məzunu olub. Vətən müharibəsində Füzuli istiqamətində gedən döyüşlərdə iştirak edib.11 oktyabr 2020-ci ildə şəhid olub, Şirvan şəhər Şəhidlər xiyabanında dəfn edilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə "Vətən uğrunda", "İgidliyə görə", "Füzulinin azad olunmasına görə" və "Şücaətə görə" medalları ilə təltif olunub.



Şəhidin atası Tərlan kişi ilə xeyli söhbət etdik. O, igid oğlu ilə qürur duyduğunu dedi:

– Şəhid oğlumun xatirəsini yaşadan bu ağaca nəvəmlə birlikdə mütəmadi qulluq edirəm. Sevindirici haldır ki, qonşular da bu təşəbbüsü dəstəkləyir, yaşıllıqlara qulluq etməyi mənəvi borc hesab edirlər. "Heydər Əliyev İli", "Yaşıl dünya naminə həmrəylik ili", "Yaşıl marafon", Xocalı soyqırımı, 8 noyabr – Zəfər Günü, Dövlət Bayrağı Günü və digər tarixi günlərlə bağlı şəhərdə yaşıllaşdırma aksiyaları keçirildi, burada müxtəlif növ ağac və gül kolları əkildi.

Telman kişi asudə vaxtlarında 8 yaşlı nəvəsi Azra və digər uşaqlarla birlikdə parkda yaşıllıqlara qulluq edir və bunu şəhidə ehtiramın rəmzi olaraq mənəvi rahatlıq kimi dəyərləndirir. Şəhid atası qeyd etdi ki, yerli sakinlərin "Zəfər ağacları" adlandırdıqları bu parkda ona ağır döyüşlərdə iştirak etmiş müharibə veteranı Elvin Abbasov da kömək edir.

***Mikayıl NƏRİMANOĞLU,***
***XQ-nin bölgə müxbiri***

# Zəfər yürüşü xalqımıza tarixin ən böyük Qələbəsini qazandırdı

**Bu günlərdə xalqımız Qarabağın azadlığı uğrunda tarixi Zəfər yürüşünün 5-ci ildönümünü yüksək qədirbilənlik duyğuları ilə yad edir, 44 gündə qazanılmış qələbələrin sevincini bir daha öyünclə yaşayır. Bu qəhrəmanlıq yürüşünün zirvəsi olmuş, xalqımızın çoxəsrlik tarixinə qızıl hərflərlə yazılmış 8 Noyabr çağdaş tariximizə Zəfər Günü kimi daxil olub. Qeyrət və hünər qalası Şuşanın azad edilməsi ilə başa çatan, düşməni təslim olmağa məcbur edən həmin qələbə zirvəsi yaxınlaşdıqca, qürurumuz bir az da artır, ölkəmiz növbəti təntənə libasına bürünür.**



5 il əvvəl sentyabrın son günlərindən başlayan, noyabrın ilk ongünlüyündə zəfərlə başa çatan bu şanlı hərbi yürüşdə Müzəffər Ali Baş Komandan İlham Əliyevin sərkərdəlik qüdrəti ilə qəhrəman ordumuz 30 illik işğala son qoydu, ərazi bütövlüyümüz bərpa olundu. Vətən müharibəsində uzun illərdən bəri Ermənistanın işğalı altında olan tarixi torpaqlarımızın azad olunması, Azərbaycanın ərazi bütövlüyünün və tarixi ədalətin bərpa edilməsi xalqımıza çoxəsrlik dövlətçilik tarixinin ən böyük Qələbəsini qazandırdı.

Bu Zəfər həm də kiminsə fitvası ilə qonşusunun torpağına göz dikən, onun humanistliyindən, qonaqpərvərliyindən, etimadından və etibarından sui-istifadə edən xain və nankor ermənilərin sonda hansı faciələrlə üzləşəcəyini dünyaya aşkar surətdə göstərdi. Azərbaycan qalib ölkəyə, Azərbaycan xalqı qalib xalqa çevrildi.

Havadarlarının müstəsna himayəsi, açıq-gizli köməyi ilə ölkəmizin 20 faiz torpağını ələ keçirmiş, 1 milyon insanı Qərbi Azərbaycandakı və Qarabağdakı doğma torpaqlarından qaçqın-köçkünə çevirmiş Ermənistan sonrakı 30 ildə xalqımıza meydan oxuyur, cəbhə boyu hərbi təxribatları ilə işğalı uzadır, güc nümayiş etdirməklə təcavüzün nəticələrini rəsmiləşdirməyə çalışırdı. Nəticədə müxtəlif dövrlərdə həm hərbi qulluqçularımız, həm də mülki əhalimiz arasında insan itkiləri baş verir, çoxsaylı şəxslər sağlamlıqlarına ciddi zərər yetirilməsi ilə üzləşirdilər.

Ermənistan silahlı qüvvələrinin 2016-cı ilin aprel, 2020-ci ilin iyul aylarında ordumuza qarşı Ermənistan-Azərbaycan sərhədində törətdiyi təxribatların qarşısı qətiyyətlə alınmış, düşmən xeyli sayda itki verməyə məcbur olmuşdu. 2020-ci ilin avqust ayında Ermənistanın təxribat qrupunun təmas xəttini keçərək terror aktları törətmək kimi daha bir məkrli planı iflasa uğramışdı. Xalqımız isə işğalçı ölkənin baş nazirinin milli heysiyyətimizə toxunan çıxışları qarşısında "Qarabağ Azərbaycandır və nida işarəsi" deyən Prezidentinə, Ali Baş Komandanına inanır, ordusunun gücünə və rəşadətinə möhkəm güvənirdi.

Nəhayət, 2020-ci il sentyabrın 27-də Ermənistanın törətdiyi növbəti hərbi təxribatlara cavab olaraq Azərbaycan Ordusu dövlətimizin başçısı tərəfindən "Dəmir yumruq" adlanan əks-hücum əməliyyatına – Vətən müharibəsinə başladı. Düşmənin onilliklər boyu qurub möhkəmləndirdiyi müdafiə xətti elə müharibənin ilk günündə yarıldı. Füzuli və Cəbrayıl rayonlarının altı kəndi, Ağdərə və Murovdağ istiqamətlərində yüksəkliklər işğaldan azad olundu.

Döyüş əməliyyatlarının aparıldığı bütün müddət ərzində cəmiyyətimizin nümayiş etdirdiyi möhtəşəm səfərbərlik və vətənpərvərlik ruhu xalqımızın Ali Baş Komandanın ətrafında sıx birləşməsinin bariz ifadəsi olmaqla yanaşı, eyni zamanda, Azərbaycanın bütün dünyaya ciddi mesajı kimi qəbul edildi. Dövlət başçısının çağırışına səs verən on minlərlə vətənpərvər gəncin Vətən torpaqları uğrunda döyüşmək üçün könüllü cəbhəyə yollanması, müharibədə əsgər və zabitlərimizin göstərdiyi şücaətlər xalqımızın qəhrəmanlıq salnaməsi kimi tarixə düşdü.

Həmin günlərdə ordumuzun Ermənistanın işğalçı qüvvələrinə qarşı apardığı müharibə milli şüurun, xalq və ordu birliyinin təcəssümünə çevrildi. Ordumuz öz qəhrəmanlıq və şücaəti ilə bütün dünyaya nümayiş etdirdi ki, Azərbaycan xalqı qarşısına qoyduğu hər bir vəzifəni yerinə yetirmək qüdrətindədir.

Azərbaycanın uzun illərdir Ermənistanın işğalı altında qalan ərazilərini azad etməsi əməliyyatına hər cür maneçilik törədilməsini qarşısına məqsəd qoymuş bir sıra xarici dairələrin müharibə dövründə hadisələri manipulyasiya cəhdləri də boşa çıxdı. Döyüş meydanında gedən gərgin savaş fonunda informasiya mübarizəsi çərçivəsində də düşmən tərəfindən ölkəmizə qarşı çirkin təxribat kampaniyası aparılır, Ermənistan–Azərbaycan münaqişəsinin alovlanması, Vətən müharibəsinin gedişatı barədə uydurma və yalan informasiyaların beynəlxalq cəmiyyətə çatdırılmasına çalışılırdı.

Lakin düşmən döyüş meydanında olduğu kimi, informasiya mübarizəsində də uğursuzluğa düçar oldu. Dövlət başçısı cənab İlham Əliyev qalib sərkərdə olmaqla yanaşı, düşmənə informasiya müharibəsində də aman vermədi. Müharibənin getdiyi dövrdə ölkə Prezidenti 30-a yaxın xarici kütləvi informasiya vasitələrinə müsahibələrində Ermənistan-Azərbaycan münaqişəsinin tarixi və Azərbaycanın apardığı Vətən müharibəsinin gedişi barədə həqiqətləri dünyaya bəyan edərək ona ünvanlanan bəzi təxribat xarakterli suallara yüksək diplomatik məharətlə cavab verirdi.

Vətən müharibəsində qazanılan şanlı Qələbə həm də xalqımızın birliyinin, yenilməz gücünün nümayişi oldu. Müharibə başlayan andan etibarən vəzifəsindən və yaşından asılı olmayaraq, hər bir vətəndaş Vətən uğrunda könüllüyə çevrildi. Ali Baş Komandanın "dəmir yumruğ"una dönərək düşmənin başını əzdi.

Döyüşlərdə övladı şəhid olan ana-atalar belini bükmədi, başını dik tutub "Vətən sağ olsun!" dedilər. Azərbaycan xalqı Vətən müharibəsinin 44 gününün hər birini sevinc, qürur və fəxarət hissi ilə Ali Baş Komandanın qələbə müjdəli xəbərlərini səbirsizliklə, böyük həyəcanla gözlədi. Həmin günlərdə yenilməz sərkərdə İlham Əliyev xalqımıza 11 zəfər müjdəli müraciət etdi və çoxsaylı qələbə xəbərləri çatdırdı.

Prezidentin hər müraciətinin sonunda paytaxt Bakı da daxil olmaqla, ölkəmizin bütün bölgələrində əhali küçələrə çıxaraq şanlı qələbənin qürurunu bölüşdü. Meydanlara axışaraq, əllərində Azərbaycan bayraqları bu qələbələri bayram etdilər. Onu da vurğulayaq ki, heç kəs torpaqlarımız işğaldan azad olunmayana qədər müharibənin dayanmasını istəmirdi. Bircə gün cəbhədən qələbə xəbəri gəlməyəndə "görəsən nə olub, müharibə dayanmayıb ki?!" deyə insanlar narahatlıq keçirirdilər.

Dövlət başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin daxili-xarici siyasəti, dərindən düşünülmüş hərbi strategiyası, döyüş əməliyyatlarının məharətlə həyata keçirilməsi, vəziyyəti nəzarətdə saxlamağa imkan verən döyüş taktikası erməni faşizmini iflasa uğratdı. Azərbaycan xalqının əzmi və iradəsi, iqtisadi gücü, müasir ordu quruculuğu və xalq-iqtidar birliyi ölkəmizin Qələbəsini təmin edən ən mühüm amil oldu.

Prezident İlham Əliyevin 2020-ci il 3 dekabr tarixli sərəncamı ilə xalqımızın qüdrətinin və milli qürurumuzun təntənəsinə çevrilən, dövlətimizin nüfuzu və gələcək inkişafı baxımından müstəsna əhəmiyyət kəsb edən bu misilsiz Qələbənin əbədiləşdirilməsi məqsədilə noyabrın 8-i ölkəmizdə Zəfər Günü elan edildi. Bu təqvim Azərbaycan tarixinin ən qürurlu, fəxarətli günüdür. Eyni zamanda, bu gün həm də hər bir azərbaycanlı üçün əziz və doğma olan Şuşa şəhərinin azad edildiyi gündür.

Şanlı Ordumuzun əldə etdiyi tarixi Zəfər bəzi düşmən mövqedə dayanan şəxslərin qələmə vermək istədiyi kimi, təsadüfi xarakter daşımırdı. Bu, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən inkişaf doktrinasının, o cümlədən hərbi quruculuq siyasətinin məntiqi nəticəsi kimi qiymətləndirilməlidir.

"Müasir dünyada hüququn gücü deyil, gücün hüququ işləyir və güclüsənsə, haqlısan məntiqi hökm sürür", – deyən Prezident İlham Əliyev böyük uzaqgörənlik nümayiş etdirərək ordu quruculuğu məsələlərini prioritet sahə kimi müəyyənləşdirmiş və bu istiqamətdə möhtəşəm addımların atılmasını təmin etmişdir. Ölkəmizin büdcə zərfində müdafiə xərcləri hər zaman üstün mövqeyə malik olmuş, 2019-cu ilin göstəricilərinə əsasən, dünyanın ən güclü orduları sırasında Azərbaycan 52-ci, Ermənistan isə 96-cı mövqedə olmuşdur.

Həmin ərəfədə ölkəmizdə qısa zaman ərzində 20-dən artıq hərbi zavodun işə salınması və müasir hərbi-sənaye kompleksinin formalaşması tarixi nailiyyət hesab olunmalıdır. Beşinci nəsil silahların dünyanın aparıcı silah ixracatçılarından alınması və bu sahədə də uğurlu şaxələndirmə siyasətinin tətbiq edilməsi ölkəmizə təkcə hərbi deyil, həm də siyasi dividendlər gətirmişdir.

Ordumuzda döyüş ruhu və hərbi-vətənpərvərlik hissinin ən yüksək səviyyəsi təmin edilmişdi. O fərqi də qeyd etməliyik ki, bircə fərarisi belə olmayan ordumuz Vətən qarşısında xilaskarlıq missiyasını həyata keçirirdi, buna görə də sonsuz motivasiyaya malik idi, düşmən ordusu isə öz işğalçı xisləti səbəbindən bu hisslərdən məhrum idi, bu da qələbənin əldə edilməsində az əhəmiyyət daşımırdı. Müharibə zamanı həm müzəffər Ordumuz, həm də düşmən qüvvələri döyüş bölgəsinə yaxın ərazilərdə xüsusi mühafizə zolaqları yaratmışdı.

Lakin bu zolaqların məqsədi tam fərqli idi: Azərbaycan tərəfinin qurduğu postlar döyüş bölgəsinə daxil olaraq əsgərlərimizə könüllü şəkildə qoşulmaq istəyən mülki şəxslərin qarşısını almağa xidmət edirdi. Düşmən tərəfdə isə həmin postlar, əksinə, döyüşdən qaçmağa çalışan hərbçiləri saxlayaraq onları məcburi şəkildə geri qaytarmaq üçün qurulmuşdu.

Ali Baş Komandanımızın böyük sərkərdəlik məharəti, güclü iradəsi və qətiyyəti, müzəffər və yenilməz ordumuzun şücaəti, xalqın Prezidentinə olan birmənalı dəstəyi və onun ətrafında monolit birliyi sayəsində işğal altındakı bütün ərazilərimizi öz əzəli və əbədi sahibinə - Azərbaycan xalqına qaytardı. Vətən müharibəsinin ilk günündən başlayaraq daim irəli gedən Ordumuz düşmənə sarsıdıcı zərbələr endirir, yaşayış məntəqələrimizi bir-birinin ardınca azad edirdi.

Oktyabrın 3-də strateji əhəmiyyətə malik Suqovuşan və Talış kəndləri, bir gün sonra Cəbrayıl şəhəri və rayonun 9 kəndi düşmən tapdağından xilas olundu. Oktyabrın 9-dan 26-dək Xocavənd rayonunun Hadrut qəsəbəsi, Füzuli şəhəri, Xudafərin körpüsü, Zəngilan və Qubadlı şəhərləri düşməndən azad edildi. Ümumiyyətlə, rəşadətli Azərbaycan Ordusu 44 gün ərzində 5 şəhəri, 4 qəsəbə və 286 kəndi işğaldan azad etdi. Qəhrəman ordumuz Ali Baş Komandanın rəhbərliyi ilə hərb sahəsində yeni döyüş strategiyasının əsasını qoydu.

Silahlı Qüvvələrimiz sahib olduğu yeni nəsil silahları döyüş meydanında məharətlə tətbiq edərək XXI əsrin işğal altında olan torpaqların azad edilməsi uğrunda aparılan müharibə formasını bütün dünyaya nümayiş etdirdi. Azərbaycan Ordusu Vətən müharibəsində qazandığı qələbəsi ilə dünyanın ən güclü, müasir, hazırlıqlı, yüksək döyüş qabiliyyətinə malik orduları sırasında layiqli yer tutduğunu əyani şəkildə sübuta yetirdi. Əbəs yerə deyil ki, hazırda dünyanın aparıcı hərbi mütəxəssisləri tərəfindən Vətən müharibəsinin aparılmasının forma və qaydaları dərindən öyrənilməkdədir.

Heç şübhəsiz ki, Qarabağ Zəfərinin zirvəsində Şuşa əməliyyatı dayanır. Ulu öndər Heydər Əliyevin vəsiyyətini layiqincə yerinə yetirən Ali Baş Komandanımızın Şuşanın azad olunması xəbərini müqəddəs məkanımız olan Şəhidlər xiyabanında xalqa müraciətində bütün dünyaya bəyan etdiyi zaman dediyi sözlər illərin həsrətinin bitdiyi an, Zəfər tariximizə vurulan möhür oldu. Prezident İlham Əliyev xalqa müraciətində demişdir: "Mən bu gün, eyni zamanda, Ulu öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, Ulu öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun, Azərbaycan! Gözünüz aydın olsun, dünya azərbaycanlıları!".

Azərbaycan Ordusu Şuşaya doğru dayanmadan, çox böyük inamla irəlilədi və demək olar ki, mümkünsüz işin öhdəsindən gəldi. Qəhrəman döyüşçülər çox mürəkkəb relyefli şəraitdə uzun məsafə qət edərək çətin döyüş tapşırığını uğurla yerinə yetirdi. Əsgər və zabitlərin döyüş üsulu, qədim tarixi şəhəri dağıtmadan, ona xələl gətirmədən azad etməsi hərb tarixində tamamilə yeni idi. Xalqımızın qəhrəman oğullarının nümayiş etdirdiyi misli görünməmiş cəsarət və igidlik nümunəsi nəticəsində bir vaxtlar nağıl, xəyal kimi görünənlər gerçəyə çevrildi.

Azərbaycan Prezidentinin döyüş meydanı ilə yanaşı, siyasi müstəvidə yenilməz və qətiyyətli iradəsi, sərkərdəlik qabiliyyəti sayəsində Ermənistan diz çökdürülərək kapitulyasiya aktını imzalamağa məcbur edildi. Bununla da Ağdam, Kəlbəcər və Laçın rayonlarının qan tökülmədən Azərbaycana qaytarılmasına nail olundu.

Bununla belə, İkinci Qarabağ müharibəsində qazandığımız tarixi Zəfərdən sonra Azərbaycan dəfələrlə Ermənistana davamlı sülh üçün çağırışlar etsə də, işğalçı dövlət hər dəfə danışıqlardan boyun qaçırır, bununla da kifayətlənməyərək suveren ərazilərimizdə silahlı təxribatlarını davam etdirirdi. 2021-ci ildə Azərbaycan və Ermənistanda sərhəd delimitasiyası üzrə işçi qruplar yaradıldı. Danışıqlar böhran və bölgədə ara-sıra baş verən silahlı toqquşmalarla müşahidə olundu. 2021-ci ilin noyabr ayında sərhəddə birinci silahlı toqquşmalar baş verdi.

Müharibədən sonra ən qanlı toqquşma 2022-ci ilin sentyabr ayında sərhəddə baş verdi. 2022-ci il avqust ayının 26-da Laçın şəhərinin, Zabux və Sus kəndlərinin Azərbaycan Ordusunun nəzarətinə keçməsi dövlətimizin başçısının düşmən üzərində növbəti diplomatik qələbəsi və yürütdüyü uğurlu siyasi kursun təntənəsi oldu. 2023-cü ilin mart ayında Azərbaycanın Qarabağ bölgəsində yerləşən Ermənistan silahlı qüvvələrinin birləşmələri, qeyri-qanuni erməni silahlı dəstələri Şuşa istiqamətində təxribatlar törətdi, aprel və may ayında isə şərti dövlət sərhədi istiqamətində Azərbaycan Ordusunun mövqeləri atəşə tutuldu. Reallıq budur ki, 2020-ci il 10 noyabr tarixli Üçtərəfli Bəyanata zidd olaraq Ermənistan üç il ərzində öz silahlı qüvvələrini, canlı qüvvəsini və texnikasını bizim ərazimizdən çıxarmadı.

2023-cü il sentyabrın 19-da Ermənistan silahlı birləşmələrinin Qarabağda törətdikləri terror aktı Azərbaycana qarşı aparılan məqsədyönlü və planlı terror siyasətinin davamı idi. Ermənistan ordusunun Azərbaycanın Qarabağ bölgəsindəki birləşmələrinin kəşfiyyat-diversiya qrupları tərəfindən Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunda terror məqsədilə əvvəlcədən quraşdırılmış minanın partlaması nəticəsində Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə məxsus nəqliyyat vasitəsi sıradan çıxdı və mülki şəxslər həlak oldu.

Həmin gün Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının hərbi qulluqçularını daşıyan nəqliyyat vasitəsinin də Ermənistan silahlı qüvvələrinin kəşfiyyat-diversiya qrupları tərəfindən quraşdırılmış minaya düşməsi nəticəsində hərbi qulluqçularımız həlak oldu və yaralandı. Bütün bu təxribatların qarşısının alınması, Üçtərəfli Bəyanatın müddəalarının icrasının təmin olunması, Azərbaycan Respublikasının Konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə bölgədə lokal xarakterli antiterror tədbirlərinə başlanıldı.

2023-cü ilin 19-20 sentyabr tarixlərində Azərbaycan Ordusunun həyata keçirdiyi bir günlük antiterror tədbirləri nəticəsində suverenliyimiz tam bərpa olundu. Qısamüddətli lokal xarakterli antiterror əməliyyatları nəticəsində düşmənin silah və texnikalarının böyük hissəsi sıradan çıxarıldı. O zaman Azərbaycan ərazisində qanunsuz olaraq Ermənistan ordusuna məxsus yüzdən çox tank və zirehli nəqliyyat vasitələri və texnika, iki yüzdən çox top və artilleriya qurğuları, hava hücumuna qarşı qurğular yerləşdirilmişdi.

Cəmi 23 saat 43 dəqiqə ərzində erməni separatçıları ağ bayraq qaldırmağa məcbur oldular. Qarabağın erməni sakinlərinin nümayəndələrinin Rusiya sülhməramlı kontingenti vasitəsilə müraciətini nəzərə alaraq, tam atəşkəs haqqında razılaşma əldə olundu və lokal xarakterli antiterror tədbirləri dayandırıldı. Düşmən 2020-ci ildə olduğu kimi, yenə ağ bayraq qaldıraraq təslim olmağa məcbur edildi. Bununla da Qarabağda terrorçuların və separatçı rejimin mövcudluğuna son qoyuldu, Qarabağ münaqişəsi mövzusu birdəfəlik bağlandı.

2023-cü il oktyabrın 15-də Müzəffər Ali Baş Komandan İlham Əliyev Prezident seçilməsinin iyirminci ildönümü günündə Xankəndidə, Xocalıda, Xocavənddə, Ağdərədə, Əsgəranda Dövlət Bayrağımızı ucaldaraq daha bir şanlı tarix yazdı, xalqımıza yenidən böyük sevinc və qürur yaşatdı.

Müzəffər Ali Baş Komandanın Xankəndidə qürurla dediyi bu sözlər bütün dünyada əks-səda verdi: "Xatırlayıram, o vaxt bəziləri sual verirdi: Nə üçün biz o vaxt – noyabrın 10-da müharibəni dayandırmağa razılıq verdik. Bu gün bax, burada durarkən bir daha bildirmək istəyirəm ki, biz hər şeyi vaxtında etməliyik və etmişik. Azərbaycan xalqının böyük əksəriyyəti o vaxt da – noyabrın 10-da və ondan sonrakı dövrdə çox yaxşı başa düşürdü ki, biz istədiyimizə nail olacağıq. İstədiyimiz isə bax, burada dalğalanan Azərbaycan Bayrağıdır... Bu gün burada qaldırdığım Bayraq burada əbədi dalğalanacaq və biz burada əbədi yaşayacağıq. Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!".

Azərbaycan xalqına qarşı müharibə cinayətləri, terror aktları törətmiş şəxslərin, soyqırımı qatillərinin, separatçı rejimin başçılarının yaxalanaraq qandallanması, ədalət məhkəməsi qarşına çıxarılması hər bir soydaşımızın ürəyindən xəbər verir.

2020-ci ildə Vətən müharibəsində qazanılan Zəfərdən dərhal sonra Prezident cənab İlham Əliyevin tapşırığı ilə işğaldan azad edilmiş ərazilərdə genişmiqyaslı yenidənqurma proqramına start verildi. Böyük Qayıdışı təmin etmək məqsədilə həmin bölgələrdə sürətlə tikinti və bərpa-quruculuq işlərinə başlanıldı. 30 il ərzində işğal altında olan Azərbaycan torpaqlarında vandallar tərəfindən yaşayış məntəqələri, sosial-iqtisadi infrastruktur obyektləri məhv edilib, təbii sərvətlər talan olunub, tarixi-mədəniyyət və dini abidələrə, ətraf mühitə ciddi ziyan vurulub.

Ölkəmiz Böyük Qayıdışı qısa müddətdə və uğurla təmin etmək üçün azad olunmuş ərazilərdə bərpa işlərinin aparılmasını və zəruri infrastrukturun yaradılmasını öz gündəliyinin əsas məsələlərindən biri kimi müəyyənləşdirib. Prezident İlham Əliyevin sərəncamı ilə "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın icrasını təmin etmək üçün "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın təsdiq edilməsi də sözügedən hədəflərə nail olmaq üçün bu istiqamətdə atılan əhəmiyyətli addımdır. Ərazilərin bərpası proqramı çərçivəsində zəruri infrastrukturun yaradılmasının prioritetliyi təmin edilir ki, bu da təbiidir.

Həyata keçirilən bərpa-quruculuq işlərinin mühüm bir istiqamətini işğaldan azad edilmiş ərazilərdə müasir elektrik enerjisi şəbəkəsinin qurulması təşkil edir. Bəhs olunan ərazilər "yaşıl enerji" zonası elan edilib. Bərpaolunan enerji mənbələri ilə zəngin olan bu ərazilərdə müasir enerji infrastrukturun yaradılması istiqamətində mühüm işlər görüləcəkdir.

İkinci Qarabağ müharibəsinin başa çatmasından az vaxt ötməsinə baxmayaraq, işğaldan azad olunmuş ərazilərdə genişmiqyaslı bərpa və infrastruktur quruculuğu işlərinə başlanılması Azərbaycan dövlətinin gücünü göstərir. Artıq işğaldan azad olunmuş ərazilərimizə həyat yenidən qayıdır. Azad edilmiş torpaqlarımızda genişmiqyaslı bərpa və yenidənqurma işləri həyata keçirilir. Prezident İlham Əliyevin birbaşa rəhbərliyi və nəzarəti ilə icra olunan bu proses çərçivəsində Böyük Qayıdış Proqramı uğurla reallaşdırılır.

Görülən bütün işlər Azərbaycan xalqının həyat səviyyəsini daha da yaxşılaşdırmaq, sabahını daha firavan etmək məqsədi daşıyır. İşğaldan azad olunmuş ərazilərdə infrastruktur obyektləri ilə paralel olaraq, yaşayış kompleksləri, məktəb binaları tikilib istifadəyə verilir, yenilərinin təməli qoyulur. Hər daşında tarix, hər küçəsində qəhrəmanlıq izi olan bu torpaqlara həyat yenidən qayıdır, bu dəfə qalıcı, əbədi və möhkəm təməllər üzərində.

Qüdrətli Azərbaycan dövləti erməni vandalları tərəfindən dağıdılaraq yerlə-yeksan edilən şəhər və kəndlərimizdən didərgin düşən keçmiş məcburi köçkünlərin öz doğma yurd-yuvalarına qayıtmalarını tezliklə təmin etmək niyyətindədir. Qarabağın ölkənin sosial-mədəni və iqtisadi məkanına reinteqrasiyası düşünülmüş sistemli layihələrin həyata keçirilməsi vasitəsilə baş verir və burada intellekt, təhsil, mədəniyyət və mənəvi-əxlaqi dəyərlər aparıcı rol oynayır.

Fəxr edirik ki, bu gün Azərbaycanın üçrəngli Dövlət bayrağı ölkəmizin bütün şəhər və kəndlərində qürurla dalğalanır. Uzaqgörən və qətiyyətli Prezidentimizin rəhbərliyi ilə möhtəşəm nailiyyətlərə imza atan xalqımız 44 günlük Vətən müharibəsində qazandığı tarixi Zəfərlə Ulu öndər Heydər Əliyevin bu müdrik kəlamı tarixi gerçəyi bütün dünyaya bir daha nümayiş etdirir: "Azərbaycanın müstəqilliyi sarsılmazdır, əbədidir və dönməzdir!".

***Elvin ƏZİZBƏYOV,***
***Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının prorektoru***

# Qaxın "Axar-Baxar"ı milli parka çevrildi









**Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva və Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyevanın iştirakı ilə Qax rayonunda Axar-Baxar Milli Parkının açılış mərasimi keçirilib.**





Tədbir çərçivəsində ağacəkmə aksiyası təşkil olunub. Ərazidə iqlim və torpaq şəraitinə uyğun hesab olunan Eldar şamı, qara şam, adi şam, zeytun, daş palıdı, Arizona sərvi və piramidal sərv ağacları əkilib. Leyla Əliyeva və Arzu Əliyeva, həmçinin Milli Parkın ərazisi və təbiəti ilə yaxından tanış olublar.

Eyni zamanda, ekosistemdə balansın bərpası və biomüxtəlifliyin qorunmasına dəstək məqsədilə Acınohur çölü ərazisində 10 ceyran, 2 çöl pişiyi (qamışlıq və meşə pişiyi) və 4 vəhşi quş, o cümlədən 2 bərqud, 1 bozqır qartalı və 1 ağbaş kərkəs təbii mühitə buraxılıb.

Açılış mərasimi çərçivəsində Leyla Əliyeva və Arzu Əliyeva Əyriçaya 20 min balığın buraxılması tədbirində də iştirak ediblər. Buraxılan balıqların 5 mini forel, 15 mini isə sazan növünə aiddir.

Qeyd edək ki, Axar-Baxar Milli Parkı Prezident İlham Əliyevin 2025-ci il 14 iyul tarixli Sərəncamı ilə yaradılıb. Yeni Milli Park xüsusi mühafizə olunan təbiət əraziləri şəbəkəsinin genişləndirilməsini, biomüxtəlifliyin qorunub saxlanılmasını, ətraf mühitin dayanıqlı idarə olunması ilə yanaşı, sosial-iqtisadi imkanların artırılmasını, yerli icmaların ekoloji təşəbbüslərə inteqrasiyasını və regionlarda ekoturizmin inkişafını təmin etmək məqsədilə yaradılıb.

**XQ**

*Tofiq Nəcəfli – 65*

# Tariximizi öyrənən alim, öyrədən müəllim

**Azərbaycanın elmi-mədəni ictimaiyyəti, milli tarixçilər ailəsi AMEA Tarix və Etnologiya İnstitutunun elmi işlər üzrə direktor müavini, tarix üzrə elmlər doktoru, BDU-nun dosenti Tofiq Nəcəflinin 65 illik yubileyini alimin həyat və yaradıcılığına həssas münasibəti, elmi-pedaqoji fəaliyyətinə yüksək qiymət əlaməti ilə qeyd edir.**



Tanınmış milli tarixçimiz, Azərbaycan tarixinin ümumtürk arealında araşdırıcısı Tofiq Hümbət oğlu Nəcəfli 1960-cı ildə Füzuli rayonunun Aşağı Seyidəhmədli kəndində anadan olub. 1987-ci ildə Bakı Dövlət Universitetinin tarix fakültəsini fərqlənmə diplomu ilə bitirən gənc mütəxəssis 1994-cü ildə AMEA Tarix İnstitutunun aspiranturasında "Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin tarixi müasir türk tarixşünaslığında" mövzusunda namizədlik, 2017-ci ildə "Azərbaycan Səfəvi dövlətinin xarici siyasəti müasir Türkiyə tarixşünaslığında" adlı doktorluq dissertasiyaları müdafiə edib.

Tarixçi–alim ötən illərdə Tarix İnstitutunun "Azərbaycanın orta əsrlər tarixi" şöbəsində pillə-pillə yüksəlib, 2010-cu ildən isə bu elm ocağında elmi işlər üzrə direktor müavinidir. Uzun illər onunla birgə çalışmış, elmi prinsipinə, insanlıq keyfiyyətlərinə yüksək qiymət verən həmkarları əlamətdar yubileylə bağlı duyğu-düşüncələrini redaksiyamıza ünvanlayıblar.

**Tarix elmləri doktoru, dosent Xeyirbəy Qasımov:**

– Tofiq Nəcəflinin Tarix və Etnologiya İnstitutundakı 35 illik fəaliyyəti sübut edir ki, o həm özünə, həm də həmkarlarına çox diqqətlə yanaşan, işgüzar, zəhmətkeş bir alimdir, özündə olan müsbət keyfiyyətləri hamıda görməyi arzulayan şəxsdir. O, 1990-cı ildə "Azərbaycanın orta əsrlər tarixi" şöbəsinə aspirant kimi gələndə orada Oqtay Əfəndiyev, Şahin Fərzəliyev, Mikayıl Heydərov, Sara Aşurbəyli, Elmira Mirzəyeva, Seyidağa Onullahi, Vaqif Piriyev, Nərgiz Əliyeva, Şükufə Məmmədova, Fəridə Məmmədova kimi tarixçilər çalışırdılar.

Çoxcildlik "Azərbaycan tarixi"nin nəşrə hazırlanması işi məhz həmin məqamda başlamışdı. Bu prosesdə tərcümə, redaktə işinə xeyli ehtiyac var idi və bu işdə Tofiq Nəcəfli ilə birgə çalışmağımızı məmnunluqla xatırlayıram. 65 yaşlı həmkarıma hər şeydən öncə sağlam ömür, yeni elmi uğurlar arzu edirəm.

**Tarix elmləri doktoru, dosent Ramil Ağayev:**

– Mən 1995-ci ildə AMEA-nın Tarix İnstitutunun aspiranturasını bitirdikdən sonra "Azərbaycanın Orta əsrlər tarixi" şöbbəsində kiçik elmi işçi kimi fəaliyyətə başlayandan Tofiq müəllimin mənə və digər əməkdaşlara qarşı həmişə xeyirxah münasibət inin şahidi olmuşam. Dissertasiya və məqalələrin müzakirəsində verdiyi məsləhətlər mənə ciddi dəstək olub. Sonra Tofiq müəllim şöbəmizin müdiri oldu.

Tofiq müəllim Azərbaycanın orta əsrlər tarixi üzrə aparıcı mütəxəssislərindən biridir. Onun Qaraqoyunlular, Ağqoyunlular və Səfəvilərlə bağlı yazdığı monoqrafiya və məqalələrin elmi dəyəri böyükdür. Tofiq Nəcəfli Azərbaycan tarixinin Türkiyə tarixşünaslığı sahəsində başlıca mütəxəssisdir.

**Tarix üzrə fəlsəfə doktoru, dosent Fərəh Hüseyn:**

– Tarix İnstitutunun "Azərbaycanın orta əsrlər tarixi" şöbəsinə təyinatımı aldıqda həmin şöbənin əməkdaşı olan Tofiq Nəcəfli artıq namizədlik dissertasiyasını uğurla müdafiə etmiş gənc və çox perspektivli tədqiqatçı kimi özünü təsdiqləmişdi. Ötən illərdə paralel olaraq, bir sıra digər elm və təhsil ocaqları, ictimai birliklər ilə səmərəli əməkdaşlıq etməsinə baxmayaraq, Tofiq müəllimin sıx bağlandığı və demək olar ki, həyatının böyük hissəsini həsr etdiyi ocaq institutumuzun Orta əsrlər tarixi şöbəsi olub. Belə bir elmi mühitdə savadı və zəhməti sayəsində pillə-pillə yüksəlmiş və hazırda doğma şöbənin müdiri vəzifəsində çalışan Tofiq müəllim direktor müavini kimi də fəaliyyətini çox uğurla icra edir. Bir tədqiqatçı–alim kimi də Tofiq müəllimin Azərbaycan tarixşünaslığına verdiyi töhfələr çox dəyərlidir.

**Tarix üzrə fəlsəfə doktoru, dosent Sahibə Budaqova:**

– Son illərdə "Tarixi cografiya" elmi qrupunun rəhbəri kimi Tofiq müəllimin başçılıq etdiyi şöbənin nəzdində fəaliyyət göstərirəm. Bu illər ərzində Tofiq müəllimin tarixi hadisələrə elmi baxışı, münasibəti, məsuliyyəti və şöbəyə rəhbərlik bacarığı həm kollektivimizə, həm də gənc nəslə gözəl nümunə olub. O, elmi konfranslarda, tədbirlərdə tariximizin ən keşməkeşli dövrü – Orta əsrlərə aid olan elmi cəhətdən son dərəcə zəngin və dolğun yazılmış məqalələri, çıxışları ilə diqqəti cəlb edir və həqiqi alim kimi tarixi həqiqətləri xalqımıza cəsarətlə çatdırır.

Naxçıvan Dövlət Universitetinin dəvəti ilə bərabər iştirak etdiyimiz beynəlxalq konfransda da Tofiq müəllimin qayğıkeş yol yoldaşlığının şahidi oldum. Tofiq müəllim, bu 65 illik yubileyiniz ömrünüzün ən parlaq, ən dəyərli anlarından biri olsun!

**Tarix üzrə fəlsəfə doktoru, dosent Mübariz Ağayarlı:**

– Tofiq Nəcəfli Azərbaycan tarix elminin bütöv bir dövrünü simvolizə edən alimlərdəndir. O, keçmişə baxışda milli şüurun, dövlətçilik düşüncəsinin harmoniyasını yaradan bir tədqiqatçıdır. Tofiq müəllim kimi alimlər Azərbaycan tarixinin təməl yaddaşını qoruyan insanlardır. O, elmi yaradıcılıq və həyat yolunda zəngin irs, vətənpərvər alim örnəyi ilə tanınır. Tofiq müəllimə elmi yaradıcılıq fəaliyyətində davamlı uğurlar və yeni elmi nailiyyətlər arzulayıram.

Dəyərli tarixçi, gözəl insan, çevrəsindəki insanların qəlbində xoş təəssürat qoyan Tofiq Nəcəflinin həmkarlarının ürək sözləri onun canlı və dolğun portretini yaradır. Belə alimlər bizə çoxminillik tariximizi tanıdıb sevdirməklə sabahımıza gedən yolumuzu da zəkaları ilə nurlandırırlar.

***Hazırladı:***
***Tahir AYDINOĞLU***
***XQ***

# Beyin qocalmaya bilərmi?

## *Uzunömürlülüyün naməlum sirləri*



**Şəxsi itki bəzən həyatda dəyişiklik üçün güclü stimul ola bilər. Uzunömürlülük sahəsində startapın yaradıcısı Duqal Beyn-Kim atasını Altsheymer xəstəliyindən itirdikdən sonra sağlamlığa yanaşmasını tamamilə dəyişib. Onun məqsədi atasının keçdiyi yoldan uzaq durmaqdır.**

Bir vaxtlar kreatin yalnız idmançılar arasında məşhur idi, lakin sonradan beyin sağlamlığına diqqət yetirən insanların da marağını cəlb etdi. Üç aminoturşudan ibarət olan bu maddə təkcə əzələlər üçün deyil, həm də zehin üçün əlavə enerji mənbəyidir. Alimlər bildirirlər ki, kreatin beyni stresin və yuxusuzluğun mənfi təsirlərindən qoruyur. Məsələn, aparılan son araşdırmada demensiya diaqnozu qoyulmuş və kreatin qəbul edən xəstələrdə idrak funksiyalarında cüzi yaxşılaşma qeydə alınıb. Əlavələrə ümumilikdə skeptik yanaşan Duqal kreatini məhz beynə potensial faydasına görə gündəlik rasionuna daxil edib.

Ozempik kimi dərmanlar əsasən çəki azaldıcı təsiri ilə tanınır. Lakin alimlər onların maraqlı "yan təsirini" də müəyyən ediblər. Məlum olub ki, bu dərmanların tərkibindəki aktiv maddələr demensiya riskini azalda və yaşla əlaqədar beyin həcminin kiçilməsini ləngidə bilər. Duqal bu dərmanlardan birinin minimal dozalarını qəbul edir. Mütəxəssislər hələ də mübahisə edirlər: bu müsbət təsir birbaşa dərmanların özündənmi, yoxsa çəkinin normallaşmasından sonra orqanizmin ümumi sağlamlaşmasındanmı qaynaqlanır?

Fiziki fəaliyyətin beyin üçün faydası çoxdan məlumdur. Amma indi diqqət artıq ağır məşqlərdən çox, orta səviyyəli, lakin uzunmüddətli yüklənmələrə yönəlib. Söhbət elə hərəkətlərdən gedir ki, insan hərəkətdə olur, amma eyni zamanda, rahat danışa bilir. Bu, yüngül qaçış və ya velosiped gəzintisi ola bilər – belə fəaliyyətlər uzun müddət beyin qan dövranını artırır.

Hər kəs Aralıq dənizi pəhrizinin faydalarından xəbərdardır. Duqal isə Harvard alimləri tərəfindən sinir sisteminin zəifləməsini ləngitmək məqsədilə hazırlanmış onun yaxın "qohumu" – MIND pəhrizinə üstünlük verir. Onun effektivliyi barədə araşdırmalar bəzən ziddiyyətli olsa da, prinsipləri məntiqlidir. Rasionun əsasını yarpaqlı göyərtilər (həftədə ən azı 6 porsiya), qoz-fındıq (5 porsiya), paxlalılar (4 porsiya), giləmeyvələr və yağlı balıqlar təşkil edir. Yeməklərdə əsasən zeytun yağı istifadə olunur. Lif və omega-3 yağ turşuları ilə zəngin bu qidalanma tərzi orqanizmdə iltihabla mübarizə aparmağa və damar sağlamlığını qorumağa kömək edir ki, bu da birbaşa idrak funksiyaları ilə bağlıdır.

Keyfiyyətli yuxu da uzunömürlülük barədə ciddi düşünənlər üçün əsas qaydaya çevrilib. Yuxu zamanı beyin gün ərzində toplanmış toksik zülallardan aktiv şəkildə təmizlənir. Həkimlər təsdiqləyirlər ki, xroniki yuxusuzluqdan əziyyət çəkən və ya yuxu problemi yaşayan insanlarda demensiya riski iki dəfə yüksək olur. Duqal hər gecə təxminən 7 saat 45 dəqiqə yatır və bu, həkimlərin tövsiyələrinə tam uyğundur. "Yuxu mənim üçün beynimi qoruma strategiyasının əsasına çevrilib", – o bildirir.

Bu vərdişlərin heç olmasa bir neçəsini həyat tərzinə daxil etmək, illər boyu həm fiziki, həm də zehni sağlamlığa dəyərli töhfə verə bilər. Özünüzün düzgün yolda olub-olmadığınızı anlamaq üçün isə uzunömürlülük testindən keçmək tövsiyə olunur.

***XQ***

# Axəltəkə atları – türkmən ruhunun qanadı

**"Dünyanın ən gözəl, yaraşıqlı atlarıdır Axaltəkə atları!". Bu sözləri mənə hələ Moskvada təhsil alarkən tələbəlik illərindən dostluq etdiyim, hazırda qardaş ölkənin tanınmış yazıçılarından olan Akməhəmməd Həmidov söyləyib. O, hər dəfə bu mövzuda danışarkən sinəsi qabarır, bir qədər də coşurdu.**

Sonrakı illərdə digər türkmən dostlarımla bu mövzuda söhbət edəndə hiss edirdim ki, onların hər birinin qəlbində Axaltəkə atlarına dərin sevgi kök atıb. Çox təəssüf edirəm ki, Axaltəkə atlarını həyatda görməmişəm. Televiziya verilişlərindən, rəngli, qlamur jurnalların səhifələrindən aldığım vizual təəssürat budur ki, onlar həqiqətən, tərifə layiqdirlər!

Axaltəkə atları barədə çox deyilib, yazılıb, üstün məziyyətləri haqqında dəyərli mülahizələr söylənilib. Məlum olan budur ki, Axaltəkə hündürboylu, ensiz bədənli, incə sümüklü atdır. Dik duruşu, gözəl qaçışı var. Mütəxəssislərin fikrincə, bu, köçəri Təkə türkmən tayfası tərəfindən yaradılmış at cinsidir.

Alimlər hesab edirlər ki, Axaltəkə at cinsinin əmələ gəlməsində Türkmənistanın isti iqlimi, bu iqlimə uyğun kasad bitki örtüyü, susuz səhra şəraiti, eləcə də bu xalqın keçmişdəki köçəri həyat tərzi mühüm rol oynayıb. Bu atlar səhra şəraitində azca su içməklə belə uzaq məsafələri qət edə bilirlər.

Qeyd etməyə dəyər ki, Axaltəkə atları məğrur qaməti, sürətli qaşışı, dözümlülüyü ilə qədim dünyanın ən böyük sərkərdələrindən Makedoniyalı İsgəndərin, orta əsrlərin məşhur italyan səyyahı Marko Polonun, böyük fateh Əmir Teymurun və digərlərinin diqqətini özünə cəlb edib. Barəsində səxavətlə tərifli sözlər söyləyiblər. Türkmən folklorunda, poeziyasında onları vəsf edən şeirlərin, qoşmaların sayı-hesabı yoxdur. Müasir türkmən ədəbi dilinin və poeziyasının banisi, böyük türkmən şairi Məhtumqulu Fəraqi də xalqının qürur mənbəyi olan Axaltəkədən çox ilhamlanıb.

Köçəri Təkə türkmən tayfaları qərinələr, əsrlər boyu milli sərvətləri hesab elədikləri təmiz cinsli Axaltəkənin başqa at cinsləri ilə qarışmasına yol verməyiblər. Türkmənlər bizim kimi fəxrlə şəstlə deyirlər ki, at igidin yaraşığıdır. Türkmən igidləri el-obanı, Vətəni müdafiə etmək üçün ağır savaşlara gedəndə, Axaltəkə atları onların ən yaxın, etibarlı köməkçiləri olublar.



Yadımdadır, yuxarıda adını çəkdiyim dostum A.Həmidov həmçinin deyərdi ki, Axaltəkə atlarına olan dərin sevgi türkmələrin qanına işləyib: "Bizim türkmənlər, necə deyərlər, anadangəlmə at sürəndilər, onlarda atlara böyük maraq hələ uşaqlıqdan yaranır. Bizim xalqın belə bir deyimi də var: "At türkmən ailəsinin bir üzvüdür".

Türkmənistan əhali arasında bir rəvayət də geniş yayılıb: "Nebitdağ dağlarında bir çeşmə var. Hər dəfə ilxı bu çeşmədən su içməyə gələndə qeyri–adi bir at peyda olurdu. Bir müddət sonra atların iri, şux qamətli dayçaları oldu. Türkmənlər bu dayçaları yəhərləyib təlim keçməyə başlayanda gördülər ki, göylərdən yerə enmiş bu dayçalar sanki qaçmırlar, yerlə göy arasında süzürlər".

Məlumat üçün onu da bildirək ki, Türkmənistanda hələ sovet dönəmində Axaltəkə atçılıq zavodu yaradılıb. Axaltəkə atlarının şanı, şöhrəti bütün dünyaya yayılıb. 1992-ci ildən başlayaraq hər il aprelin sonuncu istirahət günü qardaş ölkədə "Türkmən atının bayramı" keçirilir. 2011-ci il aprelin 22-də Aşqabad şəhərində "Türkmən atı və atçılıq sənəti" adlı III Beynəlxalq elmi konfrans təşkil edilib.

Mərkəzi Asiyada tarixən məskunlaşan digər türk xalqları, xüsusilə qazax və qırğızlar da türkmən və özbəklər kimi, gözəl atlar bəsləyib onları ucsuz-bucaqsız çöl-biyabanlarda çapmağa böyük maraq göstərirlər. Bu səbəbdən son illər regionda atçılıq idmanı geniş yayılıb və əhali arasında çox populyardır.

***Məsaim ABDULLAYEV***
***XQ***

*Paşa Babakərli – 65*

# Taleyinin yol yoldaşı



**Azərbaycan Yazıçılar Birliyinin (AYB) Natəvan klubunda şair-jurnalist Paşa Babakərlinin (Əmircanov) 65 illk yubiley mərasimi keçirildi.**

Ömrünün əlamətdar günü ərəfəsində "Taleyim – yol yoldaşım" adlı növbəti kitabı işıq üzü görən söz-sənət cəfakeşini təbrik etməyə çoxsaylı qələm dostları, yaxınları və oxucuları gəlmişdilər.

Məclisi AYB sədrinin müavini, Mətbuat Şurasının sədri Rəşad Məcid açaraq tələbə yoldaşı olmuş Paşanın dəyişməz xarakter cizgilərindən, jurnalist bacarığı və şair fəhmindən bəhs etdi. P.Babakərliyə Mətbuat Şurasının yubiley diplomu təqdim olundu.

Digər çıxış edənlər – "Xalq qəzeti"nin baş redaktoru Əflatun Amaşov, "Borçalı" İctimai-Siyasi Birliyinin sədri Dəyanət Osmanlı, ədəbiyyatşünas-alim Əsəd Cahangir, "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin əməkdaşı Sahəddin Hüseynov, şair-publisist Knyaz Aslan və başqaları yubilyarın özəl keyfiyyətləri, məxsusi yaradıcılıq manerası, onu düşündürən mövzulara dair poetik və publisistik nümunələri eyni ustalıqla qələmə alması ilə bağlı fikirlərini konkret misallar əsasında bölüşdülər.

Paşa Babakərli 1960-cı ildə Gürcüstanın Marneuli rayonunun Qaçağan kəndində anadan olub. 1977-ci ildə bu kənddəki 2 saylı orta məktəbi əla və yaxşı qiymətlərlə bitirib. 1990-cı ildə Bakı Dövlət Universitetinin jurnalistika fakültəsində ali təhsilini başa vurub. O vaxtdan bir sıra respublika qəzetlərində, o cümlədən Müdafiə Nazirliyinin "Azərbaycan ordusu", "Respublika", "Ekspress", "525-ci qəzet", "Üç nöqtə", "Yeni Qafqaz" və digər qəzetlərdə, "Trend" informasiya agentliyində müxbir, şöbə müdiri, redaktor, baş redaktor müavini kimi vəzifələrdə çalışıb. 2008-ci ilin aprel ayından "Xalq qəzeti"ndə işləyir. Eyni zamanda, könlünü döyən poetik duyğuları ağ vərəqlərə köçürərək elə şeir, poema halına gətirir ki, oxucu məhəbbəti qazana bilir.

Yubiley gecəsində də qeyd olunduğu kimi, Paşa Babakərli (Əmircanov) üçün Vətən Borçalıdan başlayır. Amma bu ulu torpağın bütün ziyalıları, qələm sahibləri kimi, o da bütöv Azərbaycan adına yazıb-yaradan istedad sahibidir. Yəni heç vaxt yetişdiyi mühitdə qapanıb qalmayıb, daim sırf milli ədəbi prosesin içində olub. Eyni zamanda, illərdən bəri Bakıda yaşasa da, Babakərli Borçalının bədii söz ənənələrinin kamil davamçılarından biri kimi tanınır. "Taleyim – yol yoldaşım" kitabına Azərbaycanın Xalq şairi Sabir Rüstəmxanlı "Bakıdan görünən Borçalı və dünya" adlı Ön sözündə onun yaradıcılıq əzmini layiqincə dəyərləndirib.

Paşa Babakərli qoşmalarının birində yazır:

**Sənin təbəssümün bir aləm işıq,**
**O işıq o gözə-qaşa yaraşır.**
**Ürəyin köklənib duyğular üstə,**
**Sevgisiz yaşamaq daşa yaraşır.**

Şair bu misralarla sanki özünün avtoportretini cızıb. Onun yeni toplusunun bədii məziyyətlərini çözələyən söz-sənət adamları ilk kitabı olan "Yola çıxdım"dan üzü bu yana Paşanın yaradıcılıq uğurlarını, "Ömür yoxuşdu, keçirəm" deyərək, sınaqlara sinə gərdiyini, nəhayət, 65 yaşının yubiley məclisində başına çoxsaylı dostlarını, oxucularını toplaya bildiyini fərəhlə vurğuladılar.



Sonda çıxış edən Paşa Babakərli yubiley gecəsinin təşkilatçılarına və iştirakçılarına səmimi minnətdarlığını bildirdi və yeni şeirlərini oxudu.

***Ə.DOSTƏLİ,***
***R.İBRAHİMOV (foto)***
***XQ***

*Azərbaycan Milli Mətbuatı – 150*

# Haqverdiyevlər nəslinin yadigarı

**Onun ata babası Haqverdi bəy XIX əsrdə Şuşada İbrahim xanın mirzəsi və xeyriyyəçi olub. Atası Məşədi Zeynal, anası Tovuz xanım el-obada böyük hörmət-izzət sahibləri idilər. Özü isə Azərbaycan jurnalistikasının tanınmış simalarındandır.**



Söhbət Ulduzə Haqverdiyevadan gedir. Düz 72 il əvvəl – 1953-cü ildə Azərbaycan Dövlət Universitetini (indiki BDU) bitirərək jurnalist fəaliyyətinə başlayıb. Əvvəl Ağdamda redaksiyada çalışıb. Sonra Bakıya gələrək "Azərbaycan gəncləri" qəzetində ədəbi işçi olub, maraqlı yazıları ilə imzasını tanıdıb. Ailə vəziyyəti ilə əlaqədar Şərura, sonra Füzuliyə gedib. 1966-cı ildən "Araz" qəzetində çalışıb. 70-ci illərdə Bakıya qayıdaraq Azərbaycan Jurnalistlər İttifaqında məsləhətçi, "Müxbir" jurnalında ədəbi işçi kimi fəaliyyət göstərib.



Mehdiqulu xan Ulduzə xanımın ulu babası Mirzə Haqverdi Qarabağiyə bəylik rütbəsi verib, Ağcabədidə kənd bağışlayıb. Nəsil şəcərəsi Əbdürrəhim bəy Haqverdiyevgilə gedib çıxan, atasının əmisi qızı Xurşid xanımın həyat yoldaşı Nəcəf bəy Vəzirov olan, Hacıbəylilərə, Çəmənzəminlilərə yad sayılmayan Ulduzə xanım bu məsuliyyəti daim öz üzərində hiss edib və məşhur imzanın şərəfini layiqincə qoruyub.

Onun anası Tovuz xanım Ağcabədidə Kürqırağı Qaradolaq obasından, Cəlil Məmmədquluzadənin ömür-gün dostu Həmidə Cavanşirin qohumlarından olub. Xatirələrə dalan ağbirçək jurnalist deyirdi ki, 1945-ci ildə Həmidə xanım Ağdamda onların məktəbinə gəlmişdi. Məktəbin direktoru mənim qolumdan tutub Həmidə xanımın yanına apardı və ona təqdim elədi:

– Bu, Tovuzun qızıdır, adını siz qoymusunuz – Ulduzə. Həmidə xanım mənim başımı sığalladı, səliqəli, təmiz geyimimi təriflədi və ata-anamın necə yaşadıqlarını soruşdu...

Onun belə xatirələri çoxdur. Eyni zamanda, cəsarətli qələm sahiblərindən sayılır. İlk dəfə Azərbaycan Xalq Cümhuriyyəti haqqında çox maraqlı məqalə yazıb. Sovet rejiminin kəskin vaxtlarında hər jurnalist buna cürət etməzdi. Ulduzə Haqverdiyeva 150 yaşlı milli mətbuatımızla bağlı dəyərli məqalələrin də müəllifidir. Şura hökumətinin ilk dönəmlərində çıxan "Fəhlə-kəndli müxbirlər" məcmuəsində tənqidi yazıları gedən sələflərimizin təqiblərə məruz qalmasını geniş araşdırıb.

Həmin məcmuədə Mehdi Ağazadənin, Ələkbər Mövlayevin, Hüseyn Bağırın, Ağabala Mikayılzadənin, Hafiz Mirzəzadənin çıxışlar etdiyini, yazılarına görə təqib olunan astarxanbazarlı Mehdi Əsgərovun, gəncəli Abbas Rəcəbli və Süleyman Bağırovun, Ağdamdan Həsənəli Rüstəmzadənin, Zərdabdan Bəhaləddin Zərdabinin, Hacıqabul dəmir yolundan Şərif Hüseynovun, Binəqədidən Eyvaz Əbiyevin və başqalarının bürokratlar tərəfindən "ləkələnməsini" qeyd edib.

Ulduzə xanım "Mübarizədə keçən ömürlər" adlı araşdırmasında ("Müxbir" jurnalı, may, 1984) yazırdı ki, "Azərbaycan işçi-kəndli müxbiri" dərgisinin 1928-ci ildə çıxan 6-cı nömrəsində bildirildiyinə görə, Bakının Ağ şəhərində naməlum adamlar fəhlə-müxbir Həmdulla Fərzulla oğlunu bıçaqla sinəsindən vurub ağır yaralayıb, sonra da daşla, ağacla bədənini əzik-əzik edərək, əzabla öldürüblər. O zaman Mikayıl Müşfiqin qələmə aldığı "Müxbirin ölümü" adlı şeir də məcmuədə dərc olunub. Ulduzə xanım həmin şeiri də taparaq "Müxbir" jurnalında oxuculara təqdim edib.

Onun "Xatirələr unudulmur", "Musiqiçi kadrlar" (görkəmli bəstəkar, eyni zamanda, publisist Üzeyir Hacıbəyli ilə bağlı) "Məhsul" dostluğu tərənnüm edir", "İlk fabrik qəzeti" (Bakı Tikiş Fabrikində çıxan "Fəhlə yolu") və sair məqalələri də maraqla qarşılanıb.

...Universitetin jurnalistika fakültəsində qiyabi təhsil alırdım. Sumqayıtda çalışdığım çoxtirajlı "Kimyaçı" qəzetinin çap olunduğu şəhər mətbəəsində metranpaj olan Hacımehdi Fətiyev haqqında oçerk yazıb Jurnalistlər İttifaqının aylıq "Müxbir" jurnalı redaksiyasına aparmışdım. Orada yazımı əvvəllər "Kimyaçı"ya rəhbərlik etmiş baş redaktor Oqtay Cəfərova təqdim etdim. O da Ulduzə xanımı çağırıb oçerkimi çapa hazırlamağı tapşırdı. İlk dəfə gördüyüm Ulduzə xanım tələbə-jurnalist olduğumu eşidincə qızı Səadət Məmmədovanın da bizim fakültədə oxuduğunu söylədi.

– Eyni qrupun tələbələriyik, – dedim. – Hamımızın xətrini çox istədiyimiz Səadət Məmmədova, özü də Üzeyir Hacıbəyovun ev-muzeyində işləyir.

Ulduzə xanım gülümsündü. Dedi ki, bəli, Səadət dahi bəstəkarın Bakıdakı ev-muzeyinin işçisidir, mən isə hələ 1959-cu ildə Üzeyir bəyin Şuşadakı ev-muzeyinin açılışında "Azərbaycan gəncləri" qəzetinin müxbiri kimi iştirak etmişəm. Sonra yazımı oxuyub bəyəndi və növbəti nömrə üçün hazırladı.

Ondan sonra Ulduzə xanımla görüşməsək də, Səadət xanımla ("Qarabağlı" təxəllüsü ilə tanınır) həmkar kimi ara-sıra görüşürük. Uzun illər Üzeyir bəyin ev-muzeyinə direktorluq edib, televiziyada "Azərbaycan musiqi mədəniyyəti tarixi" proqramının müəllifi və aparıcısı olub. "Üzeyir Hacıbəyov" ensiklopediyasının müəlliflərindəndir. Bir vaxt anası mənim yazımı "Müxbir" jurnalında çap etmişdi, indi də mən Səadət xanımın mədəniyyət mövzusunda yazılarını, dahi bəstəkarımız Üzeyir Hacıbəyli haqqında maraqlı araşdırmalarını qəzetimizdə çapa verirəm.

Ulduzə xanımın "Müxbir" jurnalında dəyərli məqalələri, müsahibələri dərc edilirdi. Onunla iş yoldaşı olmuş şair-publisist Əjdər Fərzəli yazırdı: "Ulduzə xanım həyatın dərin bilicisi kimi, kitablardan oxumadığım elə ibrətli misallar, əhvalatlar söyləyirdi ki, heyrətlənirdim. O fəxr edirdi ki, Şuşada anadan olub. Dahi bəstəkarımız Üzeyir Hacıbəylinin, Bülbülün, Xanın, Seyid Şuşinskinin Şuşadakı evlərindən, bağlarından xüsusi məhəbbətlə danışırdı. Hətta Şuşanın məşhur Xarıbülbül gülünün toxumundan gətirib Ağdamda və Ağcabədidə əkdiyindən misal çəkirdi. – Amma Allahın sirridir, – deyirdi, – bu gül inadla baxır adamın üzünə, sanki öz gül dilində pıçıldayır ki, "mən yalnız Şuşa torpağında yaşaya bilərəm. Məni Şuşadan ayırmaq, heç yerə köçürmək mümkün deyil...". Ulduzə xanım bundan sonra sınağa çəkirdi məni: – Adını yazıçı qoymusan, Xarıbülbül haqqında niyə bir əsər yazmırsan?".

Əmək veteranı Ulduzə Haqverdiyeva 2010-cu ildə Azərbaycan Mətbuat Şurası nəzdində yaradılmış Ahıl Jurnalistlər Məclisinin ilk üzvlərindən olub. Tədbirlərdə fəal iştirak edib. İndi İstanbulda qızları Kəmalə və Sevinclə birlikdə yaşayır. Oraya gedəndə böyük qızı Səadətin Bakıdakı uşaqları – Rəşad və Leyla üçün, Bakıya gələndə isə Kəmalə və Sevincin uşaqları – Orxan və Abbas üçün darıxır.

Milli Mətbuatımızın 150 illiyi ilə əlaqədar bu sahədə xidmətləri olan Ulduzə xanımla danışmaq üçün İstanbula zəng etdik. Maraqlı söhbətlərini dinlədik. Buradakı həmkarlarına ən xoş arzularını ifadə etdi. Biz də jurnalistikamızın ensiklopedik bilgiləri olan ağbirçəyinə uzun ömür, cansağlığı diləyirik.

***Əli NƏCƏFXANLI***
***XQ***

**(əvvəli 1-ci səhifədə)**

# Doğma yurdlara dönən karvanlar...

Şanlı qələbəmizdən keçən bu müddət ərzində cənnətməkan torpaqlarımızda tikinti-quruculuq işləri uğurla aparılır. Erməni terrorçuları tərəfindən tamamilə yerlə-yeksan edilmiş bütün ərazilərimiz bərpa edilir, dağıdılmış şəhər və rayonlarımız, kəndlərimiz yenidən qurulur.

İşğaldan azad olunmuş ərazilərin bərpası, dayanıqlı inkişafı və keçmiş məcburi köçkünlərin doğma yurdlarına könüllü, təhlükəsiz və ləyaqətli şəkildə qayıdışının təmin edilməsi hazırda dövlət siyasətinin əsas prioritetlərindəndir. Bu istiqamətdə həyata keçirilən tədbirlər yalnız daxili sabitliyə deyil, bütün regionda təhlükəsizliyə və əmin-amanlığa mühüm töhfə verir. Böyük Qayıdış prosesi ölkənin sosial-iqtisadi inkişaf strategiyasında əsas istiqamət kimi "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sənədində yer alıb.

Ölkə başçısı görüləcək işlər barədə danışarkən dəfələrlə vurğulayıb ki, işğaldan azad edilmiş torpaqlar yenidən qurulur, evlər, yeni yol-nəqliyyat infrastrukturu, istehsalat sahələri yaradılır, yüksəkgərginlikli elektrik xətləri çəkilir, yeni yarımstansiyalar, məktəblər tikilir, inzibati və müasir yaşayış binaları inşa olunur.

Vətən müharibəsində müzəffər xalq kimi özümüzü dünyada təsdiq etdik. Bu təsdiqdə əsas yükü, məsuliyyəti çiyinlərinə Prezident, Müzəffər Ali Baş Komandan



İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu götürdü. Ordu cəsarət göstərərək bu qürurun memarı oldu. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, "Bu qələbənin birinci qəhrəmanı Azərbaycan əsgəridir, Azərbaycan zabitidir və hər kəs bunu bilməlidir. Biz sübut etdik ki, biz böyük xalqıq. Biz sübut etdik ki, biz həmrəylik göstəririk, birlik göstəririk və bu birlik onsuz da cəmiyyətdə var idi".

5 ildir ki, bütün türk dünyası Azərbaycanın qələbəsi ilə fəxr edir. Prezident İlham Əliyevin hər səfərində bu torpaqlarda erməni vandalizminin izləri sürətlə silinir.

44 günlük Vətən müharibəsində eşitdiyimiz xoş xəbərlər bu gün daha sevincli günlərlə əvəz olunur. Elə ay olmur ki, səhər açılar-açılmaz köç karvanı müqəddəs torpaqlara–cənnətməkan Qarabağa yön almasın. O müqəddəs yurd sakinlərinin üzündə, çöhrəsində qəribsəmiş çizgilər açıq-aşkar büruzə verir. Heç vaxt oranı görməyən məsum körpələrin də sevinc hissləri əks olunur–biz Qarabağa, ata-baba yurduna köç edirik.

Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, işğaldan azad edilmiş ərazilərə Böyük Qayıdış davam etdirilir. Bu ayda bir neçə köç karvanının doğma yurda köçməsinin şahidi olduq. Belə ki, oktyabrın 29-da Ağdam rayonunun Xıdırlı və Ağdərə rayonunun Həsənriz kəndlərinə köç edənlər respublikanın müxtəlif yerlərində, əsasən yataqxanalarda, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdir. Bu dəfə Xıdırlıya 91 ailə (366 nəfər), Həsənriz kəndinə isə 17 ailə (83 nəfər) köçürülərək onlara evlərin açarları təqdim edilib.

Doğma yurda qayıdan sakinlər hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkür ediblər.

Hazırda Qarabağda və Şərqi Zəngəzurda, ora köçürülən keçmiş məcburi köçkünlərlə yanaşı, bu bölgədə aparılan layihələrin icrasında çalışan, həmçinin ayrı-ayrı dövlət qurumlarının yerli bölmələrində xidməti vəzifələrini yerinə yetirən, yenidən fəaliyyətə başlamış səhiyyə, təhsil, mədəniyyət, turizm, sənaye, energetika müəssisələrində işləyən, ümumilikdə, 53 mindən çox insan yaşayır.

Bir neçə il öncə yenicə işğaldan azad olunmuş müqəddəs torpaqlarımızı televiziya ekranında, sosial şəbəkələrdə ürək ağrısı ilə müşahidə edirdiksə, bu gün isə tam əksinə, abadlıq-quruculuq işlərinin sürətlə aparılmasının, şəhər və kəndlərin yüksək zövqlə tikilərək açılışlarının şahidi oluruq. O torpaqlara yeni həyat, isti nəfəs verilir. Doğma torpaq uzun illər uzaq düşmüş sakinlərə – Ağdama, Xocalıya, Kəlbəcərə, Laçına, Zəngilana, Cəbrayıla, Ağdərəyə dönən keçmiş məcburi köçkünlərə qucaq açır.

Yurd yerləri üçün qəribsəmiş insanlar o torpaqları sevinc göz yaşları ilə əzizləyir, əbədi olaraq tərk etməyəcəklərini pıçıltı ilə səsləyirlər. İndi o bərəkətli torpaqlarda sakinlər əkib–becərir, sanki torpaq da əvvəlki bərəkətini bərpa edib. Müqəddəs torpaq da isti əlləri və nəfəsi duyur sanki.

Hər köç karvanı yola düşəndə düşünürsən: biz müqəddəs torpaqlara əbədi qayıtmışıq. Bu yurdların əzəli sahibləri isə qurub-yaratmaq eşqi ilə...

***Müşfiq MİRZƏ***
***XQ***

*Təqvim yada salır*

# Bakı–Tbilisi–Qars dəmir yolu – Orta Dəhlizin Qafqaz arteriyası




**Azərbaycan 1991-ci ildə müstəqilliyini bərpa etdikdən sonra region və dünya üçün əhəmiyyətli olan bir sıra layihələrin reallaşmasında həlledici rol oynayıb. Ölkəmiz Bakı-Tbilisi-Ceyhan, Bakı–Tbilisi–Ərzurum, “Cənub qaz dəhlizi”, TANAP və TAP kimi layihələrin təşəbbüskarı, eləcə də həyata keçirilməsində əsas söz sahibi olub.**

Son illər Azərbaycanın nəqliyyat infrastrukturunda reallaşdırılan yenidənqurma işləri – Bakıda və regionlarda beynəlxalq hava limanlarının, Şərq–Qərb və Şimal–Cənub nəqliyyat dəhlizləri istiqamətində beynəlxalq əhəmiyyətli avtomobil yollarının tikintisi və dəmir yolu xətlərinin yenilənməsi bu sahənin inkişafına güclü təkan verib. Mühüm nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşən Azərbaycan regionun tranzit imkanlarının genişləndirilməsində həlledici rol oynayır və ölkəmizi mühüm nəqliyyat-logistika mərkəzinə çevirir.

Azərbaycan bu gün həm də öz tranzit imkanlarını artırmağa yol açan yeni təşəbbüslərin müəllifidir. Həmin təşəbbüslərdən biri isə Bakı–Tbilisi–Qars (BTQ) dəmir yolu layihəsidir. Məlum olduğu kimi, inamlı inkişaf yolu tutan, öz inkişafına görə regionun lider dövləti olan Azərbaycanın iştirakı ilə 2017-ci il oktyabrın 30-da daha bir mühüm layihə reallığa çevrildi. Həmin gün Bakı Beynəlxalq Dəniz Ticarət Limanında XXI əsrin layihələrindən olan Bakı–Tbilisi–Qars dəmir yolunun təntənəli açılış mərasimi keçirildi. Qeyd edək ki, Avropanı Asiya ilə birləşdirən bu dəmir yolu bağlantısının yaradılmasında Azərbaycanın hərtərəfli dəstəyi mühüm rol oynayıb. BTQ-nin açılışında Mərkəzi Asiya ölkələrinin iştirakı bir daha göstərdi ki, bu, tarixi əhəmiyyətə malik bir layihədir.

Ölkəmizin moderatorluğu ilə inşa edilən Bakı–Tbilisi–Qars dəmir yolunun siyasi və iqtisadi önəmi kifayət qədər böyükdür. Bu layihə təkcə Azərbaycan və region dövlətləri üçün deyil, həm də qlobal əhəmiyyətli tarixi hadisədir. BTQ Bakıdan başlayaraq Gürcüstanın Tbilisi və Axalkalaki şəhərlərindən keçməklə Türkiyənin Qars şəhərinədək uzun bir məsafə qət edərək Azərbaycanla Türkiyəni, Şərqlə Qərbi birləşdirir.

Bu məqamda layihənin tarixcəsinə qısa nəzər salmaq yerinə düşər. Belə ki, 2004-cü il iyunun 14-də Gürcüstana rəsmi səfər edən Prezident İlham Əliyev keçirdiyi mətbuat konfransında Bakı–Tbilisi–Qars dəmir yolu layihəsini dəstəklədiyini və Azərbaycanın da bu layihədə iştirak etməyə hazır olduğunu bildirib. 2005-ci il mayın 25-də isə Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəmərinin Azərbaycan hissəsinin açılışında Azərbaycan, Türkiyə və Gürcüstan prezidentləri BTQ dəmir yolu xətti layihəsi haqqında bəyannamə imzalayıblar. 2007-ci il fevralın 7-də Azərbaycan Prezidentinin Gürcüstana işgüzar səfəri zamanı BTQ-nin tikintisinin başlanması ilə bağlı saziş imzalanıb. Həmin ayın 21-də isə dövlətimizin başçısı layihə ilə əlaqədar tədbirlər haqqında sərəncam imzalayıb.

2007-ci il noyabrın 21-də üç ölkənin prezidentlərinin iştirakı ilə Gürcüstanın Marabda kəndində BTQ-nin təməli qoyulub. 2008-ci il iyulun 24-də isə Türkiyənin Qars şəhərində dəmir yolunun Türkiyə hissəsinin tikintisinə start verilib. Uğurla reallaşdırılan BTQ dəmir yolu xəttinin ümumi uzunluğu, təxminən, 840 kilometrdir. Bunun 500 kilometri Azərbaycan, 260 kilometri Gürcüstan, 80 kilometri isə Türkiyə ərazisindən keçir. Dəmir yolu xəttinin Gürcüstan–Türkiyə sərhədindəki hissəsində uzunluğu 5 kilometrə yaxın olan tunel inşa edilib.

Bakı–Tbilisi–Qars dəmir yolu əsası xalqımızın Ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulan və Prezident İlham Əliyevin böyük uzaqgörənliyi, siyasi iradəsi və zəhməti hesabına həyata keçirilən beynəlxalq layihələr kompleksinin tərkib hissəsi olmaqla müstəqillik dövrü tariximizin ən mühüm hadisələrindən biridir. Tarixi İpək yolunun bərpası çərçivəsində nəqliyyat infrastrukturunun təkmilləşdirilməsində böyük addım olan bu layihənin Prezident İlham Əliyevin böyük siyasi iradəsi sayəsində uğurla reallaşması Avropa–Qafqaz–Asiya nəqliyyat dəhlizinin yeni səviyyədə inkişafına şərait yaradır. Ən əsası, bu dəmir yolu bağlantısı nəqliyyatın inkişafında yeni mərhələnin başlanması demək idi. Çünki iqtisadi baxımdan səmərəli, dayanıqlı, təhlükəsiz və ekoloji normalara tam cavab verəcək BTQ dəmir yolu xətti Şərq–Qərb nəqliyyat dəhlizinin əsas seqmentlərindən olmaqla Avrasiyada ticarət-iqtisadi münasibətlər sahəsində sıx əməkdaşlığa, regionda sosial-iqtisadi artımın sürətlənməsinə, eləcə də ölkələrin qlobal səviyyədə əməkdaşlığının genişlənməsinə böyük imkanlar verir.

BTQ dəmir yolu xətti Azərbaycanın beynəlxalq səviyyəli tranzit və logistika mərkəzinə çevrildiyinin növbəti əyani sübutudur. Bu yolla yük və sərnişinlərin Avropa və Asiyaya çatdırılması ilə yanaşı, ixrac mallarının Azərbaycan ərazisindən tranzitinin artmasına, inteqrasiya proseslərinin sürətlənməsinə, əmtəə və xidmətlərin nəqli yollarının diversifikasiyasına xidmət edir. Eyni zamanda, bu dəmir yolu Avropa və Asiya ölkələri arasında yüklərin daşınmasında əvəzsiz rol oynamaqla bərabər, Azərbaycanın tranzit ölkə kimi əhəmiyyətini artırır.

Regionun iqtisadi inkişafına xidmət edən BTQ xalqlar arasındakı bağları gücləndirməklə ölkələrin rifahı və sabitliyi üçün möhkəm təməllər yaradıb. BTQ dəmir yolu regionda sabitliyə, iqtisadi inkişafa ən böyük töhfədir. Bu töhfənin təməlində isə Azərbaycan, Gürcüstan və Türkiyənin sarsılmaz dostluğu və qardaşlığı dayanır. Orta Dəhlizin mühüm qolu sayılan BTQ Mərkəzi Asiya ölkələrinin – Türkmənistan, Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Tacikistan və Əfqanıstanın Avropa və dünya bazarlarına çıxışını da asanlaşdırır. Bu isə sözügedən dəmir yolunun regionun ən mühüm nəqliyyat infrastrukturu olduğunu deməyə əsas verir. Təsadüfi deyil ki, Prezident İlham Əliyev Bakı–Tbilisi–Qars dəmir yolunu tarixi və strateji əhəmiyyətli layihə kimi dəyərləndirib. Eyni zamanda, layihə Azərbaycan üçün siyasi, iqtisadi və strateji baxımdan da xüsusi əhəmiyyət daşıyır. Hər şeydən əvvəl, ölkəmiz bu marşrut vasitəsilə beynəlxalq nəqliyyat dəhlizlərinə və Türkiyəyə birbaşa gediş imkanı qazanıb. Belə ki, dəmir yolu ilə bir günə Qarsa, iki gün yarıma isə İstanbula getmək mümkündür. Azərbaycanın iqtisadi inkişafına mühüm töhfələr verən BTQ, həm də ölkəmizin tranzit imkanlarını xeyli artırıb.

Ölkəmiz bu nəhəng layihənin maliyyələşdirilməsində önəmli rol oynayıb. Belə ki, ABŞ və Avropa Birliyi Ermənistan amilinə görə layihəyə qarşı çıxaraq onun maliyyələşdirilməsindən imtina etdikləri üçün Azərbaycan tikintinin maliyyələşdirilməsini öz üzərinə götürüb. Bu məqsədlə qonşu Gürcüstana ildə 1 faiz dərəcəsi ilə 25 il müddətinə 220 milyon dollar kredit ayrılıb. Bütövlükdə isə BTQ-nin tikintisinin maliyyələşdirilməsinə Azərbaycan Respublikası Dövlət Neft Fondunun xətti ilə indiyədək, təqribən, 745 milyon dollar vəsait yönəldilib. Türkiyə hökuməti isə Bakı–Tbilisi–Qars dəmir yolu layihəsinin ölkə ərazisindən keçən hissəsinin inşasına 345 milyon dollar ayırıb.

Yeri gəlmişkən, 2024-cü ildə Azərbaycanın sərmayələri hesabına BTQ-nin daşıma qabiliyyəti 1 milyon tondan 5 milyon tona qədər artırılıb. Ümumilikdə isə 2017-ci il sentyabrın 7-də Tbilisidən Axalkalakiyə gedən ilk sınaq sərnişin qatarının yola salınması ilə istismarına başlanılan Bakı–Tbilisi–Qars dəmir yolu ilə uzaq Çindən yola salınan malların 15 gün müddətində Avropaya çatdırılması mümkündür. Hazırda Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun mühüm seqmenti olan Bakı–Tbilisi–Qars dəmir yolu ilə ildə, təqribən, 6-8 milyon ton yük daşınır. Növbəti illərdə isə polad magistralla 3 milyon sərnişin və 17 milyon ton yük daşınması nəzərdə tutulur.

***M.YAQUBZADƏ,***
***M.CƏFƏROV***
***XQ***

*Araşdırma*

# Adı pendirdir, bəs dadı necə?

## *Şora da bənzəri var, ucuz yağa da*

**Son illər ölkəmizdə pendir istehsalı və istehlakında əldə edilən uğurlarla yanaşı, bir sıra problemlər də ciddi narahatlıq doğurur. Bu, keyfiyyətsiz və saxta pendir məhsullarının bazara çıxarılması ilə bağlıdır. Məhsulun maya dəyərini azaltmaq üçün onun istehsalı prosesində təbii süd yağı əvəzinə bitki və ya palma yağından istifadə edilməsi daha çox nəzərə çarpır.**

Təbii ki, bu cür pendir dad və keyfiyyət baxımından ticarət müəssisələrində narazılıqla qarşılanır. Belə halda təkcə istehlakçı hüquqları pozulmur, həm də istehsalçı reputasiyası zəifləyir. Ekspertlərin fikrincə, problem dövlət nəzarətinin gücləndirilməsi, laborator müayinələrin sistemli aparılması və istehlakçıların maarifləndirilməsi ilə aradan qaldırıla bilər.

Qeyd edək ki, respublikada pendir və digər süd məhsullarının keyfiyyətinə nəzarətin diqqət mərkəzində saxlanılmasına, istehsal müəssisələrində və satış məntəqələrində mütəmadi monitorinqlərin aparılmasına, standartlara cavab verməyən məhsullara qarşı inzibati tədbirlərin görülməsinə baxmayaraq, çox vaxt istehlakçı hüquqları pozulur. Bu, daha çox ticarət müəssisələrində istehlakçının məhsulun mənşəyi və tərkibi barədə düzgün məlumat ala bilməməsində, alıcı biganəliyi səbəbindən saxta və ya keyfiyyətsiz məhsul satılması haqqında müvafiq qurumlara məlumat verilməməsində, sağlamlığa təhlükə yaradan məhsulların satışının qarşısının alınmamasında özünü qabarıq büruzə verir.

Onu da qeyd edək ki, ölkədə pendir istehsalının artması təkcə daxili bazarın təminatı ilə məhdudlaşmır. Gələcəkdə Türkiyə, Rusiya, Mərkəzi Asiya və Yaxın Şərq bazarlarına da ixrac imkanlarının genişlənəcəyi gözlənilir. Bunun üçün məhsulun keyfiyyət səviyyəsinin və ixrac sertifikatlaşdırma sisteminin beynəlxalq standartlar əsasında tanınması qarşıya mühüm vəzifə kimi qoyulur. Dünyada “ağıllı qida sənayesi” tendensiyası artıq pendir istehsalında da tətbiq olunur. Azərbaycanda da bir sıra müəssisələrdə rəqəmsal idarəetmə sistemləri, avtomatlaşdırılmış süd analizatorları və enerji qənaətli soyutma texnologiyalarına üstünlük verilir. Bu, həm istehsalın səmərəliyini artırır, həm də məhsulun dayanıqlığını gerçəkləşdirir.

Pendir alarkən istehlakçının diqqəti və məlumatlılığı keyfiyyət təhlükəsizliyinin əsas zəncir halqalarından biridir. Əgər istehlakçı məhsulun etiketinə, saxlanma şəraitinə, istehsal tarixinə və orqanoleptik xüsusiyyətlərinə diqqət yetirirsə, bazarda keyfiyyətsiz məhsulların mövcudluğu azalır. Amma bunun əksinə də rast gəlinir. Məsələn, bu yaxınlarda Sevinc Qarayeva ad-soyadlı oxucu redaksiyamıza ünvanladığı məktubda bildirir ki, o, marketdən paketlənmiş formada pendir alarkən satıcıdan məhsulun etiketini istəyib və qəribə cavab eşidib: “Bizə (ticarət müəssisəsinə) belə göstərici-məlumat verilmir. Olsa belə, onu alıcıya göstərməyə ixtiyarımız yoxdur. Bir də ki, etiket sənə nə üçün lazımdır? Axı orada yazılanların doğru-düzlüyünə kim zəmanət verir? Amma mən pendirin dadına baxmaqla məhsulun keyfiyyətli olub-olmaması qənaətinə gələ bilirəm. Yaxşıdır, almağınızı da məsləhət bilirəm…”.

Sevinc Qarayeva malın üstünə yapışdırılan, üzərində məhsulun adını, qiymətini və digər parametrlərini göstərən yarlığın həm istehsalçının məsuliyyətinə, həm də istehlakçının sağlamlığına təminat üçün önəm daşıdığını satıcıya heç cür anlada bilməyib.



**Eyyub HÜSEYNOV,**
**Azad İstehlakçılar Birliyinin sədri**

İstehlakçıların yerli və beynəlxalq hüquqlarından biri də onların mal-məhsul haqqında müfəssəl informasiya almaları ilə bağlıdır. Alıcının o informasiyanı satıcıdan tələb etməsi isə onun qanuni haqqıdır.



Bu məsələ “İstehlakçıların hüquqlarının müdafiəsi haqqında” Qanunda, eləcə də Avropa İttifaqının, bu istiqamətdə fəaliyyət göstərən digər beynəlxalq qurumların müvafiq sənədlərində öz ifadəsini tapıb. Nazirlər Kabinetinin 94 saylı qərarında, “Yeyinti məhsulları haqqında” Qanunda və digər qanunvericilik aktlarında ərzaq mallarının etiketlərində Azərbaycan və xarici dillərdə bu barədə müfəssəl informasiyanın – malın adı, tərkibi, buraxılma və saxlanılma tarixləri, istehsalçı müəssisənin harada yerləşməsi, əlaqə telefonları kimi göstəricilərin mütləq qeyd olunması vacibliyi bildirilib.

Buna baxmayaraq, müasir supermarketlərdə bəzi mallar, məsələn, pendir, yağ, konfet məhsulları qutularda qablaşdırılaraq satılır ki, bu da istehlakçı hüquqlarının pozulması, istehlakçının mal haqqında məlumat almaq hüququnun məhdudlaşdırılması deməkdir.

Azərbaycan hökuməti biznes qurumlarının səmərəli fəaliyyəti üçün hər cür əlverişli şərait yaradıb. Amma çox təəssüf ki, bir sıra hallarda bundan sui-istifadə edilir. Düzdür, son illərdə ölkədə istehlakçı hüquqlarının qorunması istiqamətində görülən müəyyən işlər diqqət çəkir. Lakin reallaşdırılmasına zəruri ehtiyac duyulan digər layihələrin icra olunması da zamanın tələbidir.

**Nihat ƏLİYEV,**
**qida eksperti**

Pendir sağlam həyat tərzinin mühüm qida komponentidir. Onun istehsalında və saxlanmasında keyfiyyət göstəricilərinə əməl olunması həm istehsalçının məsuliyyəti, həm də istehlakçının sağlamlığı üçün



zəruridir. Bu baxımdan bəzi fikirləri oxucu diqqətinə yönəltmək yerinə düşər.

Əvvəl onu deyim ki, Azərbaycan süfrəsində ən önəmli məhsullardan olan və süd, eləcə də təbiətin digər nemətləri hesabına hasilə gətirilən pendir həm gündəlik qidalanmada, həm də milli mətbəxdə geniş işlədilir. Keyfiyyətinə, eyni zamanda, pəhriz əhəmiyyətinə görə ən faydalı süd məhsullarından sayılır. Pendir zülal, yağ, mineral duzlar, vitaminlər, fermentlər və bioloji fəal maddələrlə zəngindir. Tərkibindəki kalsium və fosfor sümüklərin möhkəmlənməsi üçün vacib rol oynayır, A və B qrup vitaminləri isə orqanizmin ümumi vəziyyətinə müsbət təsir göstərir. Yüksək kalorili bu məhsul xüsusilə uşaqlar, idmançılar və fiziki əmək fəaliyyəti ilə məşğul olanlar üçün əlverişli enerji mənbəyidir.



İstər ev şəraitində, istərsə də sənaye müəssisələrində pendir istehsalı bir neçə mərhələdən keçir. Bu məhsulun nəzərdə tutulan standarta uyğun hazırlanması istifadə olunan südün keyfiyyətindən, istehsal prosesinin düzgün həyata keçirilməsindən, əlavə olunan dadverici maddələrin seçilməsindən asılıdır. Bu göstəricilərə əsasən pendirlər bərk, yarımbərk, yumşaq, toz və ərinmiş olmaqla müxtəlif növlərdə hazırlanır. Dad fərqləri, saxlanma üsulları da məhz bu amillərlə müəyyən olunur.

Pendir alarkən hər bir istehlakçı, ilk növbədə, məhsulun keyfiyyətinə diqqət yetirməlidir. Çünki köhnə və düzgün saxlanılmayan pendir orqanizm üçün təhlükəli sayılır. Ən çox rast gəlinən problem isə pendirin üzərində kif göbələyinin əmələ gəlməsidir ki, bu da məhsulun yararsız hala düşməsindən xəbər verir.

Mütəxəssislərin sözlərinə görə, duzlu pendirlər ticarət şəbəkələrində 6–8 dərəcə temperaturda və 80–85 faiz nisbi rütubətdə saxlanılmalıdır. Hər 10-15 gündən bir çəlləklərin çevrilməsi məhsulun bərabər duzlanması və yetişməsi üçün zəruridir.

Saxlama zamanı pendirdə bir sıra kimyəvi dəyişikliklər baş verir: şəkərin miqdarı azalır, turşuluq əvvəlcə yüksəlir, sonra tədricən enir. Bəzi pendir növləri istehsal tarixindən etibarən 2–3 ay ərzində öz keyfiyyətini qoruyur. Ancaq duzlu suda saxlanılan pendirlər üçün bu, son hədd sayılır. Belə ki, daha uzun müddət ərzində pendir həddən artıq şor olur və dadını itirir. Mağazalarda isə soyuducu yoxdursa, məhsulun saxlanılma müddəti 5–10 günlə məhdudlaşır. Soyuducu şəraitində və xüsusilə qış aylarında bu müddət bir qədər uzanır: duzlu suda saxlanılan bərk pendirlərin 15 gün, qəlyanaltı növlərin 5 gün, ev pendirinin isə 1,5 gün ərzində istifadəsi məsləhət bilinir.

Ev şəraitində pendirin otaq temperaturunda saxlanılması zəruri hesab edilir. Məhsulun keyfiyyətini yoxlamağın sadə üsulu da var: əgər pendirdən kiçik bir parçası 90 dərəcə temperaturda dağılmırsa, deməli, o, keyfiyyətlidir. Əks halda, qabığın partlaması, kiflə örtülməsi, acılaşması və pis qoxu verməsi məhsulun yararsızlığını göstərir. Belə məhsulların satışı qanunla qadağan edilir.

Sonda isə qeyd edək ki, hər bir istehlakçı ticarət müəssisəsindən bu ağ neməti alarkən diqqətli olmalı, sağlamlığın keyfiyyətdən başladığını unutmamalıdır.

***

Beləliklə, ölkəmizdə süd sənayesinin modernləşməsi, regional istehsalın artması və keyfiyyət standartlarının tətbiqi diqqətdə saxlanılarsa, pendir istehsalı sahəsinin uzunmüddətli inkişafına zəmin yaranar. İstehlakçı hüquqlarının qorunması və məhsul təhlükəsizliyinə nəzarət mexanizmlərinin təkmilləşdirilməsinə isə önəm verilməsi Azərbaycan pendirinin həm daxili bazarda mövqeyini möhkəmləndirər, həm də beynəlxalq bazarlara çıxmaq potensialını gücləndirər.

***Vaqif BAYRAMOV***
***XQ***

# Ana dilinin saf çöhrəsində qara ləkələr

## *Yaxud: "Türkün dili tək sevgili istəkli dil olmaz"*

**Gənclərin danışığında zaman-zaman müşahidə olunan "qarışıq" ifadələr, yəni ana dilinə türk, rus və ingilis sözlərinin qatılması son dövrdə geniş ictimai və elmi müzakirə mövzusuna çevrilib. Bu, bir tərəfdən qloballaşma, texnoloji inkişaf və müxtəlif dillərdə mənbələrdən gündəlik istifadənin nəticəsi kimi qiymətləndirilir. Digər tərəfdən isə, dilə naşı, məsuliyyətsiz yanaşmanı, söz ehtiyatının azlığını göstərir.**

Yeni nəslin dünyaya baxışı və informasiya mənbələrinə çıxışı da dəyişib. İnternet, sosial şəbəkələr, video platformalar və oyunlar vasitəsilə gənclər müxtəlif dillərdə hazırlanan materiallarla tanış olurlar. Bu, təbii olaraq, gündəlik həyatımıza, hətta nitqimizə də sirayət edir, beynin informasiya emaletmə mexanizmi daha qısa və səmərəli ünsiyyət yolları axtarır. Lakin prosesin zərərli və qəbuledilməz tərəfləri daha çoxdur. Bu, ilk növbədə, dilin təmizliyini pozur, onu kasadlaşdırır.

**Nəsimi adına Dilçilik İnstitutunun monitorinq və linqvistik təhlil şöbəsinin müdiri, professor Sevinc Əliyeva bildirdi ki, nitqdəki problemlər onun zənginliyindən və imkanlarından düzgün istifadə etməməkdən, savadsızlıqdan irəli gəlir:**



– Azərbaycan dilinin inkişafı və qorunması məsələsi yalnız dilçilərin deyil, bütün cəmiyyətin diqqət mərkəzindədir. Gənclərin danışığında müşahidə olunan yad söz və cümlə dəyişiklikləri, alınma sözlərdən və müasir terminlərdən geniş istifadə dilin sosial maliyyətinə birbaşa təsir göstərir. Dil yalnız ünsiyyət vasitəsi deyil, həm də milli kimliyin, ümumi yaddaşın və yerli mədəniyyətin daşıyıcısıdır.

Gənclərin oxu vərdişlərinin olmaması onların nitqlərinin səlistliyinə mənfi təsir göstərir. Mütaliə leksik zənginliyin formalaşması ilə yanaşı, analitik və tənqidi düşüncənin inkişafına da xidmət edir. Prezident İlham Əliyevin 2013-cü il aprelin 9-da təsdiq etdiyi "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı"na əsasən, ali təhsil müəssisələrində nitq mədəniyyəti fənninin tədris olunması gənclərin peşəsindən və ixtisasından asılı olmayaraq, yüksək nitq mədəniyyətinə yiyələnmələrini təmin etmək məqsədi daşıyır. Bu yanaşma həm fərdi bacarıqları, həm də vətəndaşlıq məsuliyyətini ön plana çıxarır.

Dilimizin zəngin söz tərkibi və ahəngli quruluşu ilə digər dillərlə müqayisədə nadir üstünlükləri var. Tarixi inkişaf prosesində, xüsusilə sovet dövründə ana dilimiz müxtəlif xarici təsirlərə məruz qalsa da, öz ifadə imkanlarını qoruyub saxlayıb. Klassik ədəbiyyat nümunələrindən bəhrələnən müasir yazarlar da dilin zənginliyini əsərlərində uğurla nümayiş etdirmişlər.

Nitq mədəniyyəti öncə ailədə formalaşır. Valideynlərin milli mədəniyyətə, vətənə və dilə münasibəti uşaqlarda ana dilinə hörmət hissi yaradır. Məktəb və müəllimlər bu prosesin növbəti mərhələsidir. Orta məktəb müəllimlərinin nitq mədəniyyəti şagirdlərin dil vərdişlərinin formalaşmasına birbaşa təsir göstərir. Müəllimlərin dili sevməsi və düzgün istifadə etməsi şagirdlərdə də adekvat münasibət yaradır. KİV-lər, televiyada aparıcıların nitqi, təqdimat tərzi və üslubu gənclərin danışıq vərdişlərini formalaşdırır. Eləcə də, filmlərdə istifadə olunan tərz gənclər arasında tez yayılır.

Bədii ədəbiyyatda müəlliflər tez-tez sərbəst, yaradıcı üslubdan istifadə edirlər, bəzən qrammatik və ya dil normalarından kənara çıxaraq ifadələri daha təsirli, poetik və ya emosional formada yazırlar ki, bu da oxucuların dil qaydalarını düzgün öyrənməsinə və istifadə etməsinə təsir göstərir.

Qloballaşan dünyada dillər qarşılıqlı təsirdədir. Xalqlar siyasi, iqtisadi və mədəni əməkdaşlıq çərçivəsində sözləri paylaşa və götürə bilərlər. Lakin Azərbaycan dili Dövlət Dil Komissiyasının tövsiyələrinə əsasən, yalnız qarşılığı olmayan anlayış və terminlərin istifadəsi üçün məhdud şəkildə açıqdır. Yəni, Azərbaycan dilində eyni mənanı verən uyğun söz yoxdursa, alınma sözlərin istifadəsi məqbul hesab edilə bilər. Ümummilli lider Heydər Əliyev təbirincə desək, Azərbaycan dili bütün hisslərimizi, anlayış və məfhumlarımızı ifadə etməyə qadirdir. Dilimiz son dərəcə zəngin lüğət tərkibinə malikdir. Burada əsas məsələ onun təbliği və xüsusilə gənclər arasında düzgün tətbiqidir.

Əslində, dil özü toxunulmaz və sabit sistemdir, dəyişkən isə danışıqdır. Nitq fərdidir, daim dəyişir və bu dəyişiklik çox vaxt dilimizin zənginliyinə bələd olmamaqdan, söz ehtiyatından düzgün istifadə etməməkdən qaynaqlanır.

Bəzi mütəxəssislər bu prosesi müasir dövrün qaçılmaz dil təkamülü kimi qəbul edirlər. Axı dil cəmiyyətin düşüncə tərzinə, texnoloji səviyyəsinə və sosial mühitə əsasən formalaşır. Sual yaranır: bu dəyişikliklər harada başa çatmalı, hansı məqamda dili qoruma mexanizmləri işə düşməlidir?

**Bu sualı Əməkdar jurnalist, BDU-nun jurnalistika fakültəsinin kafedra müdiri, professor Qulu Məhərrəmli cavablandırdı:**



– Əcnəbi və alınma sözlərin, eləcə də texnologiya, iqtisadiyyat və gündəlik həyatın müxtəlif sahələrindən gələn yeni terminlərin istifadəsi müasir dil proseslərinin təbii göstəricisidir. Dilin inkişafı və dəyişkənliyi, ictimai gerçəklik, texnoloji yeniliklər və qlobal əlaqələrlə sıx bağlıdır. Bu baxımdan, dilin təbii yenilənməsinə qarşı çıxmaq əksər hallarda mənasızdır. Lakin hər bir dilin özünü qoruma mexanizmləri, norma və qaydaları var. Bu da dilin həm istifadə, həm də mədəni davamlılığını təmin edir.

Azərbaycan dilinin sosial və mədəni anlamda yüksək "qonaqpərvərlik" xüsusiyyəti var. Cəmiyyətdə isə yad sözlərin qarşısını almağa yönəlmiş ümumi düşüncə və ya dil siyasəti formalaşmayıb. Başqa sözlə, insanlar və institutlar (məsələn, media, təhsil, dövlət qurumları) yad sözlərin işlədilməsinə qarşı sistemli şəkildə çıxış etmirlər. Məhz buna görə də gənclərin nitqində tez-tez rus, ingilis və ya türk dillərindən gələn sözlərə rast gəlinir, çünki cəmiyyətdə bu məsələyə qarşı "dil təmizliyi" baxımından vahid mövqe və maarifləndirici mexanizm yoxdur.

Əgər bir dildə yeni yaranan anlayışları ifadə etmək üçün uyğun, dəqiq sözlər və terminlər mövcud deyilsə, o zaman başqa dillərdən sözlərin götürülməsi qaçılmaz olur. Buna görə də prosesi mənfi yox, təbii sayırlar. Çünki dil bu yolla özünü yeni şəraitə uyğunlaşdırır, daha funksional olur. Elmi dildə buna "leksik transfer" (yəni sözlərin bir dildən digərinə keçməsi) deyilir və bu hadisə dilçilikdə normal, təbii inkişaf mərhələsi kimi öyrənilir.

Bununla belə, gənclərin ifadə üslubu müəyyən narahatlıq doğurur. Müşahidələr göstərir ki, gənclərin yazışmaları bəzən çox məhdud söz ehtiyatı ilə həyata keçirilir, dialoqlar səthidir və dilin potensial imkanları tam şəkildə istifadə olunmur. Bu, onların oxu vərdişlərinin yetərincə inkişaf etməməsi ilə əlaqələndirilə bilər. Oxu fəaliyyəti fərdin leksik bazasının, ifadə zənginliyinin və analitik düşüncəsinin formalaşmasında həlledici rol oynayır.

Dil həm funksional, həm də mədəni vahid kimi milli kimliyin, kollektiv yaddaşın və sosial identifikasiyanın daşıyıcısıdır. Ana dilinin qorunması yalnız fərdi dil bacarıqlarının inkişafı ilə məhdudlaşmır; bu, eyni zamanda, cəmiyyətin mədəni və sosial tarazlığının, eləcə də milli kimlik strategiyalarının mühüm komponentidir. Akademik və ictimai diskursda vurğulandığı kimi, dilin qorunması və inkişafı yalnız formal təhsil sisteminə deyil, media, televiziya, jurnalistika və populyar onlayn platformalara da məsuliyyət qoyur. İnstitutlaşmış media qurumları və məşhur blogerlər milli yaddaş, ana dili və mədəni identiklik məsələlərində passiv qala bilməzlər, çünki onların ictimai təsiri genişdir və sosial leksikonun formalaşmasına təsir göstərir.

Bu kontekstdə gənclərin texnoloji yeniliklərə və qlobal təcrübəyə açıq olmaları təqdirəlayiqdir. Lakin bu, ana dilinin zənginliyini, normativ strukturunu və milli rəmzlərə hörməti təhlükəyə atmamalıdır. Dilin inkişafı və davamlılığı həm fərdi səviyyədə oxu, təhlil və yaradıcılıq fəaliyyəti, həm də kollektiv səviyyədə ictimai məsuliyyət və mədəni siyasətlə təmin olunur. Bu baxımdan, dilçilik və sosial humanitar tədqiqatlar gənclərin dildən istifadə vərdişlərinin monitorinqi, terminoloji bazanın inkişafı və mədəni identikliyin qorunması istiqamətində əsas strateji tövsiyələr təqdim edə bilər.

**Filologiya elmləri doktoru, dosent Elçin İbrahimov qeyd etdi ki, dil xalqın milli varlığını, mədəni irsini qoruyan əsas mənəvi saxlancdır:**



– Azərbaycan dili uzun illər boyu müxtəlif siyasi və mədəni təsirlərə məruz qalıb, təxminən, 70 il ərzində rus dili dövlət, elm, təhsil və ictimai həyatın bütün sahələrində dominant mövqe tutub. Mətbuat, rəsmi sənədlər, elmi ədəbiyyat və təhsil sistemi əsasən rus dilində olub. Belə bir şəraitdə Azərbaycan dilinin sıxışdırılması, onun sosial nüfuzunun zəifləməsi təhlükəsi real idi. Buna baxmayaraq, dil xalqın gündəlik həyatında, ailə və mədəni mühitdə yaşadı. Ədəbiyyat, teatr, folklor və musiqi vasitəsilə milli identikliyin əsas dayağı kimi qorundu. Bir çox ziyalılar, müəllimlər və yazıçılar o dövrdə dilin unudulmaması, tədrisdə və mətbuatda yaşadılması üçün ciddi səylər göstərdilər.

Bu tarixi fakt bir daha sübut edir ki, Azərbaycan dili təkcə ünsiyyət vasitəsi deyil, həm də milli yaddaşın, mənəvi müqavimətin və mədəni dirənişin simvoludur. Elə buna görə də bu gün qloballaşmanın gətirdiyi xarici təsirlər sovet dövrünün dil siyasəti ilə müqayisədə artıq təhlükə yox, daha çox çağırış kimi qiymətləndirilə bilər. Bu baxımdan, bugünkü xarici təsirlər dilimiz üçün təhlükə sayılmamalıdır. Əlbəttə ki, dilə yanaşarkən yalnız leksik və sintaktik aspektlər yox, milli kimlik baxımından da həssas olmaq vacibdir. Bu baxımdan, dilə qarşı həssaslıq həm də vətəndaşlıq borcumuzdur.

Bu baxımdan, məktəblərdə və universitetlərdə gənclərə yalnız qrammatika deyil, həm də üslub və söz seçimi nümunələri göstərilməli, ictimai media və sosial şəbəkələrdə isə düzgün dil nümunələri təşviq edilməlidir. Əgər yad sözlər Azərbaycan dilinin sintaksis və leksik strukturuna uyğun istifadə olunarsa, dilin zənginləşməsi və yenilənməsi üçün stimul yarada bilər. Burada əsas məsələ balansdır: gənclərin danışığında dilin əsas norma və prinsipləri qorunmalı, eyni zamanda yeniliklərə açıqlıq saxlanılmalıdır.

Böyük şair Məhəmmədhüseyn Şəhriyar isə yuxarıda deyilənləri aydın poetik düstura belə çevirib:

**Türkün dili tək sevgili,**
**istəkli dil olmaz,**
**Özgə dilə qatsan,**
**bu əsl dil əsl olmaz.**

***Fidan ƏLİYEVA***
***XQ***

# AMEA Naxçıvan Bölməsinin iclası



**Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsində Rəyasət Heyətinin növbəti iclası keçirilib. Bölmənin sədri, akademik İsmayıl Hacıyev Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubileyi ilə bağlı tədbirlərin hazırlanması və bu prosesdə AMEA Naxçıvan Bölməsinin fəal iştirakı barədə məlumat verib.**

Akademik bildirib ki, bu yubiley ölkəmizin elmi inkişaf tarixində mühüm mərhələ olmaqla, elm adamlarının fəaliyyətinə dövlət səviyyəsində göstərilən diqqət və qayğının daha bir təzahürüdür. O, Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubileyi münasibətilə Bakıda keçiriləcək təntənəli tədbirdə AMEA Naxçıvan Bölməsinin sərgisinin də yer alacağını bildirib.

İclasda Prezident İlham Əliyevin 17 sentyabr 2025-ci il tarixli "Fətəli Xan Xoyskinin 150 illik yubileyinin keçirilməsi haqqında" sərəncamından irəli gələn vəzifələrə də diqqət yetirilərək onların icrası istiqamətində bölmədə müvafiq tədbirlərin həyata keçiriləcəyi vurğulanıb. Azərbaycan Respublikasının Elm, Texnologiya, Memarlıq, Mədəniyyət və Ədəbiyyat üzrə Dövlət Mükafatları Komissiyasına 2026-cı il üzrə Dövlət Mükafatları üçün əsərlərin təqdim edilməsi məsələsi də müzakirə olunub.

Aqrar elmlər üzrə fəlsəfə doktoru Orxan Bağırov çıxış edərək bölmədə 2025-ci ildə aparılmış elmi tədqiqat işlərinin yekunları, filologiya üzrə fəlsəfə doktoru Rəşad Zülfüqarov 8 Noyabr – Zəfər Gününün 5-ci ildönümü ilə əlaqədar vəzifələr barədə məlumat veriblər.

***Səbuhi HƏSƏNOV***
***XQ***

# Qarabağda biomüxtəlifliyin bərpasına elmi dəstək




**Dünən AMEA-nın Mərkəzi Elmi Kitabxanasında Elm və Təhsil Nazirliyinin Dendrologiya İnstitutunun təşkilatçılığı ilə "İşğaldan azad olunmuş torpaqlarda biomüxtəlifliyin qorunması və dayanıqlı ekoloji inkişaf" mövzusunda beynəlxalq elmi konfrans keçirilib.**

Açılış mərasimində Dendrologiya İnstitutunun baş direktoru biologiya üzrə fəlsəfə doktoru, dosent Minarə Həsənova "Konstitusiya və Suverenlik İli"nə və Zəfərimizin 5-ci ildönümünə həsr olunan konfransın elmi-ekoloji önəmini qeyd edərək bildirib ki, rəhbərlik etdiyi qurum son 3 ildə işğaldan azad olunmuş ərazilərin ekoloji durumu və ciddi zərbə almış biomüxtəlifliyin bərpa edilməsi ilə bağlı 7 konfrans təşkil edib. Qarabağda ekoloji bərpa və biomüxtəliflik istiqamətində aparılmış tədqiqatlar milli elmin prioritetlərindən biridir. Konfrans mövzu ilə bağlı ortaq layihələrin və yeni ideyaların meydana çıxmasını, beynəlxalq əməkdaşlıq yaratmağı hədəfə alıb.

Bildirilib ki, Dendrologiya İnstitutu Azərbaycanın bütün bölgələri ilə toxum mübadiləsi həyata keçirir. Təcrübə sahəsində toxumlarla çoxaldılmış 100 mindən çox bitki becərilir. Elm və Təhsil Nazirliyinin məktəbyanı ərazilərinin yaşıllaşdırılmasında bu bitkilərdən istifadə edilməsi tövsiyə olunur. İnstitut təcrübə sahəsində çoxaldılmış fidanların "Böyük Qayıdış" proqramı çərçivəsində işğaldan azad olunmuş ərazilərə köçürülməsini də həyata keçirir.

Vəhşi Təbiəti Mühafizə Fondu Azərbaycan nümayəndəliyinin rəhbəri Elşad Əsgərov, Manaş Kozıbayev adına Şimali Qazaxıstan Universiteti biologiya kafedrasının müdiri, təbiət elmləri doktoru Yelena Qalaktinova, Qazaxıstan Respublikası Botanika və Fitointroduksiya İnstitutu dendrologiya laboratoriyasının müdiri Aynur Yesjanova və aparıcı elmi işçi, dosent Velta Masalova, ETN Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun direktor müavini, biologiya üzrə fəlsəfə doktoru, dosent Ələmdar Məmmədov və başqaları çıxışlarında müzakirə olunan mövzuların gələcək tədqiqatlar üçün geniş imkanlar yaradacağını söyləyiblər.

Konfransın davamında 92 yerli, 20-dən çox xarici məruzə təqdim olunub, geniş fikir mübadiləsi aparılıb.

***XQ***

# Balakəndə Xurma festivalı

**Balakənin ənənəvi meyvə istehsalı olan xurmaçılığın inkişafını təşviq etmək, bu məhsulun və ondan hazırlanan nemətlərin geniş tanıdılması məqsədilə rayonda 5-ci dəfə Xurma festivalı keçirilib.**

Balakənlilər tarixən məhsul yığımını, məhsul bolluğunu böyük sevinc hissi ilə, şənliklər keçirərək qeyd ediblər. 2017-ci ildə rayonda ilk dəfə Xurma festivalı keçirilməklə gözəl ənənənin təməli qoyulub.

Balakən Rayon İcra Hakimiyyətinin təşkilatçılığı, Kənd Təsərrüfatı və Mədəniyyət nazirliklərinin, Aqrar İnnovasiya Mərkəzinin, "Balxurma" MMC-nin dəstəyi ilə gerçəkləşən festival ümumrayon şənliyinə çevrilib. Heydər Əliyev adına mədəniyyət və istirahət parkında keçirilən festivalın iştirakçıları şərbət, çörək və meyvələrdən hazırlanmış milli xonça ilə qarşılanıblar. Sonra təntənədən yadigar olaraq parkın ərazisində xurma ağacları əkilib.

Sonra iştirakçılar bayramsayağı bəzədilmiş parkda xurmadan hazırlanmış kulinariya məhsullarına və kompozisiyalara, kənd təsərrüfatı məhsullarının sərgilərinə baxıblar. Xurma, alma, armud, qoz, fındıq və digər meyvələr, "Azəryem Sənaye" MMC-nin, konserv zavodunun istehsal etdiyi müxtəlif çeşiddə məhsullar, kənd təsərrüfatı məhsullarının satış yarmarkası rayonun bar-bərəkət mənzərəsini əks etdirib. Qonaqlar Balakən mətbəxinin nümunələrindən dadıblar. Folklor kollektivlərinin çıxışları festivala yüksək təntənə gətirib, adamlarda xoş əhval yaradıb.





Festivalın açılışında Balakən Rayon İcra Hakimiyyətinin başçısı İslam Rzayev bağbanları məhsul bayramı münasibətilə təbrik edərək bildirib ki, xurma festivalının keçirilməsi önəmli ictimai-mədəni layihədir. Belə təntənələr kənd təsərrüfatının, o cümlədən meyvəçiliyin inkişafını stimullaşdırır. Festival yerli məhsulların xarici bazarlarda satışının təşviqi, milli adət-ənənələrin, qonaqpərvərliyin, yerli turizm imkanlarının tanıdılması baxımından da böyük əhəmiyyət daşıyır.

Kənd Təsərrüfatı Nazirliyinin Aqrar İnnovasiya Mərkəzinin direktoru Anar Cəfərov və Xurma İstehsalçıları və İxracatçıları Assosiasiyası İdarə Heyətinin sədri Qadir Yusifov bu gün ölkəmizdə qeyri-neft məhsulları üzrə ixrac imkanlarının artırılmasında meyvəçiliyin mühüm rol oynadığını, Azərbaycandan xarici bazarlara çıxarılan məhsullar sırasında xurmanın xüsusi yer tutduğunu bildiriblər.

Festivalı respublikanın və yerli incəsənət ustalarının konsert proqramı ilə başa çatıb.

***İlqar HƏSƏNOV,***
***XQ-nin bölgə müxbiri***

# “Art Weekend” çərçivəsində “Od, Su və Öpüşlər” adlı sərgi





**Noyabrın 2-dək paytaxtda keçiriləcək “Bakıya Uçuş. İncəsənət Həftəsonu. Gələcəyi İNDİ Duy” (Fly to Baku. Art Weekend. Sense the Future NOW) layihəsi çərçivəsində “Nine Senses” Art Center”də azərbaycanlı rəssam Ramina Səadətxanın “Od, Su və Öpüşlər” adlı fərdi sərgisi açılıb.**

Sərginin əsas mövzusu beynəlxalq incəsənət ictimaiyyəti ilə mənalı dialoq qurmağı hədəfləyən “Art Weekend” festivalının simvolik elementi olan su olub.

Ramina Səadətxanın yeni “Od, Su və Öpüşlər” silsiləsi, ruhu təmizləyən və insanı bədənin dilini anlamağa yaxınlaşdıran əsas ünsürlərə - mahiyyətə toxunmaq üçün poetik bir cəhddir. “Od, Su və Öpüşlər” ünsürləri vasitəsilə müəllif bədən və ruh, ünsürlər və duyğular arasındakı dialoqu açaraq tamaşaçıları əbədi hərəkətdən harmoniyanın yarandığı ziddiyyətlər dünyasına dəvət edir.

Ramina Səadətxanın yaradıcılığında rəsm, kollaj və pop-art abstrakt ekspressionizm elementləri birləşir. Sərginin “Uomo Natura” adlı ilk hissəsi hazırda “Art Center”in “Sea Breeze” istirahət mərkəzindəki filialında nümayiş olunur. 2022-ci ildə onun “Xaosun enerjisi” əsəri 59-cu Venesiya Biennalesində Azərbaycan Pavilyonunda nümayiş etdirilib və bu, rəssamın beynəlxalq yaradıcılıq bioqrafiyasında mühüm bir mərhələ olub.

Qeyd edək ki, “Od, Su və Öpüşlər” sərgisi “Art Weekend” proqramının bir hissəsidir. Müasir incəsənətə, musiqiyə və yaradıcı dialoqa həsr olunmuş layihə Heydər Əliyev Fondu və IDEA İctimai Birliyi tərəfindən Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin dəstəyi ilə təşkil olunub.

Layihənin müəllifi və təşəbbüskarı Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin yaradıcısı və rəhbəri Leyla Əliyevadır.




# Lerikdə ekofestival



**Lənkəran-Lerik avtomobil yolunun 36-cı kilometrliyində yerləşən “Cənub” turizm istirahət mərkəzində əsl bayram ovqatı hiss olunurdu. İlk dəfə mərkəzin yaşıllığa bürünmüş səfalı, füsunkar bir guşəsində Lerik Rayon İcra Hakimiyyətinin və Dövlət Turizm Agentliyi Lənkəran Regional Turizm İdarəsinin təşkilatçılığı ilə ekofestival keçirilirdi.**



Yerli sahibkarların istehsal etdikləri kənd təsərrüfatı və sənaye məhsulları, xalq sənətkarlığı nümunələri, gənc rəssamların əl işlərindən ibarət sərgilər uzaqdan diqqəti cəlb edirdi.

Sıra ilə düzülmüş çadırlarda Vizəzəmin kəndindən fermer Elşad Əmirovun nur balı adı ilə istehsal etdiyi arıçılıq məhsulları, Lənkəran Dövlət Peşə Təhsil Mərkəzinin Lerik filialının xalçaçı qrupunun toxuduğu xalçalar, V.İbrahimov adına Lerik şəhər inteqrasiya təlimli internat tipli gimnaziyanın təsviri incəsənət müəllimi Afət Novruzovanın muncuqlardan hazırladığı tətbiqi sənət nümunələri, tablolar, Dövlət Turizm Agentliyinin “Gənclərə iş, turistlərə nəvaziş!” layihəsi çərçivəsində Bibiyani kəndinin nemətləri, Lənkəran rayonunun Havzava kəndində istehsal olunmuş növbənöv düyülər, “Sitrus Valley” fermer təsərrüfatının rəhbəri Rəftarə Şükürovanın yetişdirdiyi sitrus meyvələri, Lənkəran rayonunun Vilvan kəndindən sahibkar Xalidə İsmayılovanın qamışdan toxuduğu zənbillər, səbətlər, Lerik rayonunun Zuvand və Orand ərazisində yetişdirilən tərəvəz və meyvələr nümayiş olunurdu. Festival çərçivəsində yerli məhsulların satış yarmarkası, dequstasiya, ustad təqdimatları iştirakçılar tərfindən maraqla qarşılanırdı.

Dövlət Turizm Agentliyinin Lənkəran Regional Turizm İdarəsinin rəisi İlqar Əzimov bildirdi ki, festivalın məqsədi cənub bölgəsinin unikal təbiətinin biomüxtəlifliyini, insanların qonaqpərvərliyini, zəngin adət-ənənələrini və qədim mədəniyyətini təqdimat etməkdən ibarətdir. Həmçinin rayonun ekoturizm potensialını və turizm məhsullarını tanıtmaq, bölgə turizmində mövsümlülüyü aradan qaldırmaq, kənd turizminə dəstək olmaq, ekoturizm və aqrobiomüxtəliflik ehtiyatlarını təşviq etmək, yerli fermerlərin turizmə inteqrasiyasına və regionların dayanıqlı inkişafına real töhfə vermək baxımından festivalın əhəmiyyəti böyükdür.

Lerik Rayon İcra Hakimiyyətinin başçısı Əkbər Abbasov, icra aparatının məsul işçiləri, rayonun idarə, müəssisə və təşkilatlarının rəhbərləri, rayon ictimiyyətinin nümayəndələri sərgilər, yerli gənclərin innovativ təqdimatları, gənc idmançıların çıxışları ilə yaxından tanış oldular.

Festivalda Lənkəran-Astara Regional Gənclər və İdman İdarəsi, Lənkəran Regional Mədəniyyət İdarəsi, “Lənkəran Springs Welness Resort”, “Cənub” turizm istirahət mərkəzi tərəfdaş kimi fəal iştirak edirdi.

Paytaxtdan gəlmiş incəsənət ustalarının və yerli musiqi kollektivlərinin rəngarəng çıxışları tədbiri daha da rövnəqləndirdi.

***Əlisəfa HƏSƏNOV,***
***XQ-nin bölgə müxbiri***

# 366 ağdamlı da doğma yurda qovuşdu

**Dünən yola salınan növbəti köç karvanı Ağdam rayonunun Xıdırlı kəndinə çatıb. Uzun illərin həsrətindən sonra daha 91 ailə olmaqla, 366 nəfər Ağdam sakini doğma yurduna qovuşub.**



Ailələrə evlərinin açarlarının təqdim edilməsi mərasimində Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin nümayəndələri iştirak ediblər.

Qeyd edək ki, hazırda Qarabağ və Şərqi Zəngəzurda oraya köçürülən keçmiş məcburi köçkünlərlə yanaşı, bu bölgədə aparılan layihələrin icrasında çalışan, ayrı-ayrı dövlət qurumlarının yerli bölmələrində xidməti vəzifələrini yerinə yetirən, yenidən fəaliyyətə başlamış səhiyyə, təhsil, mədəniyyət, turizm, sənaye, energetika müəssisələrində işləyən, həmçinin təhsil alan tələbələr də daxil olmaqla, ümumilikdə, 50 mindən çox insan yaşayır.

***XQ***

# Suraxanı torpağı itkin övladlarını qoynuna aldı



**Birinci Qarabağ müharibəsinin itkin şəhidi Rəfael Sultan oğlu Abbasov oktyabrın 29-da paytaxtın Suraxanı rayonu ərazisində yerləşən “Dədə Qorqud” qəbiristanlığındakı Şəhidlər xiyabanında dəfn olunub.**

Dəfn mərasimində şəhidin ailə üzvləri, Müdafiə, Daxili İşlər, Fövqəladə Hallar nazirliklərinin əməkdaşları, Suraxanı, Sabunçu, Xətai Rayon İcra hakimiyyətlərinin nümayəndələri, müharibə veteranları, şəhid ailələri və sakinlər iştirak ediblər.

Qeyd edək ki, Birinci Qarabağ müharibəsi şəhidi Rəfael Abbasov 1975-ci il iyulun 25-də Ermənistanın Amasiya rayonunun Mağaracıq kəndində anadan olub. O, 1992-ci il mayın 8-də Şuşa istiqamətində gedən döyüşlərdə itkin düşüb.

Rəfael Abbasov Birinci Qarabağ müharibəsində itkin düşmüş hesab edilən və şəxsiyyətləri müəyyənləşdirilərək dünən dəfn olunan dörd şəhiddən biridir.

***



**Birinci Qarabağ müharibəsinin itkin şəhidi Azər Ziraddin oğlu Bayramovun paytaxtın Suraxanı rayonu ərazisində yerləşən “Dədə Qorqud” qəbiristanlığındakı Şəhidlər xiyabanında dəfn mərasimi keçirilib.**

Mərasimdə itkin şəhidin yaxınları da vurğulayıblar ki, Azər Bayramovun 33 ildən sonra tapılaraq dəfn olunması həm ailəsi, həm də bütün xalqımız üçün dərin kədərlə yanaşı, həm də qürur hissi doğurur. Onun qəhrəmanlığı, Vətən uğrunda fədakarlığı heç vaxt unudulmayacaq, adı daim ehtiramla anılacaq.

Həmçinin qeyd edilib ki, Azərbaycan xalqı qəhrəmanları hər zaman uca tutur. Onların göstərdikləri igidlik sayəsində bu gün ölkəmiz müstəqil, qüdrətli və qalib bir dövlət kimi inkişaf edir.

Qeyd edək ki, Azər Bayramov 1973-cü il iyunun 24-də anadan olub. Onun 1992-ci il mayın 8-də Şuşa şəhərində itkin düşdüyü güman olunurdu.

***



**Birinci Qarabağ müharibəsinin itkin şəhidi Əliyar Fərrux oğlu Əliyev oktyabrın 29-da paytaxtın Suraxanı rayonu ərazisində yerləşən “Dədə Qorqud” qəbiristanlığındakı Şəhidlər xiyabanında dəfn olunub.**

Qeyd edək ki, Birinci Qarabağ müharibəsi şəhidi Əliyar Əliyev 1961-ci il yanvarın 5-də Ağdam rayonunun Kolqışlaq kəndində anadan olub. O, 1992-ci il mayın 8-də Şuşa istiqamətində gedən döyüşlərdə itkin düşüb.

***



**Birinci Qarabağ müharibəsinin itkin şəhidi İlham İmdad oğlu Mehdiyev oktyabrın 29-da paytaxtın Suraxanı rayonu ərazisində yerləşən “Dədə Qorqud” qəbiristanlığındakı Şəhidlər xiyabanında dəfn olunub.**

Qeyd edək ki, İlham Mehdiyev 1967-ci il aprelin 5-də anadan olub. O, 1992-ci ildə Qarabağ uğrunda gedən döyüşlərdə itkin düşüb.

İlham Mehdiyev Birinci Qarabağ müharibəsində itkin düşmüş hesab edilən və şəxsiyyətləri müəyyənləşdirilərək dünən dəfn olunan dörd şəhiddən biridir.

***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 232 (30926) 30 oktyabr 2025-ci il, cümə axşamı

## İDMAN

### Taekvondoçumuzun Dünya bürüncü

**Azərbaycan taekvondoçusu Qaşım Maqomedov (58 kq) Çinin Uşi şəhərində keçirilən dünya çempionatında bürünc medal qazanıb. 26 yaşlı idmançımız – Paris-2024 Yay Olimpiya Oyunlarının gümüş mükafatçısı yarışın yarımfinalında məğlub olub.**



İdmançımız medala gedən yolda Abdul Vahid (Hindistan, 2:1), Omonjon Otajonov (Özbəkistan, 2:0), Lev Korneyev (Serbiya, 2:1) və Yusuf Badəm (Türkiyə, 2:1) üzərində qələbə qazanaraq fəxri kürsünün üçüncü pilləsində yer alıb.

Qeyd edək ki, Azərbaycan dünya çempionatında 9 taekvondoçu ilə təmsil olunur. Çempionata bu gün yekun vurulacaq.

### Paracüdoçuların Olimpiya çempionları ilə məşqləri

**Milli Paralimpiya Komitəsi və Azərbaycan Cüdo Federasiyasının əməkdaşlığı çərçivəsində yeniyetmə və gənc paracüdoçuların olimpiyaçılarla birlikdə məşqlərinə start verilib. Məşqlərdə Olimpiya çempionları Hidayət Heydərov (73 kiloqram) və Zelim Kotsoyev (100 kiloqram) də iştirak ediblər.**



Milli Paralimpiya Komitəsindən bildirilib ki, bu cür tədbirlərdə əsas məqsəd yeni paracüdoçu nəslinin formalaşdırılması, onların beynəlxalq arenada ölkəmizi layiqincə təmsil etməsi və idmançılarımızın peşəkar inkişafının dəstəklənməsidir.

### Futbol üzrə Azərbaycan kuboku

**Dünən futbol üzrə Azərbaycan Kubokunda II təsnifat mərhələsinə yekun vurulub.**




İkinci oyun günündə daha 6 qarşılaşma keçirilib. Premyer Liqada çıxış edən "Sumqayıt" Zaqatala Olimpiya İdman Kompleksinin stadionunda "Zaqatala"nın qonağı olub. Görüş sumqayıtlıların qələbəsi ilə başa çatıb – +3:0. "Qəbələ" isə "Mingəçevir"i qəbul edib. Qəbələ şəhər stadionunda keçirilən oyun meydan sahiblərinin üstünlüyü ilə yekunlaşıb – 5-1.

Digər oyunlarda "Səbail"– "Şamaxı" – 0-1, "Neftçi" – MOİK – 6:2, "Xankəndi"– "Difai" – 1-2, "Şahdağ Qusar"– "Şimal"– 2:0 nəticələri qeydə alınıb. Beləliklə, "Sumqayıt", "Qəbələ", "Şamaxı", "Neftçi", "Difai" və "Şahdağ Qusar" növbəti mərhələdə oynamaq hüququ qazanıblar.

Qeyd edək ki, bir gün əvvəl isə "Kəpəz", "Karvan-Yevlax", "İmişli", "Turan Tovuz", "Baku Sportinq" və "Şəfa" da 1/8 finala vəsiqəni təmin ediblər.

***Qabil YUSİFOĞLU***
***XQ***

*İdman gündəliyi*

# Güləşçilərimiz Vətənə medalla qayıdıblar




**Serbiyanın Novi Sad şəhərində keçirilən U23 Dünya çempionatında 1 dəst medal qazanan sərbəst güləş üzrə milli komandanın üzvləri vətənə qayıdıblar.**

Heydər Əliyev Beynəlxalq Aeroportunda idmançıları qarşılanma mərasimi keçirilib. Komandanın baş məşqçisi və üzvləri mətbuata açıqlama verib.

**Xetaq Qazyumov, baş məşqçi:**
– Çox sevinirik ki, bu yarışda çempionumuz oldu. Kənan Heybətovdan bu qızıl medalı çoxdan gözləyirdik. Gənc güləşçimiz Xetaq Karsanovun yenicə keçdiyi 125 kiloqramda gümüş medal qazanması da sevindiricidir. Ali Tsokayev də 86 kiloqrama keçidini bürünc medalla qeyd etdi. Ceyhun Allahverdiyev və Fərid Cabbarovdan da medal gözləyirdik.

Onlardan başqa da medal qazana biləcək milli üzvləri var idi. Bəzisi taktiki səhvlərə yol verdi. Bəzisi isə emosiyalarını cilovlaya bilmədi. 3 gündən sonra İslam Həmrəyliyi Oyunlarının hazırlıqlarına başlayacağıq. Bu yarışda aşkarladığımız səhvləri və boşluqları növbəti yarışa qədər aradan qaldırmağa çalışacağıq.

**Kənan Heybətov, Dünya çempionu:**
– Bu yarışa çox yaxşı hazırlaşmışdım. Şükürlər olsun ki, əziyyətim yerdə qalmadı. U23 yaş qrupunu qızıl medalla başa vurdum. İnşallah, daha da yaxşı hazırlaşıb, gələn il böyüklər arasında da bu uğuru təkrarlayaram. Finalda güləşdiyim iranlı Sina Xəlililə yanvarda da qarşılaşmışdım. Zaqrebdə keçirilən reytinq turnirinin finalında tam üstünlüklə (12:1) qalib gəlmişdim. Bu yarışda 0:3 hesabıyla geridə idim. İkinci hissədə geridönüş edərək 9:4 hesablı qələbə qazandım.

**Xetaq Karsanov, dünya ikincisi:**
– İlk növbədə, bizə yaradılan hərtərəfli şəraitə görə Azərbaycan Güləş Federasiyasına təşəkkürümü bildirirəm. Daha da yaxşı nəticə əldə etmək istərdik. Şəxsən özümdən çempionluq gözləyirdim. 125 kiloqramda debüt edirdim. Səhvlərim üzərində işləyəcəyəm. Daim yanımızda olan və bizə kömək edən bütün məşqçilər heyətinə minnətdaram.

***Q.YUSİFOĞLU***
***XQ***

*Sağlamlıq*

# Qocalar, arıqlamağa tələsməyin...

**Uzun illər boyu həkimlər, pəhriz mütəxəssisləri və fitnes məşqçiləri artıq çəkinin sağlamlığa zərərli olduğunu təlqin ediblər. Lakin son illərin bir sıra beynəlxalq elmi tədqiqatları göstərir ki, bu məsələ o qədər də birtərəfli deyil.**



Görünür ki, müəyyən yaşdan sonra və bəzi hallarda azacıq artıq çəki orqanizm üçün faydalı da ola bilər. Belə ki, mütəxəssislər insan bədənində olan piylər haqqında müxtəlif fikirlər yürüdərək onun insanın müəyyən yaş həddində faydasının olduğu qənaətinə gəliblər. Bildirilir ki, bu hal xüsusilə yaşlılar və ya xroniki xəstəlikləri olan insanlarda özünü göstərir.

Harvard Universitetinin 2024-cü ildə dərc etdiyi hesabatda qeyd olunur ki, yaşlı insanların azacıq artıq çəkili olması onların infeksiyalara və əməliyyatlardan sonrakı bərpa dövrünə daha yaxşı dözməsinə kömək edir.

Avropa Tibb Araşdırmaları Jurnalının 2025-ci il məlumatına görə, 65 yaşdan yuxarı pasiyentlər arasında yüngül obez (artıq yağ yığımı ilə xarakterizə olunan xroniki xəstəlik) olanların ölüm riski normal çəkililərlə müqayisədə 10–15 faiz az olub.

Mütəxəssislərin fikrincə, orqanizmdə yağlar yaxşı və pis olmaqla fərqlidir. İnsanın kökəlməsinə səbəb olan yağlar pis yağlardır. Bu yağlar səbəbindən orqanizmimizdəki piylərin miqdarı artır və xəstəliklərə səbəb olur. Amma orqanizm yaxşı yağlarsız yaşaya bilməz. Çünki bəzi vitaminlər orqanizm tərəfindən yağların sayəsində sovrulur.

Qeyd edək ki, pis yağ dedikdə ət və süd məhsullarında olan və orqanizm tərəfindən sovrulmayıb piy toxumasına çevrilərək donub qalmış yağlar nəzərdə tutulur. Yaxşı yağlar isə balıqda, günəbaxan tumunda, təmiz kərə yağında və qozda olur.

Hər bir normal orqanizmdə az miqdarda olsa da, piy toxuması olmalıdır. Bu, orqanizmin normal funksiyası üçün lazımdır. Qadın orqanizmində 20-25 faiz, kişi orqanizmində isə 5-10 faiz piy toxumasının olması normal hesab edilir. Bu göstəricinin az olması ürək-damar sisteminin, endokrin sistemin və mərkəzi sinir sisteminin patologiyalarına səbəb olur.

Mütəxəssislər araşdırmalar nəticəsində maraqlı bir faktı da ortaya çıxarıblar. "Jama Neurology" jurnalında dərc olunan araşdırmaya görə, piylənmə yaşlı insanları demensiyadan unutqanlıqla müşayiət olunan xəstəlikləri qoruyur. Məlumdur ki, orta yaşda piylənmə yaşlandıqca, demensiyanın inkişafı üçün aparıcı risk amilidir. Burada əsas səbəblərdən biri beyinə gedən qan axınının azalmasıdır. Bildiyimiz kimi, piylənmə həm də bütün bədəndəki qan damarlarına zərər verə bilən yüksək qan təzyiqi riski hesab olunur. Amma maraqlısı odur ki, 65 yaşdan sonra bu vəziyyət dəyişir. Belə ki, bu yaş həddindən sonra artıq çəkiyə sahib olmağın beyinə təsir edən xəstəliklərə qarşı qoruyucu funksiyası olduğu aşkarlanıb. Bu iki ziddiyyətli faktı tədqiqatçılar "piylənmə paradoksu" adlandırıblar. Beləliklə, piylənmənin bütün hallarda insan sağlamlığı üçün zərərli olduğuna dair ənənəvi inanca zərbə vurulub.

Beləliklə, mütəxəssislərin elmi araşdırmalarını nəzərə alaraq deyə bilərik ki, yaşlı insanlarda bir az artıq çəki heç də zərərli deyil, əksinə, onlar üçün qoruyucudur.

***N.ADİLQIZI***
***XQ***

# Cüdoçularımızın "Ailə günü"

**Azərbaycan Cüdo Federasiyasının (ACF) təşkilatçılığı ilə "Ailə günü" adlı mərasim keçirilib. ACF-dən verilən məlumata görə, görüşdə qurumun vitse-prezidenti, olimpiya çempionu Elnur Məmmədli şəxsi uğur hekayəsini bölüşərək cüdonun insanın formalaşmasında oynadığı mühüm roldan danışıb.**




Azərbaycan millisinin baş həkimi Ramil Vəliyev çıxışında cüdonun sağlam həyat tərzinin təbliğinə xidmət etdiyini vurğulayıb.

Yığmanın fizioterapevti Morqan Selles uşaqlar və valideynlər üçün ev şəraitində edilə biləcək fiziki hərəkətləri nümayiş etdirib.

Avropa çempionu Orxan Səfərov isə cüdo ilə ilkin tanışlıq mövzusunda master-klass keçirib.

***XQ***

*HAVA*

# Bəzi rayonlarda yağış və dolu, dağlıq ərazilərdə qar yağacaq

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, 29-dan 30-na keçən gecə və səhər isə bəzi yerlərdə yağış yağacağı gözlənilir. Gücl şimal–qərb küləyi günün ikinci yarısında mülayimləşəcək.**

Havanın temperaturu gecə 12-14, gündüz 15-18 dərəcə isti olacaq. Atmosfer təzyiqi 762 millimetr civə sütunundan 770 millimetr civə sütununa yüksələcək. Nisbi rütubət gecə 70-75, gündüz 55-60 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağış yağacağı, şimşək çaxacağı proqnozlaşdırılır. Ayrı-ayrı yerlərdə yağışın leysan xarakterli intensiv olacağı, dolu düşəcəyi, dağlıq ərazilərdə qar yağacağı ehtimal olunur. Axşam yağıntılar tədricən kəsiləcək. Bəzi yerlərdə arabir duman olacaq. Qərb küləyi ayrı-ayrı yerlərdə arabir güclənəcək.

Havanın temperaturu gecə 10-14, gündüz 16-20, dağlarda gecə 1-5, gündüz 5-9 dərəcə isti olacaq.

***Q.ƏLİYEV***
***XQ***

*✓ Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti tərəfindən Umarov Əziz Erkin oğlunun adına verilmiş DSX seriyalı 0016609 nömrəli hərbi vəsiqə itdiyi üçün etibarsız sayılır.*

**ALLAH RƏHMƏT ELƏSİN!**

Niyazi Həsənov ailəsi ilə birlikdə Lənkəran rayonunun Viyən kənd ağsaqqalı

**TALVERDİ ƏHMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi Fiziologiya İnstitutunun kollektivi qocalmanın fiziologiyası laboratoriyasının müdiri, biologiya üzrə fəlsəfə doktoru, dosent

**ÇİNGİZ QASIMOVUN**

vaxtsız vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.

DİREKTOR – BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 Email: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994 (51) 280-16-44

"Xalq" qəzeti redaksiyası" MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3508
SİFARİŞ 2208
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Mirbağır YAQUBZADƏ
Çapa imzalanmışdır 00:00